RSSSMİ DÖVLSST QSSZETİ

# AZƏRBAYCAN



№ 261 (10006) 11 dekabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QSSZETİN SSSASI 1918-Cİ İLDSS QOYULMUŞDUR

# İlham Əliyevlə görüşmək şərəfi



## Azərbaycan Prezidenti Avropada sözünə sadiq lider, etibarlı tərəfdaş və ən arzuolunan şəxs kimi qəbul edilir

Azərbaycanın son illərdəki mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, onun regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib. Bir çox ölkə, o cümlədən Avropa İttifaqının üzvləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş olduqlarını elan edirlər. Dünyanın böyük siyasi və iqtisadi dairələri Azərbaycanın regiondakı liderliyini və qlobal siyasətdə rolunu daim yüksək qiymətləndirirlər.

Bütün bunlar əlbəttə ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi müstəqil, qətiyyətli siyasətin, etibarlı tərəfdaşlıq prinsipinin və sözünə sadiqliyinin yaratdığı reallıqdır. İlham Əliyev dəfələrlə əməli ilə, gördüyü iş ilə sübut edib ki, sözü imzası qədər keçərlidir.

Avropa liderləri tərəfindən onun fəaliyyətinə verilən yüksək qiymətlər, Azərbaycanın Avropadakı strateji mövqeyini və dövlət başçısının ölkəsini dünya arenasında necə təmsil etdiyini göstərir.

Bir çox Avropa lideri, İlham Əliyevin Azərbaycanı müasir dövrün siyasi və iqtisadi tələblərinə uyğun şəkildə inkişaf etdirməkdəki mükəmməl bacarığını vurğulayıb. Onlar, İlham Əliyevin xüsusilə beynəlxalq münasibətlərdə strateji düşüncə tərzinə malik olduğunu və Azərbaycanın müxtəlif qlobal məsələlərə münasibətini balanslı və düzgün şəkildə ortaya qoyduğunu qeyd edirlər.

Avropa ölkələrinin prezident və hökumət başçılarının İlham Əliyev haqqında söylədikləri səmimi fikirlərə diqqət etsək, buna bir daha şahidlik edərik.

Dekabrın 8-də Slovakiyaya ilk rəsmi səfər edən İlham Əliyevi Bratislavada qəbul edən Prezident Peter Pelleqrini səmimi fikirlər söyləyib: "Sizi Slovakiyada, Bratislavada qəbul etmək böyük şərəfdir. Slovakiyaya səfər etmək qərarınız bizi çox şərəfləndirdi. Bu, Slovakiya Respublikasının tarixində Azərbaycan Prezidentinin ilk rəsmi səfəridir... Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik, çünki Sizinlə dəfələrlə görüşmək imkanımız olub. Çox məmnunam ki, Baş nazir qismində səfərim zamanı Sizinlə görüşdüyüm vaxtda biz münasibətlərimizi gücləndirmək qərarına gəldik".

Peter Pelleqrini bəlkə də indiyədək Slovakiyaya səfər edən heç bir dövlət başçısına bu qədər səmimi, içdən gələn fikirlər söyləməyib. İkinci dəfə İlham Əliyevlə görüşən slovakiyalı həmkarının bu münasibəti Azərbaycana və onun liderinə verilən yüksək dəyərdir.

3

## "Sizin qətiyyəti və məsuliyyəti rəhbər tutan liderliyiniz qlobal sülhün təşviqi uğrunda əsl xidmətin nümunəsidir"

### Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident!

Səmimi məktubunuza görə Sizə dərin təşəkkürümü bildirirəm. Xoş sözlərinizi, sülh və sabitlik naminə səylərimizə dair fikirlərinizi yüksək qiymətləndirirəm.

Münaqişələrin həllinə davamlı sadiqliyiniz, dialoqun irəlilədilməsində şəxsi iştirakınız və dünyanın müxtəlif bölgələrində gərginliyin azalmasına verdiyiniz töhfələr qəti inamıma görə, Nobel Sülh Mükafatı da daxil olmaqla, ən yüksək beynəlxalq tanınmaya tam layiqdir. Sizin qətiyyəti və məsuliyyəti rəhbər tutan liderliyiniz qlobal sülhün təşviqi uğrunda əsl xidmətin nümunəsidir.

Əminəm ki, davamlı dialoq və əməkdaşlıq vasitəsilə tərəfdaşlığımız ölkələrimizdə və onun hüdudlarından kənarda da sülhün, təhlükəsizliyin və rifahın möhkəmlənməsinə xidmət edəcəkdir.

Məktubunuzda ifadə olunan qarşılıqlı hörmət ruhuna və diqqətinizə görə səmimi minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm.



*Dərin hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2025-ci il*

## Azərbaycan-Keniya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur

### Keniya Respublikasının Prezidenti zati-aliləri cənab Uillyam Samoei Rutoya

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Keniya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin inkişafına, müxtəlif sahələrdə, xüsusilə də energetika, kənd təsərrüfatı, sənaye və digər sahələrdə əməkdaşlığımızın genişlənməsinə böyük önəm veririk.

Sentyabr ayında Nyu Yorkda Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq və mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə dostluq əlaqələrimizin möhkəmlənməsinə, həm ikitərəfli, həm də



çoxtərəfli əsasda qarşılıqlı səmərəli əməkdaşlığımızın dərinləşməsinə nail olacağıq.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

## Azərbaycanla "John Deere" şirkəti arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

### Prezident İlham Əliyev "John Deere" şirkətinin Mərkəzi Asiya və MDB ölkələri üzrə prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da "John Deere" şirkətinin Mərkəzi Asiya və MDB ölkələri üzrə prezidenti, "John Deere Walldorf International" MMC-nin baş icraçı direktoru Ksaba Leykonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanda kənd təsərrüfatının geniş potensialının olduğu vurğulanaraq, bu sahənin inkişafı ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlər qeyd olundu.

"John Deere" şirkətinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini deyən qonaq əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bildirdi, Azərbaycanda pambıqçılıq sənayesi ilə bağlı irəli sürdükləri layihə barədə məlumat verdi.

Ksaba Leykon Bakıda şahidi olduğu inkişafın onda dərin təəssürat hissi yaratdığını dedi.

Görüşdə Azərbaycanla şirkət arasında əməkdaşlığın perspektivləri müzakirə olundu, təhsil və təlim mərkəzinin yaradılması, qarşılıqlı təcrübə, suvarma, logistika, pambıq və taxıl istehsalı dəyər zəncirinin rəqəmsallaşdırılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, 1837-ci ildə ABŞ-də qurulmuş "John Deere" kənd təsərrüfatı, tikinti və meşəçilik avadanlıqlarının istehsalı ilə məşğul olan qlobal miqyasda aparıcı şirkətlərdən biridir. Şirkətin əsas fəaliyyət sahələrinə traktor, kombayn, pambıqyığan maşınların istehsalı daxildir. Ötən il ümumi gəliri 52 milyard ABŞ dollarına yaxın olan "John

## Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında münasibətlər uğurla inkişaf edir

### Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan üzrə ticarət elçisini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikası üzrə ticarət elçisi Lord Olderdaysı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Lord Olderdays Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında razılaşmaların əldə olunmasının tarixi əhəmiyyətinə toxunaraq, bu məsələdə Prezident Donald Trampın rolunu xüsusi vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın sülh gündəliyinin təşəbbüskarı kimi onun irəli aparılması üçün bundan sonra da səylərini davam etdirəcəyini bildirdi və sülh şəraitinin regionun iqtisadi potensialının inkişafına töhfəsinə toxundu.



Prezident İlham Əliyev Azərbaycanla BP şirkəti arasında 30 ildən artıq davam edən uğurlu əməkdaşlığı qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında strateji tərəfdaşlıq, dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, ticarət, investisiya, enerji, o cümlədən bərpaolunan enerji, müdafiə sənayesi, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu qeyd edildi. İkitərəfli əlaqələrimizin dərinləşdirilməsində müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunuldu.

Böyük Britaniya şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və quruculuq işlərində iştirak etməklə bu məsələyə töhfəsi məmnunluqla qeyd olundu.

## 2026-cı ildə növbəti "Yüksəliş"müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər və "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı ildə növbəti "Yüksəliş"müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1000000 (bir milyon) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

3. "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1293(Cild I) 2-ci hissəsində "əmək və əhalinin sosial müdafiəsi" sözləri "maliyyə" sözü ilə və "Direktorlar Şurasının" sözləri "İdarə Heyətinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2025-ci il*

## R.R.İsmayılovun Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Rövşən Rəhim oğlu İsmayılov Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2025-ci il*

## Ş.M.Əliyevin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şahin Məhərrəm oğlu Əliyev Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2025-ci il*

## İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının birgə iclası keçirilib



**Dekabrın 10-da İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının birgə iclası keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri, İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının (MŞ) sədri Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində SOCAR-ın dayanıqlı fəaliyyəti barədə təqdimat, o cümlədən SOCAR tərəfindən həyata keçirilən layihələr və onların inkişaf perspektivləri, layihələrin icrası üçün maliyyələşmə mənbələri, borc portfeli və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə SOCAR-ın prezidenti Rövşən Nəcəf təqdimatla çıxış edib. İclasda eləcə də iqtisadiyyat naziri Mikayıl Cabbarov, Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov və AİH-in baş icraçı direktoru Ruslan Əlixanov çıxış ediblər.

Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın və AİH-in Müşahidə Şurasının üzvləri tərəfindən müzakirələr aparılıb. İclasın yekununda şura üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla SOCAR və ARDNF-yə müvafiq tapşırıqlar verilib.

## "Keyfiyyət informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 381** **Bakı şəhəri, 9 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 413 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Keyfiyyət informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra - Agentlik):

2.1. Keyfiyyət informasiya sisteminin formalaşdırılması və aparılması, həmçinin fəaliyyətinin təşkili, saxlanması, ondan səmərəli istifadənin təmin edilməsi və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Keyfiyyət informasiya sistemində formalaşan açıq məlumatların "Açıq məlumatlar" portalında yerləşdirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Agentlik ilə birlikdə Keyfiyyət informasiya sisteminin "Hökumət buludu"na keçidinin təşkili, aparılması və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq,"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" (bundan sonra - Strategiya) təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Strategiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planı və bu kimi digər sənədlərin Strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlər görsün;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Strategiyada nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikasının dövlət büdcəsi layihəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2025-ci il*

*Sərəncamın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxsin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkə iqtisadiyyatının davamlı inkişafına və rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş uzunmüddətli və irimiqyaslı layihələrin həyata keçirilməsi üçün dayanıqlı və çevik biznes yönümlü maliyyələşdirmə sisteminin formalaşdırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki"Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxs Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində"Azərbaycan Biznesinin İnkişafı Fondu"Açıq Səhmdar Cəmiyyətinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur)*.

3. Müəyyən edilsin ki:

3.1."Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxsin hüquqi varisidir və onun hüquq və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir;

3.2. Cəmiyyət iqtisadiyyatın qeyri-neft/qaz sektorunun inkişafını dəstəkləyən, sahibkarlığın maliyyə təminatını gücləndirən, investisiyaların təşviqi və sahibkarlığa dəstək mexanizmlərinin inkişafını təmin edən və vəsaitini müəyyən olunmuş qaydada yerləşdirməklə dövlətin iqtisadi inkişaf prioritetlərinə xidmət edən dövlətə məxsus kommersiya hüquqi şəxsidir;

3.3. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.4. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 5 (beş) üzvdən - Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr və onun 4 (dörd) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

4. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

4.1.2. Cəmiyyətin nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

4.1.3. Cəmiyyətin icra orqanının yaradılması;

4.1.4.Cəmiyyətin Müşahidə Şurasının sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2. Nazirliyə:

4.2.1. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edilməsi;

4.3. Müşahidə Şurasına:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Cəmiyyət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxs fəaliyyətini davam etdirsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ-hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Nazirlik:

7.1. Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

7.2. Cəmiyyət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən 1 (bir) ay müddətində "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxsin balansında olan dövlət əmlakının Cəmiyyətin balansına verilməsi ilə bağlı tədbirlər görsün;

7.3. iqtisadiyyatın tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası"nın 1.3.1-ci yarımbəndində göstərilən güzəştli şərtlərlə digər maliyyələşmə mexanizmlərinin tətbiqi imkanlarını öyrənsin və nəticəsindən asılı olaraq təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

7.4. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

8. "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 1, maddə 26, № 4 (I kitab), maddə 333) aşağıdakı məzmunda 8-3-cü hissə əlavə edilsin:

"8-3. Bu Fərmanın müddəaları "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin öz əmlakına və onun tərəfindən hüquqi şəxslərin yaradılması və yenidən təşkili, hüquqi şəxslərdə iştirak paylarının (səhmlərin) əldə edilməsi vasitəsilə investisiya qoyuluşu etdiyi təsərrüfat cəmiyyətlərinə və digər hüquqi şəxslərə münasibətdə tətbiq edilmir.".

9. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, Aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12(I kitab), maddə 2603 (Cild I); 2024, № 12 (II kitab), maddə 1364) 2.1-ci bəndində "10" rəqəmləri "vergilər ödənildikdən sonra 5" sözləri ilə, "90" rəqəmləri "95" rəqəmləri ilə əvəz edilsin.

10."Sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1461 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1105 (Cild I); 2024, № 12 (II kitab), maddə 1364)3-cü və 4-cü hissələri ləğv edilsin.

11. "Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12(II kitab), maddə 1364) aşağıdakı dəyişikliklər edilsin:

11.1.1-ci hissə ləğv edilsin;

11.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası"nın1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

11.2.1. 1.2-ci bənddə "qeyri-neft" sözləri "qeyri-neft/qaz" sözləri ilə əvəz edilsin;

11.2.2. 1.3.3-cü yarımbənddə "8.1.5-ci" sözləri "8.1.5 8.1.7-ci" sözləri ilə əvəz edilsin;

11.2.3. 1.4-cü bənd üzrə:

11.2.3.1. birinci abzasda "Aşağıdakıları əhatə etməklə, bu" sözləri "Bu" sözü ilə və həmin abzasın sonunda iki nöqtə işarəsi nöqtə işarəsi ilə əvəz olunsun, həmin abzasa "tələbləri" sözündən əvvəl "və Fondun Nizamnaməsinin" sözləri əlavə edilsin;

11.2.3.2. 1.4.1-1.4.3-cü yarımbəndlər ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,10 dekabr 2025-ci il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması üçün elektron qaimə-fakturanın Vahid Forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 iyul tarixli 242 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 379** **Bakı şəhəri, 8 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması üçün elektron qaimə-fakturanın Vahid Forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 iyul tarixli 242 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 972 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adına və 1-ci hissəyə "mallara" sözündən sonra ", habelə tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə" sözləri əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə yeni redaksiyada verilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilmənin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 380** **Bakı şəhəri, 9 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında","İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun tətbiqi və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 149 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilmənin həyata keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Parlamentlər arasında əlaqələrin inkişafından məmnunluq bildirilib

**Dekabrın 10-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikası üzrə ticarət elçisi Lord Olderdaysla görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə qeyd olunub ki, bu gün iki ölkə arasındakı ikitərəfli əməkdaşlıq iqtisadiyyat, ticarət, enerji, o cümlədən bərpaolunan enerji, təhsil, müdafiə sənayesi və digər sahələri əhatə edir. İki ölkə arasındakı münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin əhəmiyyəti vurğulanaraq, bu baxımdan Prezident İlham Əliyevin Birləşmiş Krallığa səfərlərinin, Birləşmiş Krallığın Baş naziri Kir Starmerin ötən il COP29-da iştirak üçün ölkəmizə səfərinin ikitərəfli əməkdaşlıq gündəliyi baxımından önəmi diqqətə çatdırılıb.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarova iki ölkənin parlamentləri arasında əlaqələrin inkişafından məmnunluğunu bildirərək, özünün 2022-ci ildə Böyük Britaniyaya rəsmi səfərini xatırladıb və həmin səfər çərçivəsində keçirdiyi görüşlərin və aparılan müzakirələrin parlamentlərarası münasibətlərin inkişafı baxımından əhəmiyyətini qeyd edib. Bildirilib ki, Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupu ən böyük qruplardan biridir. Spiker Sahibə Qafarova qanunvericilik orqanları arasında əlaqələrin daha da genişləndirilməsində qarşılıqlı səfərlərin və sıx dialoqun əhəmiyyətini qeyd edib.

Görüş üçün təşəkkürünü bildirən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikası üzrə ticarət elçisi Lord Olderdays iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafından danışıb, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Qonaq Azərbaycanın olduqca əlverişli geostrateji mövqeyi, Orta dəhlizin fəaliyyətindəki əhəmiyyətli rolu, yeni istiqamətlər və sahələr üzrə əməkdaşlıq imkanları, Azərbaycanda keçirilmiş COP29-un əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Söhbət zamanı Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında iqtisadi, siyasi, təhsil, bərpaolunan enerji, parlamentlərarası və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğu diqqətə çatdırılıb.

*"Azərbaycan"*

# Bakıda "Mədəniyyət və Hüquq: Müasir çağırışlar" adlı elmi-praktik forum keçirilib







**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Mədəniyyət və Hüquq: Müasir çağırışlar" adlı elmi-praktik forum keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Forum Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 28 dekabr 2024-cü il tarixli sərəncamının icrası ilə bağlı hazırlanan tədbirlər planı çərçivəsində təşkil olunub.

Tədbirin açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Adil Kərimli, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Milli Məclisin deputatları, tanınmış mədəniyyət və elm xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Konstitusiyasının ərsəyə gəlməsində müstəsna xidmətlərini əks etdirən videoçarx nümayiş olunub.

Açılış nitqi ilə çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən siyasətin mərkəzində mədəniyyət xüsusi yerə malikdir.

Qeyd olunub ki, mədəniyyət müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsində həmişə mərkəzi mövqedə dayanıb. Ulu Öndər mədəniyyətimizin bütün sahələrinin inkişafına, ana dilimizə davamlı diqqət və qayğı göstərib. "Ümummilli Liderimizin müəllifi olduğu konstitusiyamızda mədəniyyətlə bağlı çox qiymətli müddəalar mövcuddur və bunun təməlləri üzərində hazırlanan qanunvericilik aktları mədəniyyət və hüquq anlayışlarını da özündə ehtiva edir.

Mədəniyyət və hüquq arasında mövcud olan konseptual əlaqə təsəvvür ediləndən və görünəndən daha dərin və sıxdır. Əgər biz mədəniyyət və hüququn biri-birinə olan münasibətində müasir çağırışları müzakirə etmək istəyiriksə, o zaman ilkin olaraq bu anlayışların yenidən təhlil və müzakirə olunması məqsədəuyğun olardı", - deyə nazir bildirib.

Nazir qeyd edib ki, geniş mənada mədəniyyət bir xalqa münasibətdə mövcud olan, ona xüsusi kimlik verən, cəmiyyətdaxili bütövlüyü tarazlayan, onu başqa xalqlardan fərqləndirən və müəyyən bir zaman kəsimində sabit şəkildə formalaşan düşüncələr, dəyərlər, davranışlar və qaydalar sistemindən ibarət bir anlayışdır.

Onun sözlərinə görə, hüquq isə individual azadlıqları, davranışları və ictimai münasibətləri formalaşdırmaq və tənzimləmək üçün dövlət institutları tərəfindən yaradılmış və tətbiq edilən qaydalar toplusudur. Bu anlayışları biri-birindən ayrı təsəvvür etmək mümkün deyil.

Adil Kərimli çıxışının sonunda forum çərçivəsində mədəniyyət və hüququn qarşılıqlı əlaqəsi ilə bağlı maraqlı müzakirələrin aparılacağına əminliyini bildirib, tədbirin işinə uğurlar arzulayıb.

Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov çıxışında mədəniyyət və hüquq sahəsindəki qarşılıqlı əlaqələrin vacibliyini vurğulayıb. O, forumun Beynəlxalq İnsan Hüquqları Günündə keçirilməsini simvolik bir mesaj kimi dəyərləndirib, insan hüquqlarının qorunması və mədəni dəyərlərin saxlanmasının biri-birini dəstəkləyən prinsiplər olduğunu bildirib.

Milli Məclis Sədrinin müavini, akademik Rafael Hüseynov çıxışında tarixdən gələn mədəni dəyərlərin qorunmasının və hüquqi əsaslarla inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb. O, mədəniyyətin yalnız sənət və estetik dəyərlərlə məhdudlaşmadığını, eyni zamanda cəmiyyətin hüquqi mədəniyyətinin formalaşmasında da rol oynadığını bildirib. Akademik Rafael Hüseynov həmçinin multikultural dəyərlərin və milli kimliyin qorunmasının gələcək nəsillər üçün strateji əhəmiyyətini qeyd edib.

Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov isə bu mövzuda ilk tədbirin 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Günündə keçirilməsinin əlamətdar hadisə olduğunu bildirib. O deyib ki, belə tədbirlər hüquq və mədəniyyət sahəsində fikir mübadiləsi aparmaq və təcrübə paylaşmaq üçün əlverişli imkan yaradır.

Sonra forum öz işini panel müzakirələrlə davam etdirib.

Panellərdə "Mədəniyyət və Hüquq", "Azərbaycan Respublikası Konstitusiyası və mədəni dəyərlərimiz" və "Mədəniyyətin beynəlxalq münasibətlər sistemindəki yeri" mövzuları müzakirə edilib.

Forumda iştirak edən ekspertlər və dövlət qurumlarının nümayəndələri Azərbaycanın mədəni irsinin qorunması və inkişafı, o cümlədən mədəniyyətin hüquqi təminatının gücləndirilməsi ilə bağlı müzakirələr aparıblar.

Forumun keçirilməsi ölkəmizdə mədəniyyət siyasətinin hüquqi təminatına dair müxtəlif qurumlar arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə dəstək verir. Həmçinin mədəniyyət və hüquq sahəsindəki əməkdaşlığın inkişafı Azərbaycanın mədəni dəyərlərinin qorunması və beynəlxalq aləmdə tanınması üçün mühüm addımdır.

# Əmək qanunvericiliyi təkmilləşdirilir

**Dekabrın 10-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, əvvəlcə Əmək Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirə olunub.

Komitə sədri Musa Quliyev bildirib ki, sənəddə 457 dəyişiklik təklif olunub və bunlar təkcə sayına görə deyil, həm də sanbalına görə böyük dəyişikliklərdir. Ölkəmizdə işçilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda elektron hökumət qurulması istiqamətində böyük iş gedir, texnologiyaların, xüsusilə süni intellektin tətbiqinin əmək münasibətlərinə təsiri daha da genişlənir. Bu səbəbdən təklif olunan layihədə əmək qanunvericiliyinin müasir çağırışlara uyğunlaşdırılması, beynəlxalq əmək normalarını nəzərə almaqla təkmilləşdirilməsi, elektron sistemlərlə bağlı yeni qaydaların müəyyənləşdirilməsi və mövcud boşluqların aradan qaldırılması məqsədilə bir sıra dəyişikliklər təklif olunub.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev layihədə nəzərdə tutulan dəyişikliklərlə bağlı təqdimatla çıxış edib. O bildirib ki, layihə 18 qanunun 178 maddəsinə dair dəyişikliyi ehtiva edir. Dəyişikliklərin böyük qismi Əmək Məcəlləsinə aiddir. Digər qanunlara təklif olunan dəyişikliklər isə Əmək Məcəlləsindəki təklif olunan dəyişikliklərdən irəli gəlir.

Bildirilib ki, qanunvericiliyə daxil edilən "ailə vəzifələri olan işçi", "məsafədən (distant) iş" kimi yeni anlayışlar əmək münasibətlərinin çevik və sosialyönümlü şəkildə tənzimlənməsinə xidmət edir. Layihədəki digər dəyişikliklər BƏT-in konvensiyalarının müddəalarının milli qanunvericilikdə təsbiti, həmçinin "Normativ-hüquqi aktlar haqqında" konstitusiya qanununun tələblərinə uyğunlaşdırma xarakterlidir. Bundan başqa, işəgötürənin fəaliyyətinin dayandırılması ilə bağlı əmək müqaviləsinə xitam prosedurları dəqiqləşdirilir, həqiqi hərbi xidmətə çağırılan işçilərə ödənilən müavinət məbləği qanunvericiliklə uyğunlaşdırılır. Həmçinin məzuniyyətlə bağlı ödəniş qaydaları dəqiqləşdirilir, məzuniyyət hüququ genişləndirilir, əməyin mühafizəsi sahəsində yeni tələblər müəyyən edilir.

Layihə ilə bağlı əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev çıxış edərək bildirib ki, dəyişikliklər əmək münasibətlərinin yeni iqtisadi reallıqlara uyğunlaşdırılması, beynəlxalq əmək standartlarının tələblərinin təmin edilməsi və praktikada üzə çıxan boşluqların aradan qaldırılması zərurətindən irəli gəlir. O qeyd edib ki, layihə aidiyyəti dövlət qurumları ilə və sosial tərəfdaşlarla geniş müzakirə olunub, daxil olan təkliflər nəzərə alınmaqla təkmilləşdirilib.

Nazir müavini dəyişikliklərin əsas nəticələri barədə danışaraq qeyd edib ki, layihə Azərbaycanın ratifikasiya etdiyi BƏT konvensiyalarının tələblərinin milli qanunvericilikdə daha sistemli və aydın əks olunmasına şərait yaradacaq. Həmçinin sənəddə distant iş anlayışının hüquqi əsası daha aydın şəkildə müəyyənləşdirilib. Nazir müavini vurğulayıb ki, layihədə sosial həssas qrupların, xüsusilə ailə öhdəlikləri olan işçilərin əmək münasibətlərində müdafiəsinin gücləndirilməsi də xüsusi diqqət mərkəzindədir.

Rəşad Mustafayev qeyd edib ki, layihədə nəzərdə tutulan digər mühüm dəyişiklik 46 təqvim günündən az olmayan məzuniyyət hüququnun daha geniş sosial müdafiə qruplarına şamil olunması ilə bağlıdır. Sənəddə işçinin işdən kənarlaşdırılması ilə bağlı təklif olunan dəyişikliklər isə əməyin mühafizəsinin, işçilərin təhlükəsizliyinin, həm də iş prosesinin effektivliyinin artırılmasına xidmət edir.

Layihənin müzakirəsində Əmək və sosial siyasət komitəsi sədrinin müavini Elşad Musayev, komitə üzvləri Nigar Məmmədova, Jalə Əliyeva, Vüqar Bayramov, Sevinc Hüseynova, Əziz Ələkbərov, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov çıxış edərək təklif olunan dəyişiklikləri mütərəqqi dəyişikliklər kimi dəyərləndiriblər.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev, AHİK-in sədri Sahib Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Fuad Heydərov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirəndən sonra qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

Sonra iclasda dövlət qulluğunun hüquqi və sosial təminatına dair bir sıra məsələlərin daha təkmil tənzimlənməsini nəzərdə tutan Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də birinci oxunuşda baxılaraq müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# İlham Əliyevlə görüşmək şərəfi

## Azərbaycan Prezidenti Avropada sözünə sadiq lider, etibarlı tərəfdaş və ən arzuolunan şəxs kimi qəbul edilir

**Bu gün Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınır.**

Artıq Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır.

Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə, dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirir və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Azərbaycanın son illərdəki mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, onun regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib. Bir çox ölkə, o cümlədən Avropa İttifaqının üzvləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş olduqlarını elan edirlər. Dünyanın böyük siyasi və iqtisadi dairələri Azərbaycanın regiondakı liderliyini və qlobal siyasətdə rolunu daim yüksək qiymətləndirirlər.

Bütün bunlar əlbəttə ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi müstəqil, qətiyyətli siyasətinin, etibarlı tərəfdaşlıq prinsipinin və sözünə sadiqliyinin yaratdığı reallıqdır. İlham Əliyev dəfələrlə əməli ilə, gördüyü iş ilə sübut edib ki, sözü imzası qədər keçərlidir.

Avropa liderləri tərəfindən onun fəaliyyətinə verilən yüksək qiymətlər, Azərbaycanın Avropadakı strateji mövqeyini və dövlət başçısının ölkəsini dünya arenasında necə təmsil etdiyini göstərir.

Bir çox Avropa lideri, İlham Əliyevin Azərbaycanı müasir dövrün siyasi və iqtisadi tələblərinə uyğun şəkildə inkişaf etdirməkdəki mükəmməl bacarığını vurğulayıb. Onlar, İlham Əliyevin xüsusilə beynəlxalq münasibətlərdə strateji düşüncə tərzinə malik olduğunu və Azərbaycanın müxtəlif qlobal məsələlərə münasibətini balanslı və düzgün şəkildə ortaya qoyduğunu qeyd edirlər.

Avropa ölkələrinin prezident və hökumət başçılarının İlham Əliyev haqqında söylədikləri səmimi fikirlərə diqqət etsək buna bir daha şahidlik edərik.

Dekabrın 8-də Slovakiyaya ilk rəsmi səfər edən İlham Əliyevi Bratislavada qəbul edən Prezident Peter Pelleqrini səmimi fikirlər söyləyib: "Sizi Slovakiyada, Bratislavada qəbul etmək böyük şərəfdir. Slovakiyaya səfər etmək qərarınız bizi çox şərəfləndirdi. Bu, Slovakiya Respublikasının tarixində Azərbaycan Prezidentinin ilk rəsmi səfəridir... Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik, çünki Sizinlə dəfələrlə görüşmək imkanımız olub. Çox məmnunam ki, Baş nazir qismində səfərim zamanı Sizinlə görüşdüyüm vaxtda biz münasibətlərimizi gücləndirmək qərarına gəldik".

Peter Pelleqrini bəlkə də indiyədək Slovakiyaya səfər edən heç bir dövlət başçısına bu qədər səmimi, içdəngələn fikirlər söyləməyib. İkinci dəfə İlham Əliyevlə görüşən slovakiyalı həmkarının bu münasibəti Azərbaycana və onun liderinə verilən yüksək dəyərdir.

İlham Əliyev haqqında səmimi fikirlərin digər müəllifi Serbiya Prezidenti Aleksandar Vuçiçdir. Serbiyalı həmkarı, İlham Əliyevin müstəqil siyasətini dəyərləndirərək söyləyib: "Dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada, bilmirəm o nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim".

Şimali Makedoniyanın sabiq Prezidenti Stevo Pendarovski isə İlham Əliyevi Avropada ən çox arzuolunan şəxs adlandırıb.

Macarıstanın xarici işlər naziri Peter Siyarto isə daha maraqlı fikir səsləndirib: "15 il əvvəl Macarıstanla Azərbaycan arasında qarşılıqlı hörmət əsasında tərəfdaşlıq qurulanda bəzi Avropa liderləri bu təşəbbüsə istehza ilə yanaşıb. Bu gün isə həmin liderlər Azərbaycan Prezidenti ilə şəkil çəkdirmək üçün Bakıda növbəyə dururlar".

İlham Əliyevin fəaliyyəti, müstəqil siyasəti barədə ən dəyərli fikirlərdən birinin də müəllifi qardaş ölkə olan Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğandır: "İlham Əliyevlə davam edən inkişafla Azərbaycan bölgədə cazibə mərkəzinə çevrilib... Azərbaycanın əmin-amanlığı, rifahı və gələcək nəsillər üçün çəkdiyi dəyərli zəhmət bütün türk dünyası tərəfindən böyük maraq və sevinc hissi ilə izlənir və örnək kimi qəbul edilir".

Dünya liderlərinin, tanınmış ictimai-siyasi xadimlərin bu cür dəyərli fikirlərinin sayını dəfələrlə artırmaq olar. Səslənən bütün səmimi fikirlərdə Azərbaycan Prezidentinin şəxsi keyfiyyətləri, prinsipial mövqeyi və qlobal liderliyini şərtləndirən xarakterik məqamlar şərh edilir. Bütün bunlar İlham Əliyevin şəxsiyyətinə və fəaliyyətinə ölkə hüdudlarından kənarda da necə böyük qiymət verildiyini təsdiqləyən reallıqdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanın özü qədər əbədi

**Xalqımızın böyük oğlu, müasir Azərbaycanın memarı, Ümummilli Liderimiz Heydər Əliyevin dünyasını dəyişməsindən 22 il ötür. Ulu Öndərimizin Fəxri xiyabanda dəfn edildiyi 2003-cü ilin dekabr günlərini yaxşı xatırlayıram. Həmin günlərdə Azərbaycanın uzaqdan-yaxından, hər yerindən yüz minlərlə insan, uşaqdan-böyüyədək hər kəs sübh çağlarından gecə saatlarınadək Fəxri xiyabana gələrək Heydər Əliyevə özlərinin sonsuz məhəbbətlərini və minnətdarlıqlarını bildirir, Uca Tanrıdan rəhmət diləyir və dualar oxuyurdu.**



# Azərbaycan xalqı həmişə Heydər Əliyevə minnətdar olacaq

Həmin vaxtdan Heydər Əliyevin məzarı ümumxalq ziyarətgahına çevrilmişdir. 22 il ərzində Azərbaycan xalqı bir an belə Ulu Öndəri unutmamış, insanlar hər zaman onun məzarını ziyarət etmişdir. Müxtəlif ölkələrdən respublikamıza gələn qonaqlar da Ulu Öndərin məzarını ziyarət edirlər. Bütün bunlar Heydər Əliyevin öz xalqına nə qədər ürəkdən bağlı olduğunu və xalqının da onu nə qədər böyük məhəbbətlə sevdiyini nümayiş etdirən həqiqətin təzahürüdür. Xalqının ona olan sonsuz məhəbbəti dünyanın mütərəqqi insanlarının da Ulu Öndərimizə olan hüsnü-rəğbətini və hörmətini gündən-günə artırmaqda davam edir. Heydər Əliyevə olan ümumxalq məhəbbəti təbiidir!

Azərbaycan xalqı xoşbəxtdir ki, o, XX əsrdə bəşəriyyətə Corc Vaşinqton, Franklin Ruzvelt, Şarl De Qoll, Cavahirlər Nehru və Mustafa Kamal Atatürk şəxsiyyətləri ilə bir sırada duran Heydər Əliyev kimi dahi şəxsiyyət bəxş etmişdir.

10 may 2023-cü ildə Naxçıvanda sadə və zəhmətkeş Əlirza kişinin ailəsində dünyaya göz açmış bu böyük insan, dahi şəxsiyyət öz qabiliyyəti, bacarığı, zəhmətkeşliyi, möhkəm iradəyə və əqidəyə, prinsipiallığa malik olması, dönməz mübarizliyi bahasına bütün çətinliklərə sinə gərərək, keçmiş SSRİ kimi fövqəl bir dövlətin rəhbərlərinin ön sırasına çıxmış, Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə yüksələ bilmişdir. Onun bu vəzifəyə yüksəlməsinə ağız büzən bəzi nadanlara, millətin düşmənlərinə cavab olaraq Ulu Öndər demişdir: "Mən on il Moskvada yaşadım, özü də ən yüksək vəzifədə işlədim. Azərbaycan xalqının, müsəlman aləminin tarixində nə keçmiş rus imperiyası dövründə, nə də Sovet İttifaqının hakimiyyəti zamanı o cür zirvəyə çatan azərbaycanlı olmamışdır. Bu da tarixdir. Bəziləri deyirlər ki, Heydər Əliyev Siyasi Büronun üzvü olubdur və sairə. Bəli, olmuşam. Mən bununla fəxr edirəm. Çünki Azərbaycan xalqını tanıtmışam, Azərbaycan xalqını Kremlin sarayında qaldırmışam. Bununla fəxr edirəm. Mən orada on il yaşadım, ancaq mənim ürəyimdə, gecəm də, gündüzüm də Azərbaycanla olub. Çünki, Azərbaycan mənim vətənim, torpağımdır".

"Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən Ulu Öndər Heydər Əliyev nəinki xalqımızın, həm də bütünlükdə müsəlman aləminin, türk dünyasının fəxridir. Mən fəxr edirəm ki, 1995-1998-ci illərdə onun təşəbbüsü ilə Mərkəzi Seçki Komissiyasının üzvü olarkən bu dahi şəxsiyyətlə yaxından təmasda olmuş, ondan ünvanıma xoş sözlər eşitmiş və o, məni ədalətli adam adlandırmışdır. Mən həm də fəxr edirəm ki, 55 ildən artıqdır (1969-2025-ci illər) bu dahi şəxsiyyətin təbliğatçısıyam. Bu missiyamı həm Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci və ikinci dövrlərində, həm 1982-1987-ci illərdə Moskvada SSRİ rəhbərliyində fəaliyyət göstərdiyi illərdə, həm də 1987-1993-cü illərdə həyata keçirmiş, bütün elmi yaradıcılıq fəaliyyətimdə həmişə Ulu Öndərin ideyalarını əsas götürmüş, bir an belə ondan uzaqlaşmamışam.

Keçmiş ittifaqın hər yerində, o cümlədən istər Moskvada və Sankt-Peterburqda, Kiyevdə və Minskdə, Aşqabadda və Daşkənddə, istərsə də Bakı şəhərində və respublikamızın regionlarında keçirilmiş onlarca simpozium, elmi konqres, konfrans və seminarlardakı məruzə və çıxışlarımda Ulu Öndərin ideyalarını rəhbər tutmuş, ona əsaslanmışam. Sonrakı dövrdə ölkəmizin sosial-iqtisadi inkişafında, müstəqilliyimizin qorunub saxlanılmasında onun ideyalarının əhəmiyyətini vurğulamışam.

Ulu Öndərin ilk dəfə respublikamıza rəhbərliyə gəlişi ərəfəsində, yəni keçən əsrin 60-cı illərinin ikinci yarısında Azərbaycan Respublikasının iqtisadiyyatı bütünlükdə dərin böhran içində idi və və keçmiş ittifaq respublikaları arasında axırıncı yerlərdə dayanırdı. Yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişikliklər aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində yeni metod və mexanizmlər tapılmalı və tətbiq edilməli idi. Bu çətin və mürəkkəb vəziyyətin yerinə yetirilməsi məsuliyyəti 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə seçilmiş Heydər Əliyevin üzərinə düşdü. Heydər Əliyev ölkə rəhbəri seçildikdən cəmi 21 gün sonra onun təşəbbüsü və rəhbərliyi ilə "5" avqust 1969-cu il tarixdə Azərbaycan KP MK-nın məşhur avqust plenumu öz işinə başladı. Ulu Öndərin həmin plenumdakı məruzəsində Azərbaycanın xalq təsərrüfatında yaranmış böhranlı vəziyyət və onun uzun illərboyu geridə qalması səbəbləri hərtərəfli təhlil edilərək aşkara çıxarılmış və ondan çıxış yolları müəyyənləşdirilmişdir. Heydər Əliyev çox yaxşı bilirdi ki, millətin siyasi müstəqilliyi onun iqtisadi azadlığından keçir. Ona görə də onun rəhbərliyi və bilavasitə iştirakı ilə uzun müddətə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası işlənib hazırlanaraq həyata keçirilməyə başlandı və beləliklə, Azərbaycanın tarixində yeni inkişaf dövrünün təməli qoyuldu.

Ulu Öndər respublikamıza rəhbərlik etdiyi birinci dövrdə Azərbaycanın iqtisadi-sənaye, kənd təsərrüfatı və enerji potensialı ilə yanaşı, böyük və qüdrətli elmi-intellektual kadr potensialının da yaradılmasına nail olmaqla, onun müstəqil dövlət kimi yaşaması və dünya miqyasında tanınmasının, siyasi və iqtisadi müstəqilliyinin, sistemli şəkildə artıb inkişaf edən xarici-iqtisadi əlaqələrinin formalaşmasının, dünya iqtisadiyyatına dərindən və inamla inteqrasiya olunmasının əsasını qoymuş və strateji istiqamətlərini müəyyənləşdirmişdir. Həmin illər baş verən dəyişikliklərin miqyası, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakteri və xalqın həyat səviyyəsinin yüksəlməsi baxımından Azərbaycanın quruculuq tarixində çox mühüm yer tutur. Ulu Öndərin keçmiş ittifaqda olan nüfuzu sayəsində SSRİ hökuməti bir-birinin ardınca - 1970-ci, 1975-ci və 1976-cı illərdə Azərbaycan Respublikası ilə bağlı xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan və xalqımızın həyatında sözün əsl mənasında tarixi əhəmiyyəti olmuş beş xüsusi qərar qəbul etmişdir. Heydər Əliyevin rəhbərliyi ilə bu qərarlar müvəffəqiyyətlə yerinə yetirilmiş, nəticədə Azərbaycan Respublikası İkinci Dünya müharibəsindən sonrakı dövrdə ilk dəfə olaraq doqquzuncu və onuncu beşilliklər üçün nəzərdə tutulmuş bütün xalq təsərrüfatı planlarını vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirməyə nail olmuş və ittifaq respublikaları arasında ən qabaqcıl yer tutaraq, 12 il ardıcıl olaraq o dövrdə sovet dövlətinin ən yüksək mükafatı sayılan SSRİ-nin Keçici Qırmızı Bayrağı ilə təltif olunmuşdur.

Həmin illər ərzində respublikamız böyük uğurlara nail olmuş və iqtisadi artım sürətinə görə orta ittifaq səviyyəsini xeyli ötüb keçmişdir. Azərbaycanda istehsal olunmuş milli gəlirin həcmi 2,5 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 2,3 dəfə, əhaliyə göstərilən xidmətlərin həcmi isə 2,9 dəfə artmışdır. Fəxr etməli haldır ki, həmin illərdə respublikamızın vətəndaşlarının 1 milyon 95 min nəfərindən çoxu keçmiş SSRİ-nin müxtəlif orden və medalları ilə, o cümlədən 1007 nəfəri "Lenin", 10 min 130 nəfəri "Qırmızı əmək bayrağı", 1422 nəfəri "Oktyabr inqilabı", 1153 nəfəri "Xalqlar dostluğu" ordenləri ilə təltif edilmişdir. 108 nəfər, onlardan bir neçə nəfəri isə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. İki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülənlərdən biri də Ulu Öndərimiz olmuşdur.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə respublikamızda elmin inkişafına və elm adamlarına xüsusi diqqət və qayğı ilə yanaşmışdır. O demişdir: "Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qadir adamlar gəlsinlər. Ölkəmizdə elmi işçilərin əməyi şərəflidir, onlara ehtiram göstərilir, onlar layiqli nüfuz qazanmışlar... odur ki, bizim hər bir tədqiqatçı qarşısında yüksək tələblər qoymağa haqqımız vardır. Elmi-texniki tərəqqinin sürətlənməsi uğrunda yaradıcı mübarizənin önündə getmək, tədqiqat nəticələrinin praktikada, istehsalatda tətbiqi müddətinin qısaldılmasına, mütərəqqi texniki yeniliklərin öyrənilməsinə öz əsərləri, kəşfləri ilə kömək etmək alimlərin borcudur".

Ulu Öndərin alimlərimiz qarşısında qoyduğu proqram xarakterli vəzifələr onlar tərəfindən birmənalı şəkildə qəbul edilmiş və yüksək vətənpərvərlik hissi ilə yerinə yetirilmişdir. Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə respublikamızın alimlərinin əldə etdiyi nailiyyətlərini ondan görmək olar ki, əgər Azərbaycan Elmlər Akademiyasının yarandığı 1945-ci ildən keçən 25 il ərzində (1945-1970-ci illər) SSRİ EA-nın mühüm nailiyyətləri sırasına Azərbaycan alimlərinin 170 elmi nəticəsi daxil edilmişdirsə, 1971-1980-ci illəri əhatə edən cəmi 9 il ərzində həmin elmi nəticələrin sayı 486-ya çatmış və ya 2,9 dəfədən çox (285,9 faiz) artmışdır. Bu illər ərzində respublika alimləri Moskvanın, Leninqradın və bir çox başqa şəhərlərin institutları və elmi idarələri ilə 252-dən artıq kompleks elmi tədqiqat və elmi-texniki proqramın yerinə yetirilməsində iştirak etmiş, istehsalata 425 min ixtira və səmərələşdirici təkliflər tətbiq etmiş, 6200 yeni növ maşın, cihaz, avadanlıq və sairə yaratmışlar ki, onların da 450-si keçmiş SSRİ-də ilk dəfə bizim respublikamızda hazırlanmışdır. Təsadüfi deyildir ki, Azərbaycan EA ilk dəfə olaraq 1975-ci ildə "Xalqlar dostluğu" ordeni ilə təltif edilmiş və bu yüksək mükafatı alimlərimizə Ulu Öndərimizin özü təqdim etmişdir. Bu dövrdə Azərbaycan alimlərinin nailiyyətləri beynəlxalq miqyasda yüksək qiymətləndirilmiş və xeyli sayda görkəmli elm adamı Dövlət mükafatlarına, o cümlədən 5 nəfər "Lenin" mükafatına, 14 nəfər SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

1969-1982-ci illərdə Azərbaycan EA-da çalışan işçilərin sayı 1,9 dəfə artaraq 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 145,6 faiz artaraq 3431 nəfərdən 4995 nəfərə, elmlər doktorlarının sayı 1,5 dəfədən çox artaraq 188 nəfərdən 285 nəfərə, elmlər namizədlərinin sayı isə 1,6 dəfədən çox artaraq 1275 nəfərdən 2068 nəfərə çatmışdır.

Ulu Öndərin ilk dəfə Azərbaycana rəhbərlik etdiyi illərdə onun ən böyük xidmətlərindən biri də ölkəmiz üçün əlahəddə əhəmiyyəti olan yüksəkixtisaslı kadrların, xüsusilə milli kadrların hazırlığına son dərəcə ciddi fikir verməsi və qayğı göstərməsindən ibarətdir. Bu illərdə Azərbaycanda ali məktəblərin sayı 12-dən 17-yə, orada təhsil alanların sayı isə 70 min nəfərdən 100 min nəfərə, xalq təsərrüfatında çalışan mütəxəssislərin sayı 2,2 dəfə artaraq 274 min nəfərdən 606,2 min nəfərə, ali və orta ixtisas təhsili müəssisələrində təhsil alanların sayı 171 min nəfərdən 182,1 min nəfərə, həmin təhsil müəssisələrini bitirən mütəxəssislərin sayı isə 139,2 faiz artaraq 31,9 min nəfərdən 44,4 min nəfərə çatmışdır. Bu illərdə Moskvanın, Leninqradın, Kiyevin və digər şəhərlərin 170 aparıcı elm və təhsil müəssisələrinə 3500 nəfər azərbaycanlı gənc göndərilmişdir. Ötən əsrin 70-ci illərinin axırlarında hər il üçün bu rəqəm 700-800 nəfər, 1980-ci ilin əvvəlində isə 1000-1400 nəfər təşkil etmişdir. 1981-ci ildə Moskva, Leninqrad, Kiyev və başqa şəhərlərdə 244 ixtisas üzrə təhsil alanların sayı 3600 nəfəri ötüb keçmişdir. 1972-ci ildən başlayaraq müxtəlif hərbi məktəblərə də hər il 300-400 nəfər, 1980-ci ildən isə 800-1000 nəfər azərbaycanlı gənc təhsil almağa göndərilmişdir.

Təəssüflə qeyd edilməlidir ki, 1988-1993-cü illərdə Azərbaycana rəhbərlik etmiş səriştəsiz adamların fəaliyyətsizliyi üzündən Ulu Öndərin rəhbərliyi dövründə ölkəmizdə yaradılmış böyük iqtisadi potensial ilbəil dağıdılıb talan edilməyə başlanmış və 1991-1993-cü illərdə Azərbaycan "ölüm ya olum" dilemması qarşısında qalmışdır. Respublikamızın ağır vəziyyətə düşdüyü 1993-cü ilin iyun ayında xalqımızın təkidli tələbi ilə Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışı Azərbaycanı və bütünlükdə xalqımızı fəlakətdən xilas etdi və dövlətimizin qurtuluşu başlandı. Ulu Öndərin gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərpa edildi, yeni neft strategiyası işlənib hazırlandı, "Əsrin müqaviləsi" imzalandı, qədim İpək yolunun bərpası və bu məqsədlə TRASEKA proqramı həyata keçirilməyə başlandı. Dünyanın bir çox ölkəsi ilə iqtisadi əlaqələrimiz yarandı, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi.

Ulu Öndərin ən böyük tarixi xidmətləri arasında Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilməsi və Azərbaycanın "Şərq-Qərb" nəqliyyat dəhlizinin iştirakçılarından birinə çevrilməsi xüsusi yer turur. Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində 1989-cu ildən ötən dövr ərzində ilk dəfə olaraq 1996-cı ildən başlayaraq iqtisadiyyatda dirçəliş baş verdi və əhalinin pul gəlirlərinin artım səviyyəsi qiymətlərin artım səviyyəsini üstələdi. 1993-2003-cü illərdə respublikamızda 3 minə qədər yeni sənaye müəssisəsi açıldı və onların sayı 2003-cü ilin əvvəlində 5202-yə gəlib çatdı. "Açıq qapı" siyasəti nəticəsində həmin illərdə ölkəmizdə fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sayı 3 dəfədən çox artdı.

Ulu Öndərin ən böyük xidmətlərindən biri də onun Azərbaycan elminə və onun məbədgahı sayılan Elmlər Akademiyasına daim hamilik etməsi, bu elm mərkəzinə dünya şöhrəti qazandırması və onun bağlanmasının qarşısını almasıdır. Heydər Əliyev 1997-ci ilin 31 yanvarında Prezident sarayında Elmlər Akademiyasının üzvləri ilə görüşündə deyib: "XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir... Biz bununla fəxr edirik. Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir. Biz akademiyanın hörmətini qoruyub saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, akademiyamız, yüksəksəviyyəli elmi-tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi müəssisələr arasında ərisin, itsin. Buna yol vermək olmaz. Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir, onu qoruyub saxlamaq lazımdır. Akademiyanın indiyə qədər, əlli ildən də artıq yaşadığı müddətdə topladığı təcrübə bizim üçün əzizdir, bunu qorumalı, saxlamalıyıq".

Heydər Əliyevin 2001-ci il 15 may tarixli "Azərbaycan Milli Elmlər Akademiyası haqqında" fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına ən yüksək ali dövlət elmi təşkilatı statusunu verməsi, habelə elmlər namizədi və elmlər doktoru elmi dərəcəsinə görə vəzifə maaşlarının 5 dəfə, akademiyanın həqiqi və müxbir üzvlərinin rütbə maaşlarının və bütünlükdə əməkdaşların maaşlarının yüksək dərəcədə artırılması, maddi-texniki bazanın və əməkhaqqı fondunun artırılması ilə bağlı fərman və sərəncamlar elmin inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bütün bunlara görə biz elm adamları Heydər Əliyevə hər zaman minnətdarıq.

Biz Ulu Öndərimizə bir də ona görə minnətdar olmalıyıq ki, o, 2003-cü ilin prezident seçkilərində özünün yetirməsi cənab İlham Əliyevin ölkə prezidentliyinə namizədliyini irəli sürmüşdür. Heydər Əliyev 2003-cü il oktyabr ayının 1-də Azərbaycan xalqına müraciət edərək demişdir: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməkliyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü ilin prezident seçkilərində xalqımızın mütləq əksəriyyəti İlham Əliyevə səs verərək onu özünə prezident seçdi. Cənab İlham Əliyev oktyabrın 31-də dövlətə və xalqa sədaqət andı içərək dedi: "Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin Azərbaycanı gücləndirəcək, dirçəldəcək, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

Prezident İlham Əliyev xalq və dövlət qarşısında üzərinə götürdüyü çox şərəfli, şərəfli olduğu qədər də çətin və mürəkkəb vəzifələrin öhdəsindən bacarıqla və layiqincə gələrək, qarşıda dayanan bütün strateji vəzifələri uğurla reallaşdırdı. Ötən 22 il ərzində Prezident İlham Əliyev Heydər Əliyevin müəyyən etdiyi iqtisadi yüksəliş strategiyasını daha da inkişaf etdirərək Azərbaycanı dünyanın lider dövlətləri sırasına, onun iqtisadi inkişaf səviyyəsinin isə keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına nail olmuşdur. Bunun üçün Prezident İlham Əliyev qətiyyətli tədbirlər görmüş, dövdət proqramlarını təsdiq etmişdir.

Azərbaycan xalqı 2003-cü ildən keçən dövrdə - 2008-ci, 2013-cü, 2018-ci və 2024-cü illərdə də keçirilmiş prezident seçkilərində yekdillik göstərərək, cənab İlham Əliyevi özünə Prezident seçmişdir. İlham Əliyevin özünün də dediyi kimi, Azərbaycan heç zaman indiki kimi güclü olmamışdır. Azərbaycan tərəqqi və sabitlik ölkəsi kimi dünyada şöhrət tapıb. Prezident İlham Əliyev isə dünya liderləri arasında sayılıb-seçilən, yüksək intellektli, praqmatik düşüncəli, uzaqgörən siyasətçi və qətiyyətli dövlət başçısı kimi qəbul edilir.

*Prezident İlham Əliyevin dövlət və xalq qarşısında ən böyük tarixi xidməti isə torpaqlarımızı işğaldan azad etməsidir. Cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında saxlanılan torpaqlarımız azadlığa qovuşdu, tarixi ədalət bərpa olundu. Bu gün xalqımız dünyada qalib xalq, Prezident İlham Əliyev Müzəffər lider kimi tanınır.*

*Bütün bunlara görə Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevə hər zaman minnətdarlıq edir, ruhuna dualar oxuyur, Uca Tanrıdan rəhmət diləyir. Qoy məzarı nurla dolsun!*

***Şahbaz MURADOV,***
***AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycanın strateji liderliyi ilə qlobal gücə çevrilən Türk Dövlətləri Təşkilatı

**Dünya nizamında qüvvələr balansının yenidən qurulduğu, yeni siyasi mərkəzlərin meydana çıxdığı və regional ittifaqların beynəlxalq sistemdə artan təsir imkanları ilə səciyyələnən müasir günümüzdə Türk Dövlətləri Təşkilatının (TDT) varlığı və getdikcə inkişafı son dərəcə əhəmiyyətli faktordur. TDT artıq sırf mədəni yaxınlığa əsaslanan təsisat deyil, qlobal miqyasda geosiyasi aktor və strateji müttəfiqlik modeli kimi formalaşmaqda olan kompleks inteqrasiya strukturudur.**

6-7 oktyabr 2025-ci ildə Qəbələ şəhərində baş tutan Türk Dövlətləri Təşkilatının XII Zirvə Görüşü, bu görüşdə verilən bəyanatlar artıq TDT-nin qlobal arenada mühüm güc mərkəzi kimi formalaşmasının tarixi təsdiqi oldu. "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilən tədbir təkcə ortaq etnik və mədəni irsə əsaslanan inteqrasiya nümunəsi kimi deyil, eyni zamanda siyasi suverenliklərin uzlaşdırıldığı, iqtisadi potensialların birləşdirildiyi və təhlükəsizlik sahəsində strateji koordinasiyanın təmin olunduğu çoxşaxəli əməkdaşlıq platforması kimi TDT-nin müasir dünyamızdakı potensialını ön plana çıxardı. "Bu gün Türk Dövlətləri Təşkilatı sadəcə əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir" - Azəbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündəki çıxışında bəyan etmişdi.

### Çoxşaxəli təşəbbüslər TDT-nin fəaliyyətinə yeni məzmun qazandırır

Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərinə malikdir. Onları birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin əsasını təşkil edir. Azərbaycan təşkilatın gücləndirilməsinə xidmət edən siyasəti uğurla aparır. Türk dünyası bu gün planetimizin mənzərəsinə müsbət yöndə həlledici təsir göstərməkdən ötrü çox böyük potensialı özündə birləşdirir. Bu potensiala türk dövlətlərinin əhatə etdiyi böyük coğrafiya, sarsılmaz hərbi güc, iqtisadiyyat, zəngin təbii sərvətlər, geniş və şaxələnmiş nəqliyyat yolları, gənc və getdikcə sayı artan əhali daxildir.

Zirvə görüşünün əsas nəticələrindən biri kimi TDT-yə sədrlik funksiyasının Qırğızıstandan Azərbaycana keçməsi xüsusilə böyük rəmzi və strateji məna ifadə etmişdi. Bu dəyişiklik Azərbaycanın təşkilat daxilində artan rolunun və liderlik potensialının rəsmi tanınması ilə yanaşı, ölkənin regional əməkdaşlıq gündəliyinin formalaşmasında əsas aktora çevrildiyinin də nümayişi oldu. Azərbaycan hazırda bu birlik platformasının əsas hərəkətverici qüvvəsi və strateji lokomotivi rolunda çıxış edir. Ölkəmiz təşkilat çərçivəsində siyasi təşəbbüslərin irəli sürülməsi, yeni əməkdaşlıq istiqamətlərinin formalaşdırılması, eləcə də ortaq layihələrin maliyyələşdirilməsi və idarə olunmasında fəal iştirakı vasitəsilə inteqrasiya prosesinə konkret töhfə verir. Azərbaycanın təşkilatın işinə dəstək məqsədilə TDT Katibliyinin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürməsi də bunun bariz nümunələrindəndir.

Prezident İlham Əliyevin çoxşaxəli təşəbbüsləri TDT-nin inkişaf strategiyasının əsas konturlarını müəyyənləşdirərək, təşkilatın fəaliyyətinə yeni məzmun və istiqamət qazandırır. Məhz bu ardıcıl və sistemli yanaşma nəticəsində TDT tədricən formal əməkdaşlıq platformasından real təsir gücünə malik beynəlxalq subyektə çevrilir, regional və qlobal miqyasda strateji aktor statusunu möhkəmləndirir.

Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşü təşkilatın fəaliyyətində yeni bir mərhələnin əsasını qoydu. Quruma sədrliyin Azərbaycana keçməsindən sonra təkcə son üç ayda ölkəmizin evsahibliyi ilə olan ardıcıl və müxtəlif sahələri əhatə edən toplantılar təşkilatın strateji xəttinin həm genişləndiyini, həm də dərinləşdiyini göstərir.

Bu proseslər təkcə tədbirlərin çoxluğu ilə deyil, təşkilatın gələcək inkişaf vektorlarını müəyyən edən fikir, qərar və koordinasiya mexanizmlərinin formalaşması ilə xarakterizə olunur.

### Texnologiya və innovasiya: strateji modernləşmə platforması

Oktyabrın 24-də Bakıda keçirilmiş Sənaye, Elm, Texnologiya və İnnovasiya üzrə Nazirlərin 2-ci iclası TDT gündəliyində texnoloji əməkdaşlığın prioritet kimi qəbul edildiyini göstərdi. "Strateji tərəfdaşlıqdan texnoloji inteqrasiyaya" şüarı ilə təşkil olunan görüş türk dövlətlərinin rəqəmsal və sənaye inkişafında ortaq platforma qurmağa hazır olduğunu nümayiş etdirdi.

İclasda özəl sektorun iqtisadi əməkdaşlıq formatlarına daha fəal cəlb olunmasının vacibliyi qeyd olundu. Bildirildi ki, biznes strukturları ideyaların, texnologiyaların və investisiyaların mənbəyi kimi iqtisadi əməkdaşlığın əsas hərəkətverici qüvvəsinə çevrilməlidirlər. İstehsal müəssisələri, tədqiqat mərkəzləri və startap ekosistemləri bir araya gələrək regionda sənayenin dayanıqlı inkişafını və innovativ artımın əsasını gücləndirə bilər. Bu məqsədlə üzv ölkələrdə fəaliyyət göstərən iri sənaye şirkətlərinin iştirakı ilə texnologiya platformasının qurulması təklif olundu.

Belə bir toplantının əhəmiyyəti bundan ibarətdir ki, TDT ilk dəfə olaraq regional innovasiya ekosisteminin qurulmasını müzakirə müstəvisindən çıxarıb praktiki fəaliyyət planına daxil etdi. Eyni zamanda sənaye standartlarının uyğunlaşdırılması istiqamətində institusional mexanizm yaratdı. Elm-təhsil-sənaye zəncirinin vahidləşdirilməsi kimi strateji hədəflər sədr ölkənin koordinasiyasında fəaliyyətə keçdi.

Azərbaycanın tədbirə evsahibliyi bu prosesdə ölkəmizi texnoloji qovşaq kimi ön plana çıxarır. Startap mühitinin genişlənməsi, innovasiya mərkəzləri arasında qarşılıqlı əlaqə və rəqəmsal həllərin TDT məkanında yayılması regional rəqabət qabiliyyətinin yüksəlməsinə xidmət edən yeni mərhələ formalaşdırır.

### Tarixi yaddaşdan strateji koordinasiyaya

TDT Ağsaqqallar Şurasının 3-4 noyabr tarixlərdə Bakıda keçirilmiş 18-ci iclası isə təşkilatın ideoloji və strateji xəttinə dair mühüm mesajlar verdi. Müzakirələrin mərkəzində ortaq türk əlifbası və ortaq türk tarixi kimi uzunmüddətli inteqrasiya layihələrinin olması təsadüfi deyildi. Bu görüşün önəmini əsasən üç istiqamətdə nəzərdən keçirə bilərik.

Birinci istiqamət tarixi və mənəvi kapitalın vahidləşdirilməsidir. Belə ki, ortaq tarix və ortaq əlifba kimi təşəbbüslər gələcək nəsillərin təhsil sistemində identik mədəni əsaslar formalaşdırır. Strateji koordinasiya bu görüşün daha bir mühüm istiqamətini müəyyənləşdirir. Ağsaqqallar Şurası Zirvə görüşlərinin qərarlarını inteqrasiya proseslərinə uyğunlaşdıran unikal institut rolunu oynayır. Üçüncü istiqamət kimi isə ideoloji bütövlüyü vurğulamaq istərdik. Türk dünyası ağsaqqallarının görüşü TDT-nin mədəni-siyasi inteqrasiyasının dərinləşməsi üçün vahid konseptual çərçivənin möhkəmləndiyini göstərdi. Beləliklə, Bakıda keçirilən iclas təşkilat daxilində həm mədəni, həm də strateji səviyyədə vahid yanaşmanın formalaşmasına töhfə verdi.

Türk Dövlətləri Təşkilatının Media Forumu çərçivəsində "Rəqəmsal media mühitində TDT-yə üzv dövlətlərin qarşılıqlı əməkdaşlıq imkanları" və "Artan qlobal informasiya təhdidlərinə qarşı dayanıqlı və preventiv addımlar" müzakirə olundu.

İclaslarda xüsusi vurğulandı ki, rəqəmsal informasiya mühitində sürətlə baş verən dəyişikliklər TDT ölkələri arasında daha çevik və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq platformalarının qurulmasını zəruri edir. Ortaq rəqəmsal layihələrin icrası, informasiya axınının operativ idarə edilməsi və media qurumları arasında əlaqələrin möhkəmləndirilməsi üzv dövlətlərin kommunikasiya imkanlarını genişləndirə, regionda vahid və dinamik media məkanının formalaşmasına şərait yarada bilər.

İclasın gündəliyində əksini tapan məsələlər informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi, dezinformasiya ilə mübarizədə birgə addımların koordinasiyası, media sahəsində ortaq təşəbbüslərin daha səmərəli şəkildə həyata keçirilməsi baxımından yeni imkanlar açır.

Daha sonra TDT-nin müvafiq sahə üzrə 2025-ci il üçün Fəaliyyət Planının icra vəziyyəti müzakirə edildi və 2026-cı il üçün uyğunlaşdırılaraq yeniləndi.

TDT Xəritəçəkmə Qurumu Rəhbərlərinin 3 dekabrda Bakıda baş tutan 2-ci görüşü isə təşkilatın müdafiə, təhlükəsizlik və geoinformasiya sahəsində dərin inteqrasiya mərhələsinə keçdiyini göstərdi. Kartoqrafiya və geodeziya üzrə əməkdaşlıq artıq texniki mübadilədən strateji koordinasiyaya çevrilir. Geoinformasiya məlumatlarının vahidləşdirilməsi, sərhəd təhlükəsizliyində vahid yanaşmanın formalaşması, eləcə də Coğrafi İnformasiya Sistemləri (GIS), peyk müşahidələri və rəqəmsal kartoqrafiya üzrə təcrübə mübadiləsinin institusional xarakter alması bu görüşün əsas nəticələrinə daxildir. Bundan başqa, belə bir görüş coğrafi məlumatların hərbi planlaşdırma, situasiya təhlili və mülki təhlükəsizliyin artırılması üçün vahid sistemə inteqrasiyasını təmin edir. Azərbaycanın tədbirə evsahibliyi regional geoinformasiya mərkəzi kimi ölkəmizin rolunu daha da gücləndirir.

Dekabrın 5-də əmək, məşğulluq və sosial müdafiə nazirlərinin Bakıda keçirilmiş birinci iclası isə TDT-nin sosial siyasət üzrə institusionallaşmasında dönüş nöqtəsi oldu. "Türk Dünyası 2040 Vizyonu"nun sosial sütununun formalaşması baxımından bu platforma xüsusi əhəmiyyət daşıyır.

Görüşün yaratdığı əhəmiyyətli təsirlər əmək bazarlarının uyğunlaşdırılmasını, peşələrin tanınmasını və təhlükəsiz əmək miqrasiyası üzrə yeni mexanizmlərin formalaşmasını, sosial müdafiə sistemlərinin rəqəmsallaşdırılmasını və innovativ modellərin paylaşılmasını, inklüziv məşğulluq və sosial bərabərlik istiqamətində ortaq təşəbbüslərin qurulmasını, TDT məkanında layiqli əməyin standartlaşdırılması üçün vahid yanaşmanın yaradılmasını ehtiva edir. Müasir dünyamızda bunların hər biri son dərəcə mühüm məsələlərdir. Bu görüş Azərbaycanın sosial sahədəki liderlik təcrübəsinin türk dünyası səviyyəsində modelə çevrildiyini də praktik olaraq təsdiqlədi.

### Azərbaycanın yüksələn strateji çəkisi

Son aylarda keçirilmiş bütün bu iclas və görüşlər göstərir ki, Azərbaycanın sədrliyi dövründə TDT fəaliyyətini yalnız toplantılar vasitəsilə deyil, sahələr üzrə strateji mərkəzlərini formalaşdırmaqla genişləndirir. Texnologiya, kartoqrafiya, əmək bazarı, tarix və mədəniyyət kimi müxtəlif istiqamətlərdə vahid standartlar və ortaq mexanizmlər yaradır. Ən əsası isə təşkilatın qlobal gücə çevrilməsi üçün institusional bazasını möhkəmləndirməsidir. Bütün bunlar TDT-nin inkişaf edərək qlobal gücə çevrilməsi üçün böyük əzmkarlıq göstərən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu günə və gələcəyə strateji baxışından irəli gəlir.

Azərbaycanın evsahibliyi ilə keçirilən tədbirlər məzmun baxımından göstərir ki, ölkəmiz təkcə təşəbbüskar deyil, həm də TDT inteqrasiyasının sistemləşdirilməsində aparıcı rol oynayır. Bu isə Türk Dövlətləri Təşkilatının gələcək onilliklər üçün strateji arxitekturasını formalaşdıran proseslərin mərkəzində Azərbaycanın lider mövqeyini ortaya qoyur.

TDT son illərdə regional əməkdaşlıq formatı olmaqdan çıxaraq, siyasi, iqtisadi, humanitar və təhlükəsizlik ölçülərini özündə birləşdirən strateji birlik səviyyəsinə yüksəlib. Bu transformasiyanın arxasında duran əsas amillərdən biri Azərbaycanın fəal mövqeyi və Prezident İlham Əliyevin türk dünyasının birləşdirilməsi istiqamətində həyata keçirdiyi ardıcıl siyasətdir. Ölkəmizin həm coğrafi mövqeyi, həm enerji və nəqliyyat infrastrukturu, həm də milli kimlik baxımından daşıdığı əhəmiyyət TDT-nin institusional inkişafını mühüm dərəcədə sürətləndirib.

Azərbaycanın TDT çərçivəsində fəaliyyəti ilk mərhələdən etibarən sadəcə iştirakla məhdudlaşmayıb, əksinə, təşkilatın gündəmini formalaşdıran təşəbbüslər vasitəsilə strateji dinamika yaradıb. Prezident İlham Əliyevin türk dünyasının inteqrasiyasını Azərbaycanın milli maraqlarının ayrılmaz tərkib hissəsi kimi qiymətləndirməsi bu prosesin ən vacib ideoloji əsasını təşkil edir. Onun çıxışlarında və siyasi xəttində türk kimliyi, tarixi yaddaş və ortaq mədəniyyət mövzularına xüsusi vurğu edilməsi TDT daxilində həm siyasi, həm də ictimai legitimliyi gücləndirən mühüm amildir.

### Strateji liderlik

Ölkəmizin təşkilatda oynadığı əsas rolu regional geosiyasət fonunda xüsusilə aydın görmək mümkündür. İlk növbədə Bakı türk dünyasının Şərq-Qərb xəttində yerləşən ən mühüm geostrateji mərkəzidir. Enerji diplomatiyası - xüsusilə Bakı-Tbilisi-Ceyhan, TANAP və TAP kimi layihələr - türk dövlətlərini bir-birinə bağlayan real iqtisadi körpülər yaratmış, bununla da təşkilat daxilində enerji təhlükəsizliyi sahəsində qarşılıqlı asılılıq güclənmişdir. Bu layihələr iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də siyasi inteqrasiyanın dayanıqlı əsasını formalaşdırır. Tarixi Zəfərimizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasından sonra yaranmış yeni reallıqlar dövründə Azərbaycan dövlətinin Zəngəzur dəhlizinin (TRIPP) açılması istiqamətində apardığı işlər də türk dünyasının yeni quru bağlantısını təmin etməyə yönəlmiş strateji addımdır.

Prezident İlham Əliyevin TDT-də liderlik mövqeyi eyni zamanda Azərbaycanın hərbi-siyasi gücünün artması ilə paralel gedən prosesdir. Azərbaycan öz tarixi Zəfəri ilə bütün türk dövlətləri üçün güc mənbəyinə çevrildi. Bir çox müşahidəçinin fikrincə, 2020-ci ildən sonra türk dövlətləri arasında təhlükəsizlik əməkdaşlığının dərinləşməsi birbaşa Azərbaycanın formalaşdırdığı yeni regional reallıqla bağlıdır. Prezident İlham Əliyevin çoxqütblü dünya düzənində türk dünyasının müstəqil platforma kimi çıxış etməsi barədə tezisləri TDT-nin strateji xəttinin ideoloji çərçivəsini müəyyənləşdirir.

Azərbaycan bu gün TDT-nin yalnız fəal üzvü deyil, həm də təşkilata dinamizm, real əməkdaşlıq platformaları və genişlənən geosiyasi vizyon qazandıran əsas aktorlardan biridir. Prezident İlham Əliyevin türk dünyasının siyasi birliyini prioritet istiqamət kimi müəyyənləşdirməsi bu təşkilatı gələcəkdə daha böyük siyasi güc mərkəzinə çevirə biləcək ideoloji və praktiki əsaslarla möhkəmləndirir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Ermənistanın və Avropa İttifaqının mövqeyi sülh prosesi ilə ziddiyyət təşkil edir

**"Avropa İttifaqı və Ermənistan arasında dekabrın 2-də Brüsseldə keçirilmiş Tərəfdaşlıq Şurasının VI iclasının yekununda "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı yeni sənəd imzalanıb. Sənəd Aİ ilə Ermənistan arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əlaqələrin dərinləşdirilməsini qarşıya məqsəd qoyur. Bu təşəbbüs regiondakı proseslərə, xüsusən də Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlara təsir göstərmək potensialı ilə diqqət mərkəzindədir. Məhz bu səbəbdən sənədin məzmunu və mümkün nəticələrinin Azərbaycan tərəfindən də qiymətləndirilməsini zəruri edib".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov bildirib. O qeyd edib ki, Azərbaycan Xarici İşlər Nazirliyi Avropa İttifaqı və Ermənistan arasında imzalanmış sənədlə bağlı mövqeyini açıqlayıb. Rəsmi Bakı bildirib ki, bu sənədin mahiyyəti, təqdimatı və zamanlaması regionda mövcud reallıqlara, eləcə də Azərbaycan-Ermənistan normallaşma prosesinin həssas mərhələsinə birbaşa təsir edən amillərlə səciyyələnir. Bu baxımdan XİN-in mövqeyi sənədə verilən münasibətin diplomatik qiymətləndirilməsi kimi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasına görə, bölgədə siyasi tarazlığı dəyişə biləcək hər bir sənəd xüsusi həssaslıqla hazırlanmalı və qəbul edilməlidir. Belə bir kontekstdə, növbəti 7 il ərzində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəddə Azərbaycana qarşı yönəlmiş məsələlərə yer ayrılması qəbuledilməzdir və bu, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin perspektivlərinə mənfi təsir göstərir. Eyni zamanda Qarabağ ermənilərinə "status" verilməsi ilə bağlı çağırışlar, Azərbaycana qarşı qaldırılan hüquqi iddialar, TRIPP layihəsinə toxunulmaması, Avropa İttifaqının Ermənistandakı Müşahidə Missiyasının fəaliyyəti və hərbi məzmunlu istinadlar rəsmi Bakı tərəfindən açıq şəkildə qəbul olunmur. Bu müddəalar bölgədə davam edən sülh danışıqlarının məntiqinə ziddir. Azərbaycan tərəfi bildirir ki, real dialoq və tərəfdaşlıq yalnız obyektivlik, balanslaşdırılmış mövqe və beynəlxalq hüquqa hörmət əsasında mümkündür.

Deputat diqqətə çatdırıb ki, bu mərhələdə Ermənistanın atdığı addımlar yalnız ikitərəfli münasibətlərə deyil, bütövlükdə regional sabitliyə təsir edən əsas amillərdən birinə çevrilir. Ermənistanın Vaşinqtonda üzərinə müəyyən öhdəliklər götürməsinə baxmayaraq, Aİ ilə imzalanmış son sənəddə Azərbaycanın əleyhinə yönələn müddəalara razılıq verməsi ciddi ziddiyyət yaradır. İndiki şəraitdə Avropa İttifaqının, çox güman ki, rəsmi İrəvanın tələbi ilə Azərbaycana qarşı iddiaları qəbul etməsi və belə bir sənədə imza atması Ermənistan tərəfinin Vaşinqton prosesinə əks mövqe tutması kimi qiymətləndirilməlidir. Bu, faktiki olaraq, Ermənistanın yenidən ənənəvi davranış modelinə qayıdaraq, ABŞ-ın sülhyaradıcı səylərini Aİ-nin iddialarına dəyişməsi deməkdir.

Bu addımın nəticələrinin olacağı istisna deyil və qiymətləndirilmə yalnız Azərbaycan tərəfindən aparılmayacaq. Xüsusilə ABŞ Prezidenti Donald Trampın sülh prosesi ilə bağlı həm Bakıya, həm də İrəvana ünvanladığı məktubdan sonra Ermənistanın bu cür xəyanət xarakterli mövqe sərgiləməsi tamamilə aydın mənzərə yaradır. Belə bir situasiyada İrəvanın məsuliyyətsiz addımları özünün siyasi etibarlılığını daha da sual altına salır.

Digər tərəfdən, sənəddə TRIPP yoluna deyil, Ermənistanın əsassız, iddiaları əsasında irəli sürülmüş, reallığı əks etdirməyən və əslində, Azərbaycanın mövcud kommunikasiya şəbəkəsindən asılı olan "sülh kəsişməsi" adlı layihənin dəstəklənməsi də diqqət çəkir. Bu yanaşma həm Vaşinqtonun sülhyaratma missiyasına, həm də regionda kommunikasiyaların açılması ilə bağlı ortaya qoyduğu prinsipial mövqeyə zidd olmaqla, Ermənistan və Aİ tərəfindən nümayiş etdirilən qeyri-konstruktiv davranışın göstəricisidir. Baş verənlər sülh prosesinə xələl gətirən addımların mənbəyini açıq şəkildə ortaya qoyur və bölgədə etimadın artırılması üçün daha məsuliyyətli, real vəziyyətə uyğun davranışların vacibliyini bir daha göstərir.

K.Bayramov əlavə edib ki, regionda gedən proseslər göstərir ki, Azərbaycanın mövqeyi və fəaliyyəti Cənubi Qafqazın gələcək siyasi-iqtisadi arxitekturasını müəyyən edən başlıca amillərdəndir. Azərbaycan təkcə coğrafi mövqeyi ilə deyil, həm də həyata keçirdiyi strateji layihələrlə bölgənin açıq, inteqrasiya olunan və rəqabətqabiliyyətli məkan kimi formalaşmasına mühüm töhfə verir. Məhz bu kontekstdə ölkəmizin iqtisadi fəallığın artırılması, mövcud nəqliyyat-kommunikasiya xətlərinin modernləşdirilməsi və yeni marşrutların açılması istiqamətində gördüyü işlər xüsusi önəm daşıyır. Mərkəzi Asiya ilə Avropa İttifaqını birləşdirən kommunikasiya xəttinin qurulması, Orta dəhlizin genişləndirilməsi və bu dəhlizin müxtəlif marşrutlarının gücləndirilməsi Azərbaycanın regionda əvəzolunmaz tranzit və enerji mərkəzinə çevrildiyini bir daha sübut edir. Bütün bu amillər ölkəmizin ən güclü, etibarlı və əvəzolunmaz oyunçulardan biri olduğunu açıq şəkildə göstərir. Bu dinamika fonunda Avropa İttifaqının son iddiaları və siyasi ritorikası Avrasiya məkanında nüfuzunu daraldan amillərdən birinə çevrilir. Qənaətə görə, Aİ-nin bu cür yanaşmaları nə əməkdaşlığa, nə uzunmüddətli tərəfdaşlığa, nə də sülhə xidmət edir. Əksinə, bu tip addımlar regional prosesləri təhrik edən, qarşıdurma elementlərini artıran və qarşılıqlı etimadı zədələyən məzmun daşıyır. Reallıq isə ondan ibarətdir ki, bu yanaşmalarla nə Aİ, nə də onunla eyni mövqedə dayanan qüvvələr Cənubi Qafqazda məqsədlərinə nail ola biləcəklər. Azərbaycan isə bundan sonra da regional əməkdaşlıq, təhlükəsizlik və sülhün təmin olunması istiqamətində prinsipial və ardıcıl siyasətini davam etdirəcək. Çünki bölgənin gələcəyini müəyyən edən əsas güc balansı Azərbaycanın təşəbbüsləri, real əlaqələndirmə imkanları və praktiki siyasəti üzərində formalaşır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycanın daha bir strateji tərəfdaşı

### Slovakiya ilə münasibətlərdə yeni mərhələ başlayır

**Azərbaycanın ənənəvi və qeyri-ənənəvi resurslarla zəngin geostrateji coğrafiyada yerləşməsi ona xarici ölkələrlə çoxşaxəli əməkdaşlıq üçün geniş imkanlar yaradır.**

Lakin o da həqiqətdir ki, təkcə sərvətlərin zənginliyi ölkələrarası münasibətlər üçün əsas sayılmır. Burada etibarlı və güvənli tərəfdaş olmaq da vacib rol oynayır ki, Azərbaycanı bu gün dünyanın böyük diqqət kəsb edən ölkəsinə çevirən də elə bu mühüm keyfiyyətlərə malik olmasıdır. Prezident İlham Əliyev respublikamıza rəhbərlik etdiyi 22 illik zaman kəsiyində həyata keçirdiyi qətiyyətli siyasət, çevik diplomatik gedişlər və iqtisadi inkişafa hesablanmış uzaqgörən addımlar sayəsində Azərbaycanı bugünkü vacib mövqeyə yüksəldib. Tam mübaliğəsiz demək olar ki, dünyanın əksər ölkələri respublikamızla hərtərəfli əlaqələr qurmağa böyük maraq göstərir ki, bunların arasında ABŞ və Çin kimi siyasi və iqtisadi dünya nəhəngləri də gəlir. Yürüdülən balanslaşdırılmış siyasətin nəticəsidir ki, Azərbaycan bugünkü çarpışan dünyada Şərqlə Qərbin, Şimalla Cənubun ortaq maraqlardan çıxış etdiyi mərkəz rolunu oynayır. Nəqliyyat, enerji qovşağı kimi təkcə yerləşdiyi bölgənin deyil, daha geniş arealın sözün əsl mənasında ümid yerinə çevrilən Azərbaycan həm də sülhü bərqərar edən ölkə kimi qlobal səviyyədə ehtiram görür.

#### Peter PELLEQRİNİ: "Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik"

Bütün bu uğurların fonunda həm də Azərbaycanın dost ölkələrlə əlaqələrinin daha da dərinləşməsi özünü qabarıq şəkildə göstərir. Enerji ixracatçısı olaraq bu gün Avropanın təbii qaza olan tələbatını əhəmiyyətli dərəcədə ödəyən ölkəmizin Slovakiya ilə əlaqələri də dostluq münasibətlərinə əsaslanır və bu, Prezident İlham Əliyevin dekabrın 8-də adıçəkilən ölkəyə rəsmi səfəri zamanı həyata keçirilən səmimi qarşılanma, mühüm görüşlər və verilən bəyanatlarda da öz təsdiqini bir daha tapdı.

Sözügedən tarixdə Bratislavada Prezident İlham Əliyevin Slovakiya Prezidenti Peter Pelleqrini ilə təkbətək görüşü oldu, prezidentlər paytaxtda "Azadlıq Qapısı" abidəsini ziyarət etdilər, həmçinin Devin qəsrində oldular, sonra dövlətimizin başçısının Slovakiya Prezidenti ilə geniş tərkibdə görüşü keçirildi, liderlər mətbuata bəyanatlarla çıxış etdilər, Bratislavada Prezident İlham Əliyevin şərəfinə rəsmi ziyafət verildi və bir çox digər mühüm görüş keçirildi.

Liderlərin geniş tərkibli görüşü zamanı Slovakiya Prezidenti deyib: "...Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik, çünki Sizinlə dəfələrlə görüşmək imkanımız olub".

Vurğulayaq ki, Slovakiya Prezidenti ilə Azərbaycan liderinin şəxsi dostluq əlaqələri həm də ölkələrimizin ikitərəfli münasibətlərinə birbaşa təkan verib.

Bratislavada geniş tərkibdə görüşdə Prezident İlham Əliyev də məhz bu məqama diqqət çəkib: "Əslində, biz ikimiz Slovakiya ilə Azərbaycan arasında münasibətlərin fəal fazasını başlatdıq. Əlaqələr bu gün artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ötən il biz əlaqələrimizi ən yüksək səviyyəyə qaldırmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıq. Həmçinin biz Baş nazirin müavini və müdafiə naziri cənab Kalinyakın ötən ay hərbi paradımızda iştirak etdiyinə görə çox minnətdarıq. Biz bunu aramızda güclü dostluq əlaməti hesab edirik. Son illər ərzində münasibətlərimiz yüksək dərəcədə inkişaf edib və bir çox sahələri əhatə edir".

Qeyd etdiyimiz kimi, Azərbaycan qaz ixracatçısı olaraq Avropanın enerji təhlükəsizliyində əvəzolunmaz rol oynayır. Hazırda Avropa İttifaqına üzv 8 ölkə Azərbaycan qazını alır. Ötən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilib. Bunun vacib əhəmiyyət kəsb etdiyini prezidentlərin geniş tərkibdəki görüşündə vurğulayan Slovakiya lideri söylədi ki, enerji təchizatına gəldikdə Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb: "Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər. Avropa İttifaqı Rusiya qazının Slovakiyaya idxalını tam qadağan etmək qərarına gəlib. Onlar bu qərarı 27 üzv adından qəbul ediblər. Müddət çox qısadır".

Qarşılığında Prezident İlham Əliyev söylədi ki, ötən il biz Slovakiyaya qaz təchizatına başladıq: "İstənilən lazımi vaxtda davam etdirməyə hazırıq".

Ötən il Slovakiyanın Baş naziri Robert Fitsonun ölkəmizə rəsmi səfəri çərçivəsində Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyannamə imzalanıb. Birgə Bəyannamə Azərbaycan ilə Slovakiya arasında siyasi, iqtisadi, mədəni və ekoloji sahələrdə əməkdaşlığı daha da gücləndirməyi hədəfləyib.

Mətbuata bəyanatla çıxışı zamanı Prezident Peter Pelleqrini bildirdi ki, Slovakiya Azərbaycanı yerləşdiyi regionda strateji əhəmiyyətə malik tərəfdaş hesab edir: "Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatıdır. O, Asiya və Avropa ilə kəsişmədə yerləşir və zəngin enerji resurslarına malikdir. Mən çox şadam ki, bizim ticarət dövriyyəmiz artmaqdadır. Burada ciddi artım var. Biz bu gün də qeyd etdik ki, burada hələ də istifadə edilməmiş potensial var".

#### Sabitlik, investisiya imkanları və əməkdaşlıq mühiti

Azərbaycanla Slovakiya arasında həm də müdafiə sənayesi sahəsində perspektivli əməkdaşlıq mövcuddur ki, hər iki ölkənin lideri görüşlər zamanı bu barədə məlumat verdilər.

Səfər çərçivəsində diqqət yönəldilən məsələlərdən biri Azərbaycanla Ermənistan arasında bu ilin 8 avqustunda Vaşinqton sammitində bölgədə sülhün bərqərar olması üçün atılan vacib addımlar, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi mətninin paraflanması oldu.

Prezident İlham Əliyevin şərəfinə verilən rəsmi ziyafət zamanı bu məsələyə toxunan Peter Pelleqrini söylədi ki, biz həmişə sizin ərazi bütövlüyünüzə və münaqişənin davamlı, sülh yolu ilə həllinə dəstək göstərmişik: "Avqustda imzalanmış razılaşma "sülhə nail olmaq mümkündür" kimi güclü mesaj verən böyük nailiyyətdir. Bu da dünyanın digər yerlərində bizlər üçün bir ilham mənbəyi olmalıdır. Enerji təchizatımız təhlükə altında olduqda biz Sizə müraciət edə bilərik".

Slovakiya Prezidentinin bu fikirləri Azərbaycanın sülh səylərinin ümumilikdə bölgənin sabitliyinə mühüm töhfə verdiyini və investisiya imkanlarının, əməkdaşlığın artmasına geniş imkanlar yaratdığının göstəricisidir.

Azərbaycanın işğaldan azad etdiyi ərazilərində həyata keçirdiyi quruculuq işlərinə dost ölkələrin yaxından dəstəyi də xüsusi qeyd edilməlidir.

Qarabağın yenidən qurulmasına Slovakiya da öz dəstəyini göstərir və Ağdamın Baş Qərvənd kəndində 851 ev və 10 yaşayış binasından, eləcə də məktəb, uşaq bağçası və tibbi mərkəzdən ibarət "ağıllı kənd" inşa edir. Eyni zamanda Slovakiya ərazilərimizin minalardan təmizlənməsində ölkəmizə yardımçı olur.

Demək olar ki, Prezident İlham Əliyevin Slovakiyaya strateji tərəfdaşlığa töhfə verən tarixi rəsmi səfəri tərəflərin bir çox sahədə uğurlu inkişafda maraqlı olduqlarını və dostluğa dayanan əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini göstərdi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycanla Slovakiya arasında əməkdaşlıq genişlənir

**Son illər Azərbaycanla Slovakiya arasında münasibətlər dinamik inkişaf edir və əlaqələr bir çox sahəni əhatə edir. Dekabrın 8-də Azərbaycan Prezidenti ilk dəfə Slovakiyaya rəsmi səfər etdi. Səfər zamanı qarşılıqlı faydalı müzakirələr aparıldı, əlaqələrin inkişafına dair bəyanatlar verildi.**



Rəsmi görüşlərdə verilən mesajlardan aydın olur ki, hər iki ölkə mövcud əməkdaşlıq potensialını səmərəli dəyərləndirməkdə maraqlıdır. Üstəlik, Avropa İttifaqının Rusiya qazının Slovakiyaya idxalını tam qadağan etmək qərarına gəldiyi bir vaxtda Azərbaycanla əməkdaşlıq Bratislava üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın enerji təchizatının şaxələndirilməsində oynadığı rol Slovakiya tərəfindən də yüksək qiymətləndirilir. Ötən il ilk dəfə Azərbaycan Slovakiyaya qaz təchizatına başlayıb. Dövlət başçımız Bratislavada bəyan etdi ki, biz bunu istənilən lazımi vaxta qədər davam etdirməyə hazırıq.

Slovakiya postmünaqişə dövrünün reallıqlarını qəbul edir və dəstəkləyir. Bu ölkə Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş razılaşmanı tarixi nailiyyət hesab edir.

Dost ölkə kimi Slovakiya şirkətləri işğaldan azad edilmiş Ağdam rayonunun Baş Qərvənd kəndinin "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulmasında iştirak edir.

Ümumiyyətlə, Azərbaycanla Slovakiya arasında qarşılıqlı maraq doğuran əməkdaşlıq istiqamətləri genişlənməkdədir. Ötən il Slovakiya Baş nazirinin ölkəmizə səfəri baş tutub. Səfər çərçivəsində imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə əlaqələri ən yüksək səviyyəyə qaldırmaqdadır. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, bu bəyannamədə əks olunan maddələr gələcək əməkdaşlığın perspektivlərini müəyyən edir.

Rəsmi Bakı ilə Bratislava arasında siyasi əlaqələrlə yanaşı, müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlığı dərinləşdirmək barədə də razılığa gəlinib. Qlobal təhlükələr fonunda hərbi sahədə əməkdaşlıq hər iki ölkənin təhlükəsizliyi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Amma bu, müharibəyə hazırlıq kimi deyil, perspektivli əməkdaşlığın yeni istiqaməti kimi qəbul edilməlidir.

Yeri gəlmişkən, ötən il keçirilmiş Slovakiya-Azərbaycan biznes-forumu iki ölkə arasında biznes sahəsində əməkdaşlıq üçün yaxşı zəmin yaradıb. Prezident İlham Əliyevin Slovakiyaya səfəri zamanı verilən mesajlardan da aydın oldu ki, müstəqil siyasət aparan Azərbaycan və Slovakiya bu gün suverenlik və ləyaqət əsasında qurulmuş siyasətlə idarə olunurlar. Avropa İttifaqının üzvü olsa da, Slovakiya Aİ-nin digər ölkələrin daxili işlərinə qarışmasının əleyhinədir. Eyni zamanda rəsmi Bratislava Bakı ilə Avropa İttifaqı arasında körpü yaratmağa hazırdır. Bu da ikitərəfli münasibətlərdə sağlam yanaşmanın göstəricisidir.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***

## Uzaq qonşu, yaxın dost

**Slovakiya və Azərbaycan arasındakı iqtisadi əlaqələr enerji, nəqliyyat, ticarət və investisiya sahələrində əməkdaşlığı əhatə edir. Bu mənada Azərbaycan qazının Avropaya nəqli və bu prosesdə Slovakiyanın rolu ikitərəfli əlaqələrin əsas istiqamətlərindən biridir. Eləcə də ticarət dövriyyəsinin artırılması, işgüzar forumların təşkili və yeni iqtisadi layihələrin müzakirəsi də qarşılıqlı münasibətlərin möhkəmlənməsinə xidmət edir.**





Qeyd edək ki, 2024-cü ilin mayında Bakıda iki ölkə arasında imzalanan "Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyannamə" münasibətlərin inkişafını yeni səviyyəyə qaldırdı. Sənəd imzalandıqdan sonra Prezident İlham Əliyev Slovakiyanın Baş naziri ilə birgə mətbuata bəyanat verərkən Slovakiya-Azərbaycan əlaqələrində yeni səhifənin açıldığını vurğulamış və bu müştərək yolun uğurlu olacağına ümidvar olduğunu bildirmişdir: "Bu, çox ciddi siyasi sənəddir və əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran sənəddir. Strateji Tərəfdaşlıq Bəyannaməsində əks olunan maddələr həm niyyətlərimizi, həm də əməkdaşlığın gələcək perspektivlərini müəyyən edir".

Strateji Tərəfdaşlıq Bəyannaməsinin praktiki əhəmiyyəti Slovakiya Prezidenti Peter Pelleqrinin COP29 çərçivəsində Azərbaycana səfəri zamanı açıq şəkildə özünü göstərdi. İki ölkə rəhbərlərinin 2024-cü il noyabrın 11-də keçirilən görüşündə Azərbaycan və Slovakiya arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdiyi vurğulandı. Görüşdə birgə sənaye müəssisələrinin yaradılması, İKT sahəsində əməkdaşlıq və Qarabağda həyata keçirilən quruculuq layihələrində Slovakiya şirkətlərinin iştirakı əsas müzakirə mövzuları oldu.

Məsələyə eyni prizmadan yanaşsaq deyə bilərik ki, Prezident İlham Əliyevin Slovakiyaya bu günlər baş tutan ilk rəsmi səfəri də iki ölkə arasında strateji əməkdaşlığın gücləndirilməsinə və siyasi, iqtisadi sahələrdə ikitərəfli münasibətlərin genişləndirilməsinə yönəlmiş addımdır. Hazırda Azərbaycan və Slovakiya arasında müəyyən sahələr üzrə əməkdaşlıq nəzərəçarpacaq dərəcədə genişlənib ki, bu da uzunmüddətli perspektivlər vəd edir. Sözsüz ki, bu həm də iki ölkə arasında münasibətlərin daha intensiv və geniş formatda inkişafına öz töhfəsini verəcək.

Xatırladaq ki, Azərbaycan üçün Avropa İttifaqı (Aİ) artıq uzun illərdir əsas ticarət tərəfdaşıdır və son illərdə bu əlaqələr əhəmiyyətli dərəcədə dərinləşib. Belə olan halda Aİ ilə münasibətlərin genişlənməsi, xüsusən də enerji sahəsində əməkdaşlığın dərinləşməsi Azərbaycan üçün ittifaq daxilində tərəfdaş ölkələrin rolunu bir qədər artırır. Bu kontekstdə Slovakiya da Avropa İttifaqının üzvü kimi Azərbaycandan təbii qaz alan və onun Avropa bazarlarına çıxışında rol oynayan tərəfdaşdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədovun sözlərinə görə, Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə də Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayır: "Hazırda illik 25 milyard kubmetr təbii qaz ixracının təxminən yarısı Avropa bazarlarına çıxarılır. Aİ-nin 8 üzvü Azərbaycan təbii qazının alıcısıdır. 2024-cü ildə Slovakiyanın neft emalı zavodunda Azərbaycan neftinin ilk partiyası emal edilib ki, bu da iki tərəfli münasibətlərin inkişafı üçün mühüm məsələdir. Slovakiya yalnız təbii qaz alıcısı deyil, həm də İT sahəsinin, rəqəmsallaşmanın, süni intellekt və data mərkəzlərinin inkişaf etdiyi bir ölkədir və bu sahələrin ciddi enerji təminatına ehtiyacı var. Yaxın gələcəkdə Azərbaycan Slovakiyaya elektrik enerjisi ixrac edə bilər. Məlumdur ki, ölkəmizdə 2030-cu ilə qədər alternativ enerji mənbələrinin geniş istehsalı nəzərdə tutulur ki, bunun da əsas hissəsi ixraca yönəldiləcək".

Prezident İlham Əliyev Slovakiyada mətbuata bəyanatında bəhs etiyimiz məsələyə belə toxunub: "Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 giqavata bərabərdir və növbəti beş il ərzində bu, 8 giqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz Cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik".

İki ölkə arasında iqtisadi əməkdaşlığın əsas istiqamətlərindən biri də nəqliyyat və logistika sahəsindəki birgə layihələrdir. Slovakiya artıq bir neçə ildir Azərbaycanın iştirakı ilə həyata keçirilən beynəlxalq nəqliyyat təşəbbüslərində fəal tərəfdaş kimi çıxış edir. Xüsusilə Orta dəhlizin imkanlarının genişləndirilməsi istiqamətində əməkdaşlıq iki ölkənin strateji maraqlarına tam uyğundur. Azərbaycanın Avrasiyanın yeni nəqliyyat xəritəsində mühüm rol oynamasını dövlətimizin başçısı Slovakiyada mətbuat konfransındakı bəyanatında da diqqətə çatdırıb: "Biz eyni zamanda bu gün Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayırıq. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə bu gün imkan verir ki, Azərbaycan "Şərq-Qərb" nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir. Gələcək illərdə bağlantılar və nəqliyyat sahəsinə əlavə vəsait qoyaraq biz öz imkanlarımızı genişləndirəcəyik. Hesab edirəm ki, biz Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında bu sahəni də diqqətdən kənarda qoymamalıyıq. Çünki bunun çox böyük potensialı vardır".

Azərbaycan-Slovakiya münasibətləri işğaldan azad edilmiş ərazilərin bərpasına da öz töhfəsini verməkdədir. Slovakiya şirkətlərinin Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması prosesinə maraq göstərməsi bu ölkənin regionda uzunmüddətli əməkdaşlıq niyyətini aydın şəkildə ortaya qoyur. Slovakiya tərəfi həm humanitar, həm də infrastrukturyönümlü layihələrdə iştirak etməyə hazır olduğunu bəyan edib və bu, Avropa ilə Cənubi Qafqaz arasında yeni əməkdaşlıq körpüsünün formalaşmasına xidmət edir. Bu çərçivədə Ağdamın Baş Qərvənd kəndində fərdi yaşayış evlərinin tikintisi üçün Slovakiya şirkəti ilə müqavilə bağlanılıb və artıq tikinti işlərinə başlanılıb.

Bütün bunlar Azərbaycan-Slovakiya münasibətlərinin qarşıdakı illərdə daha sürətlə və daha geniş miqyasda inkişaf edəcəyinə ciddi əsas yaradır. Bu dinamika iki ölkənin siyasi dialoqunu möhkəmləndirməklə yanaşı, enerji, nəqliyyat, texnologiya və bərpa-quruculuq sahələrində əməkdaşlığın dərinləşəcəyinə dair real perspektivlər vəd edir. Ona görə də formalaşan yeni tərəfdaşlıq modeli Azərbaycan-Slovakiya münasibətlərini regional əməkdaşlıq sistemində mühüm və perspektivli istiqamətlərdən birinə çevirir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistanda beynəlxalq konfransda iştirak edib

**Dekabrın 10-da Türkmənistanın Türkmənbaşı şəhərindəki "Avaza" Milli Turizm Zonasında "Müasir cəmiyyətdə qadınların rolu: Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq əməkdaşlığın inkişafı" mövzusunda beynəlxalq konfrans keçirilib.**










AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konfransda iştirak edib.

Qonaqlar əvvəlcə Türkmənistanın zəngin mədəni irsini və bugünkü uğurlarını nümayiş etdirən sərgi ilə tanış olublar. Ekspozisiyada ölkənin müxtəlif sahələrdə uğurlarını əyani təqdim edən, qadınların dövlət quruculuğu, iqtisadiyyat, elm, təhsil və səhiyyədə fəal iştirakını göstərən stendlər də yer alıb.

Konfrans qadınların rolunun gücləndirilməsi və davamlı inkişafın qlobal gündəminin təbliği sahəsində mühüm təşəbbüslərin müzakirəsi üçün beynəlxalq təşkilatların nümayəndələrini və ekspertləri bir araya gətirib.

Tədbirin açılışında çıxış edən Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva konfransın fəal və konstruktiv dialoq şəraitində keçəcəyinə əminliyini ifadə edib. O, təşkil olunan konfransın humanizmə sadiqlik ideyasına əsaslanan təşəbbüslərin təşviqi baxımından səmərəli platforma olacağını bildirib. "Övladlarımıza həyat dəyərlərini öyrədən, sülh və hörmət mədəniyyətini aşılayan qadınlardır. Onların dəstəyi humanist cəmiyyət üçün əsasdır. Hərtərəfli yardımın təmin edilməsi üçün qadın və uşaqlara dəstək mərkəzlərinin beynəlxalq şəbəkəsinin yaradılması zəruridir. Uşaqlara tibbi və psixoloji yardım, qadınlara sosial və hüquqi dəstək, operativ humanitar yardım, mobil tibbi qrupların formalaşdırılması mühüm məsələlərdəndir", - deyə Oğulcahan Atabayeva vurğulayıb. O, həmçinin qadınların sosial, siyasi və iqtisadi proseslərdə fəal iştirakının əhəmiyyətindən danışıb.

BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya bu il üç mühüm tarixin - Birləşmiş Millətlər Təşkilatının 80, Pekin Bəyannaməsinin 30 və Türkmənistanın daimi neytrallıq statusunun beynəlxalq səviyyədə tanınmasının 30 illik yubileylərinin qeyd edildiyini bildirib. "Türkmənistanın neytrallıq statusu ölkənin dialoq, vasitəçilik və əməkdaşlığın inkişafına istiqamətlənmiş xarici siyasətinin əsasını təşkil edir. Türkmənistanda qadınlar bu proseslərdə mühüm rol oynayırlar. Onlar ölkəni BMT-də və digər beynəlxalq təşkilatlarda təmsil edir, danışıqlara qatılır və çoxtərəfli dialoqun genişlənməsinə töhfə verirlər. Qadınlar, eyni zamanda parlamentdə təhsil, elm, mədəniyyət, gənclər siyasəti, sosial müdafiə və səhiyyə məsələlərində fəal iştirak edirlər", - deyə baş direktor diqqətə çatdırıb.

Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva ölkələrində qadın hüquqlarının müdafiə edildiyini diqqətə çatdıraraq deyib ki, qızlar və qadınlar üçün pulsuz magistr proqramları, dünyanın aparıcı universitetlərində təhsil almaq üçün təqaüdlər təsis olunub. Hazırda xaricdə dövlət vəsaiti ilə təhsil alan tələbələrin 35 faizi qadınlardır. Biz həmçinin qadın sahibkarlar üçün keyfiyyətli maliyyələşdirmə, mentorluq və dünya təcrübəsinə çıxış imkanı verən unikal sürətləndirici proqram yaratmışıq", - deyə o bildirib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxışında qeyd edib ki, qadınların liderliyi, biliyi və təcrübəsi cəmiyyətin davamlı inkişafı üçün həlledici əhəmiyyətə malikdir. Leyla Əliyeva Heydər Əliyev Fondunun fəaliyyəti, o cümlədən beynəlxalq layihələri barədə məlumat verib. "Fond bir sıra ölkələrdə, eləcə də Çin, Gürcüstan, Misir, Rusiya, Rumıniya, Vyetnam və Niderlandda məktəblərin tikintisi və yenidən qurulması layihələri həyata keçirib. Pakistanda qızlar məktəbi və məktəb infrastrukturunun yenidən qurulması, eləcə də Keniya və Ruandada informasiya texnologiyaları avadanlığının təchizatı üzrə proqramlar icra edilib". O, həmçinin Burkina Faso, Mali, Niger və Hondurasdakı layihələrlə qızların təhsilinə və inkişafına dəstək göstərildiyini vurğulayıb. Qadınların müasir cəmiyyətdə xüsusi yer tutmalarından məmnunluğunu ifadə edən fondun vitse-prezidenti onların ailə dəyərlərini və mədəni ənənələrin qoruyucusu olduqlarını deyib.

Leyla Əliyeva Heydər Əliyev Fondunun fəaliyyətinin elm, təhsil, səhiyyə, mədəniyyət və ekologiya kimi vacib sahələri əhatə etdiyini, ötən dövr ərzində bu istiqamətlərdə yerli və beynəlxalq layihələrin həyata keçirildiyini söyləyib. O, çıxışı zamanı ortaq dəyər olan Xəzər dənizinin səviyyəsinin əhəmiyyətli dərəcədə azalması probleminə də toxunaraq deyib: "Xəzərin səviyyəsinin azalması nərə balığı, qızıl balıq və suitilər kimi dəniz canlılarının həyatına ciddi təsir göstərir. Xəzər sularının çirklənməsi onların vəziyyətini ağırlaşdırmaqda davam edir. Bu, birlikdə mübarizə aparmalı olduğumuz qlobal problemdir və mən dənizimizi xilas edə biləcəyimizə inanıram".

Digər çıxışçılar qadınların cəmiyyətdəki rolundan danışaraq onların mədəni dəyərlərin, adət-ənənələrin və əxlaq qaydalarının əsas daşıyıcısı və qoruyucusu olduqlarını bildiriblər. Davamlı inkişafa nail olmaq üçün qadın potensialının siyasi və iqtisadi həyata maksimum cəlb edilməsinin vacibliyini vurğulayan çıxışçılar belə konfransların çoxtərəfli dialoq üçün mühüm platforma olduğunu diqqətə çatdırıblar. Qadınların potensialının tam reallaşmasına mane olan problemlərin aradan qaldırılması üçün dövlət qurumları, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlar arasında tərəfdaşlığın möhkəmləndirilməsi zəruriliyi qeyd olunub.

Konfrans işini panel iclaslarla davam etdirib.

# Leyla Əliyeva Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri ilə görüşüb





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistanda keçirilən "Müasir cəmiyyətdə qadınların rolu: Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq əməkdaşlığın inkişafı" mövzusundakı beynəlxalq konfrans çərçivəsində dekabrın 10-da Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycanla Özbəkistan arasında qarşılıqlı münasibətlər, o cümlədən Heydər Əliyev Fondu ilə Özbəkistanın "Zamin" Beynəlxalq İctimai Fondunun birgə əməkdaşlığının dövlətlərimizin yüksəksəviyyəli əlaqələrinə verdiyi töhfə vurğulanıb.

Türkmənistanda keçirilən beynəlxalq konfransın qadınların siyasi və iqtisadi həyata fəal cəlb olunmaları, çoxtərəfli dialoqun və tərəfdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti diqqətə çatdırılıb. Qadınların həyatımızın müxtəlif sahələrində, o cümlədən təhsil və səhiyyə sahələrindəki mövqelərinin gücləndirilməsinin davamlı inkişafın təmin edilməsi üçün vacibliyi qeyd olunub.

# Azərbaycan Respublikasının baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib

**Dekabrın 9-da "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan Respublikasının baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.**




Açılış nitqi ilə çıxış edən Şuranın sədri, baş prokuror Kamran Əliyev bildirib ki, konstitusiya dövlətimizin suverenliyini, idarəçilik sisteminin sabitliyini və cəmiyyətin hüquqi inkişaf prinsiplərini müəyyən edən əsas sənəddir.

Vurğulanıb ki, müasir Azərbaycan dövlətinin möhkəm təməli dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin formalaşdırdığı dövlətçilik fəlsəfəsi üzərində qurulub. Ulu Öndərin müəyyən etdiyi dövlətçilik xəttini bu gün yüksək səviyyədə və böyük siyasi iradə ilə davam etdirən möhtərəm cənab Prezident İlham Əliyevdir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində dövlət suverenliyimizin möhkəmləndirilməsi, qanunçuluğun təmin olunması, idarəçiliyin təkmilləşdirilməsi və Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi istiqamətində əhəmiyyətli nəticələr əldə olunub. Çıxışda həmçinin qeyd olunub ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr cəmiyyətin hüquqi maarifləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması və sosial rifahın yüksəldilməsi baxımından xüsusilə əhəmiyyət kəsb edir.

İclasda Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov "Azərbaycan Konstitusiyasında dövlət suverenliyi prinsipinin hüquqi əsasları", Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyev "Azərbaycan Respublikasının Konstitusiyası və insan hüquqları", Milli Məclisin deputatı Kamal Cəfərov "Korrupsiyanın qarşısının alınmasında Azərbaycan modeli", Konstitusiya Məhkəməsinin Cinayət və inzibati hüquq şöbəsinin müdiri, prokurorluğun veteranı Tahir Kazımov "Cinayət Məcəlləsinin 178-ci maddəsinə dəyişikliklərin edilməsinin zərurəti", Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova "Dövlət hesabına müdafiənin həyata keçirilməsi zamanı mövcud problemlər", Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev isə "Cinayət təqibi üzrə icraatın dayandırılmasının aktual problemləri" mövzularında çıxışlar ediblər. Hər bir çıxış ətrafında şura üzvlərinin təklifləri dinlənilib və müzakirələr aparılıb.

Tədbir zamanı prokurorluğun elmi-tədqiqat və metodiki fəaliyyətinə dair yeni nəşrlər və elektron resurslar da təqdim olunub. Belə ki, Elm-Tədris Mərkəzinin rəis müavini Səbuhi Şahverdiyev "Prokurorluq orqlarının peşə hazırlığı, elmi-tədqiqat və metodiki iş sahəsində ölkədaxili əməkdaşlıq təcrübəsi" adlı vəsaiti, mərkəzin şöbə rəisi Nigar Qələndərli "Prokuror nəzarəti və prosessual rəhbərlik təcrübəsi" jurnalını, mərkəzin şöbə prokuroru Fərizə Mirzəyeva "Qlobal ədalətə doğru: Beynəlxalq Prokurorlar Assosiasiyası və Azərbaycan Prokurorluğu" kitabını, Baş Prokurorluğun idarə prokuroru Mahmud Mehdiyev "Kriptovalyutanın aşkarlanması, izlənməsi və müsadirəsi", mərkəzin şöbə prokuroru Rəşad Qasımov isə mənimsəmə və qulluq mənafeyi əleyhinə cinayətlər üzrə metodiki vəsaiti təqdim edib, eləcə də Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova Elektron Prokurorluq İnformasiya Sistemində yaradılmış (EPİS) "Hüquqi müzakirələr və təkliflər forumu" modulunun funksionallığı barədə məlumat verib. İclas çərçivəsində 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" münasibətilə ali təhsil müəssisələri arasında keçirilən "Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi" adlı hüquq viktorinasında "Nominasiyalar" üzrə fərqlənmiş tələbələrin mükafatlandırılması mərasimi təşkil edilib və qaliblərə mükafatlar baş prokuror Kamran Əliyev tərəfindən təqdim olunub.

Tədbirin sonunda şuranın sədri, baş prokuror Kamran Əliyev konstitusiyanın dövlət suverenliyinin təmin edilməsində rolu, hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatların əhəmiyyəti və hüquq-mühafizə orqanlarının fəaliyyətində əsas istiqamətlərin daim diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini vurğulayıb.

# "Şahdəniz"də daha bir platformanın tikintisi üçün müqavilə imzalanıb

**"Şahdəniz" konsorsiumu bu ilin əvvəlində təsdiqlənmiş "Şahdəniz Kompressiya" (ŞDK) layihəsinin cədvəl üzrə irəliləyişini təmin etmək məqsədilə daha bir mühüm tikinti müqaviləsinin imzalandığını bildirib.**



156 milyon dollar dəyərində olan bu müqavilə ŞDK platforması üçün dayaq blokunun və payaların tikintisini əhatə edir. Müqavilə "BOS Shelf LLC" və "BOS Shelf International FZCO" şirkətlərinə (birlikdə "BOS Shelf" adlanır) verilib.

Müqavilənin iş həcminə quraşdırma sexləri və montaj üzrə mühəndislik, boru-prokat işləri, 9900 tonluq dayaq blokunun və 5800 tonluq boru payaların və yan payaların hazırlanması və yığılması, quraşdırma sistemlərinin istismar sınaqları, eləcə də hazır dayaq blokunun dənizə yola salınmaq üçün barjaya yüklənməsi və bərkidilməsi daxildir.

Bütün istehsal-quraşdırma işləri "BOS Shelf"ə məxsus Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun (BDÖZ) tikinti-quraşdırma sahəsində həyata keçiriləcək. Bu işlərdə yerli infrastruktur və resurslardan istifadə olunacaq. Müqavilənin icrasında işçi qüvvəsinin təxminən 97 faizinin Azərbaycan vətəndaşlarından ibarət olacağı, ümumi iş icrasının isə təqribən 2 milyon iş-saatı təşkil edəcəyi gözlənilir. Müqavilə çərçivəsində işlərin bu ilin sonunadək başlanması və 2028-ci ilin birinci rübündə tamamlanması planlaşdırılır.

BP-nin layihə üzrə baş meneceri İlqar Məmmədov deyir: "Bu, ŞDK layihəsi və operator olaraq BP şirkəti üçün növbəti mühüm mərhələdir. Bu, komandalarımızın peşəkarlığını və əzmini, uzunmüddətli yerli tərəfdaşlıqlarımızın gücünü və layihəni təhlükəsizlik, keyfiyyət və səmərəlilik baxımından ən yüksək standartlara uyğun şəkildə həyata keçirmək öhdəliyimizi əks etdirir. "BOS Shelf" şirkətinin bundan əvvəl də BDÖZ tikinti-quraşdırma sahəsində "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz-2" platformaları üçün 11 dayaq blokunu uğurla və vaxtında hazırlayıb təhvil verməsi bizdə tam əminlik yaradır ki, ŞDK-nın dayaq bloku da qrafikə uyğun və büdcə daxilində tikilib təhvil veriləcək. BDÖZ tikinti-quraşdırma sahəsinin irihəcmli modernləşdirmə aparılmadan dayaq blokunu inteqrasiya etmək və barjaya yükləmək gücündə olması layihənin bu mühüm mərhələsinin vaxtında təhvil verilməsi üçün əsas amillərdən biridir".

Xatırladaq ki, nəhəng "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin növbəti mərhələsi - 2,9 milyard dollarlıq ŞDK layihəsində məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Belə ki, layihənin "Şahdəniz" yatağından təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Layihə çərçivəsində yeni kompressiya obyektinin - elektriklə işləyən, heyətsiz, yaxud əsasən heyətsiz kompressiya platformasının inşası nəzərdə tutulur. Bu qurğu suyun 85 metr dərinliyində, mövcud "Şahdəniz Bravo" (ŞDB) platformasından təxminən 3 kilometr məsafədə quraşdırılacaq. Üzərində dörd ədəd 11 meqavatlıq kompressor quraşdırılacaq ŞDK həm "Şahdəniz Alfa" (ŞDA), həm də ŞDB platformalarından hasil edilən qazın kompressiyası üçün ana qurğu kimi xidmət göstərəcək. Bu o deməkdir ki, hər iki platformadan hasil edilən ixrac qazı qurudakı Səngəçal terminalına göndərilməzdən əvvəl ŞDK-da kompressiya olunacaq. Layihə həmçinin "Şahdəniz" müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri, ŞDA, ŞDB və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri də əhatə edir.

Onu da qeyd edək ki, layihə üzrə inşaat işləri artıq başlayıb. Tikintinin 2029-cu ildə başa çatması ilə yeni platformanın həmin il ŞDA-dan, 2030-cu ildə isə ŞDB-dən hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbula hazır olacağı planlaşdırılır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 144-cü maddəsinin 2-ci və 3-cü hissələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25, 37, 71 və 149-cu maddələrinin müvafiq hissələrinə uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun dekabrın 29-na təyin edilmiş iclasında baxılacaq.



# "Əsrə bərabər 50 il": Azərbaycan Memarlıq və İnşaat Universitetinin böyük inkişaf yoluna baxış

**"Güclü dövlət qurmaq üçün ilk növbədə bilikli, savadlı, yüksək hazırlıqlı mütəxəssislər yetişdirilməlidir".**

**Heydər ƏLİYEV**

*Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) 50 illik yubileyinin qeyd edilməsi təkcə bir ali təhsil ocağının tarixinin daha bir mərhələyə çatması deyil. Bu yubiley eyni zamanda ölkəmizin memarlıq və inşaat təhsilinin inkişafına verilən dövlət qayğısının, milli mühəndislik məktəbinin formalaşmasına göstərilən xüsusi diqqətin göstəricisidir.*

Ulu Öndər Heydər Əliyevin ali təhsil sisteminə verdiyi dəyər və mühəndislik sahəsinə yönəlik strateji baxışı AzMİU-nun formalaşmasında, onun gələcək inkişaf konsepsiyasının müəyyənləşməsində həlledici rol oynayıb. Təsadüfi deyil ki, AzMİU məhz Ümummilli Liderin ölkəyə ilk rəhbərliyi dövründə yaradılmış, ikinci rəhbərliyi dövründə isə tarixi fərmanı ilə universitetimiz bugünkü adını alaraq yeni bir mərhələyə qədəm qoy-



muş, inkişafının istiqamətləri aydın şəkildə müəyyənləşdirilmişdir.

Bu gün isə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan böyük quruculuq işləri, şəhərsalmanın geniş vüsət alması, "ağıllı şəhər", "yaşıl memarlıq", enerji effektli tikinti kimi çağdaş yanaşmalar memarlıq və inşaat təhsilinə yeni tələblər formalaşdırır. AzMİU bu çağırışlara cavab vermək üçün yenilənmiş təhsil proqramları, mütəxəssis hazırlığının yeni strukturu, gücləndirilmiş elmi baza, beynəlmiləlləşmə və rəqəmsal transformasiya istiqamətində ardıcıl addımlar atır.

"Əsrə bərabər 50 il" devizini seçməyimiz təsadüfi deyil. Bu yarım əsr təkcə universitetin yaşı deyil - Azərbaycanın sürətli inkişaf yoluna verilmiş töhfələrin, minlərlə memar və mühəndisin yetişdirilməsi ilə formalaşan intellektual gücün, ölkənin quruculuq və bərpa işlərində ön sıralarda dayanmağının ifadəsidir. Eyni zamanda bu, 1920-ci ildə yaradılmış İnşaat fakültəsindən başlayaraq toplanmış bütün təhsil təcrübəsinin və nailiyyətlərin universitetin bünövrəsini təşkil etməsinin göstəricisidir.

Hazırda Azərbaycan özünün ən sürətli inkişaf dövrünü yaşayır. Regionların yenilənməsi, işğaldan azad olunmuş torpaqların dirçəldilməsi, yeni şəhər və kəndlərin qurulması, müasir infrastruktur şəbəkələrinin yaradılması - bütün bu genişmiqyaslı proseslər təhsildə güclü mühəndis və memar hazırlığına olan ehtiyacı daha da artırıb. Universitetin yetirdiyi minlərlə mütəxəssis Azərbaycanın müasir şəhərlərini, binalarını, körpülərini, su sistemlərini, yollarını, kommunikasiya xətlərini - bir sözlə, ölkənin müasir simasını formalaşdırmağa və inkişafın qarşıya qoyduğu böyük tələblərə cavab verməyə qadir olmalıdır.

Universitetimizin tarixi rəsmi olaraq 1975-ci ildən başlasa da, onun kökləri daha dərindir. 1920-ci ildə Bakı Politexnik İnstitutunun tərkibində yaradılan İnşaat fakültəsi, 1930-1934-cü illərdə fəaliyyət göstərən İnşaat və Memarlıq İnstitutu, ötən əsrin müxtəlif mərhələlərində yenidən təşkil olunan fakültə və şöbələr bugünkü AzMİU-nun əsasını formalaşdırıblar.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan qısa müddətdə kənd təsərrüfatı ölkəsindən sənaye ölkəsinə çevrildi. Bütün sahələrdə olduğu kimi, memarlıq və inşaat sahəsində də genişmiqyaslı layihələr reallaşdırıldı, yeni sənaye müəssisələri, yaşayış kompleksləri, mikrorayonlar tikilməyə başlandı. Məhz bu işlər bugünkü universitetimizin 1975-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutu olaraq ölkədə inşaat-memarlıq sahəsində ixtisaslaşmış ilk ali məktəb kimi yaradılmasını zəruri etdi. Təhsil ocağına 1992-ci ildə universitet statusunun verilməsi, 2000-ci ildə isə Ümummilli Lider Heydər Əliyevin tarixi fərmanı ilə ali təhsil müəssisəsinin adının rəsmi şəkildə "Azərbaycan





Memarlıq və İnşaat Universiteti" kimi təsdiqi bu inkişaf yolunun ardıcıl mərhələləridir. Bu tarixi ardıcıllıq göstərir ki, AzMİU-nun 50 illiyi həm də bir elm məktəbinin, bir ali ixtisas təhsili ənənəsinin, müasir dövrün memarlıq-inşaat düşüncəsinin formalaşmasının yubileyidir.

Bu gün AzMİU özünün yeni dövrünü yaşayır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, böyük tikinti və nəqliyyat layihələrinin icrası, regionların davamlı inkişafı və müasir infrastrukturun formalaşdırılması üçün müasir tələblərə cavab verən mütəxəssis hazırlığı universitetimizin qarşısında duran böyük və məsuliyyətli vəzifədir.

Hazırda universitetin Memarlıq, İnşaat, Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri, Tikinti-iqtisad, Mexanika və informasiya texnologiyaları, Nəqliyyat, Dizayn fakültələri ölkənin mühəndis təhsilinin aparıcı mərkəzlərindəndir. Universitetimizdə yüksəksəviyyəli, təcrübəli mütəxəssislər və alimlərdən, eyni zamanda gənc kadrlardan ibarət 600 nəfər professor-müəllim heyəti fəaliyyət göstərir. 3 dildə - Azərbaycan, ingilis və rus dillərində tədris aparılır, 24 ixtisas üzrə bakalavr pilləsində mütəxəssis hazırlığı həyata keçirilir. Magistratura səviyyəsində isə 53 proqram üzrə hazırlıq aparılır. Həmçinin universitetin nəzdində İnşaat Kolleci, Fizika-Riyaziyyat Təmayüllü Lisey, 2010-cu ildən etibarən isə Layihə İnstitutu mövcuddur. Son illərdə həyata keçirdiyimiz islahatlar tədris prosesini müasir tələblərə uyğunlaşdırmağa, tələbəmərkəzli tədris modelinə keçidi təmin etməyə, beynəlxalq səviyyədə universitetin tanıdılması və nüfuzunun artırılmasına yönəlib.

Bu gün qürurla qeyd edə bilərik ki, 50 il ərzində universitetdən 70 mindən çox memar, inşaat, nəqliyyat, hidrotexniki və meliorativ tikinti mühəndisi məzun olub. Respublikanın, demək olar ki, bütün iri tikinti layihələrində, şəhərsalma planlaşdırılmasında, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasında AzMİU məzunlarının imzası var. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq işlərinin əsas icraçıları, layihə rəhbərləri, sahə mühəndisləri də məhz bu universitetin məzunlarıdır. Bu fakt bir daha sübut edir ki, AzMİU yalnız təhsil müəssisəsi deyil, ölkənin inkişaf strategiyasının həyata keçirilməsində rolu olan milli intellekt mərkəzidir. Universitetin ölkə iqtisadiyyatının inkişafındakı rolunun daha da artması, istehsalatın tələblərinin təmin edilməsi və əlaqələrin gücləndirilməsi məqsədilə 50 illik yubileyi ərəfəsində AzMİU-nun Məzun Assosiasiyası yaradıldı. Qısa zaman keçməsinə baxmayaraq, Məzun Assosiasiyası artıq universitetin keçmişi, bu günü və gələcəyi arasında körpü rolunu oynayır. Bir ildən az vaxtda assosiasiya universitetin maddi-texniki bazasının gücləndirilməsi, laboratoriyalarının yenilənməsi, tələbələrin motivasiyasının artırılması və xeyriyyəçiliklə bağlı xeyli işlər görüb. Məzun Assosiasiyası peşəkar əməkdaşlıq platforması olmaqla yanaşı, həm də universitetin tarixi yaddaşının, məzun birliyinin və sosial məsuliyyət ənənəsinin gücləndirilməsi deməkdir.

Bütün ölkəmizdə olduğu kimi, AzMİU-da da rəqəmsallaşma və Süni İntellekt Strategiyasının tələblərinə uyğun inkişaf istiqamətləri diqqət mərkəzindədir. Təhsilin məzmununun elektronlaşdırılması, rəqəmsal qiymətləndirmə sistemi, virtual laboratoriyalar və elektron tədris modulları mühəndis hazırlığında artıq əsas vasitəyə çevrilib. Bu prosesə təkcə texniki yenilənmə kimi baxmaq olmaz. Bu, təhsildə tamamilə yeni fəlsəfədir: daha çevik, daha şəffaf və tələbənin inkişaf motivasiyasını artıran bir yanaşmadır. Şübhəsizdir ki, bu proses inkişaf edən xətlə davam etdiriləcək.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası"nın təsdiq edilməsi haqqında imzaladığı sərəncam ölkəmizdə rəqəmsal transformasiya prosesinin yeni mərhələsinə keçidi müəyyənləşdirir. Bu strategiya ali təhsil müəssisələrinin qarşısına intellektual texnologiyaların tətbiqi, rəqəmsal elmin inkişafı və yüksəkixtisaslı kadr hazırlığı sahəsində konkret vəzifələr qoyur. Sərəncamdan irəli gələn tələblər universitetimizin fəaliyyətində yeni prioritetlərin müəyyənləşməsinə səbəb olmuşdur. Azərbaycan Memarlıq və İnşaat Universiteti bu çağırışların cavabı olaraq rəqəmsal ekosistemin gücləndirilməsi, süni intellektə əsaslanan tədris və tədqiqat mühitinin formalaşdırılması istiqamətində ardıcıl addımlar atır.

Universitetdə ölkənin aparıcı İT şirkətləri ilə birlikdə rəqəmsal layihələrin hazırlanması, tələbələrin real mühəndislik tapşırıqları üzərində çalışma imkanlarının yaradılması, habelə süni intellekt üzrə praktik təlimlərin təşkili istiqamətində əməkdaşlıq genişləndirilir. Tələbə və müəllimlərin biliklərinin artırılması üçün AzMİu-da müxtəlif istiqamətlər üzrə İT kursları təşkil olunur. Proqramlaşdırma, süni intellektin əsasları, məlumatların analizi, rəqəmsal modelləşdirmə kimi sahələri əhatə edən bu kurslar beynəlxalq akkreditasiyaya malik partnyor şirkətlərin dəstəyi ilə həyata keçirilir. Tələbələrin ali təhsil diplomu ilə bərabər beynəlxalq sertifikatlar alması onların məşğulluq imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Qlobal texnologiya şirkətləri ilə qurulan tərəfdaşlıq sayəsində universitetdə beynəlxalq praktikanı əks etdirən birgə layihələr də həyata keçirilir. Xarici ali məktəblərlə birgə tədqiqat proqramları, akademik mübadilə, professor-müəllim heyətinin və tələbələrin qarşılıqlı səfərləri təşkil olunur. Süni intellekt, böyük verilənlər analitikası və rəqəmsal dizayn sahəsində ixtisaslaşmış universitetlərlə əməkdaşlıq AzMİU-nun potensialını daha da gücləndirir.

Müasir dövrdə təhsilin ölkənin iqtisadi inkişafında artan rolu, insan kapitalının prioritet istiqamət olması ali təhsilin beynəlxalq rəqabətliliyinin artırılmasını tələb edir. Beynəlmiləlləşmə ali təhsil müəssisəsinin bütün funksiyalarına: təhsilə, elmi tədqiqat fəaliyyətinə, idarəetməyə beynəlxalq standartlara söykənən yanaşmanın tətbiqi deməkdir. Beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi isə inkişafın vacib şərtlərindən biridir.

Beynəlmiləlləşmə prosesinin məntiqli davamı və universitetin qlobal ali təhsil standartlarına nə dərəcədə uyğun olmasının göstəricisi nüfuzlu beynəlxalq reytinq cədvəllərində yer almasıdır. QS World University reytinqində dünya səviyyəli universitetlər sırasına daxil olmaq və QS Stars yarışmasında maksimal - 5 ulduzla qiymətləndirilmək AzMİU-nun son illərdə əldə etdiyi nailiyyətlərdəndir.

The World University reytinqində ilbəil mövqeyimiz möhkəmlənir. Green Metric, RUR və bir sıra digər reytinqlərdə iştirak edir və dünya universitetləri ilə müxtəlif istiqamətlərdə yarışa qatılırıq.

Bununla yanaşı, beynəlxalq səviyyəli ali təhsil ocağı olmağın mütləq göstəricilərindən biri hazırlanan ixtisas proqramlarının beynəlxalq akkreditasiyadan keçməsidir. Bu yolda atılan ilk uğurlu addımlar bakalavr səviyyəsində memarlıq (RİBA), inşaat və nəqliyyat tikintisi mühəndisliyi (IAAR), magistratura səviyyəsində isə inşaat mühəndisliyi (IAAR) ixtisasları üzrə təhsilin və tədrisin qabaqcıl standartlara uyğunluğunun təsdiqlənməsi, beynəlxalq qiymətləndirmənin qazanılmasıdır.

Beynəlxalq tərəfdaşlıqların genişlənməsi, xarici universitetlərlə çoxşaxəli əməkdaşlıq, müəllim və tələbə mobilliyi, ikili diplom proqramları və birgə tədqiqat layihələrinin miqyasının artırılması AzMİU-nu regionda mühəndislik, memarlıq və dizayn təhsili üzrə beynəlxalq standartlara uyğun aparıcı ali məktəblərdən birinə çevirib. Universitetin bu istiqamətdə həyata keçirdiyi ardıcıl fəaliyyətin tərkib hissəsi olaraq qlobal təhsil məkanında AzMİU həm öz mövqeyini möhkəmləndirir, həm də Azərbaycanın ali təhsil sisteminin beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm töhfə verir.

Hazırda AzMİU dünyanın müxtəlif ölkələrində yerləşən nüfuzlu ali təhsil müəssisələri ilə çoxölçülü əməkdaşlıq əlaqələrinə malikdir. Universitetin tərəfdaşlar şəbəkəsində İstanbul Texniki Universiteti və Yıldız Texniki Universiteti kimi Türkiyənin aparıcı ali məktəbləri, Milan Politexnik, La Sapiensa, Vestminster universitetləri kimi Avropanın yüksək reytinqli, habelə Cənubi Koreya, Çin, Mərkəzi Asiya ölkələrinin müxtəlif texnologiyayönümlü ali təhsil qurumları yer alır. Bu tərəfdaşlıqlar çərçivəsində tədqiqat mübadiləsi, müəllim və tələbə mobilliyi və rəqəmsal tədris mühitində birgə layihələrin icrası geniş şəkildə həyata keçirilir.

Universitetin beynəlxalq fəaliyyətində xüsusi yer tutan ikili diplom proqramları AzMİU tələbələrinə həm Azərbaycan, həm də tərəfdaş ölkələrin ali məktəblərinin diplomlarını əldə etmək imkanı yaradır. Hazırda ikili diplom proqramları Ankara Universiteti, Vestminster Universiteti, Texas Texniki Universiteti, Ege Universiteti, İstanbul Texniki Universiteti, Milan Politexnik Universiteti (memarlıq və dizayn ixtisasları), Leiriya Universiteti və Coruna Universiteti ilə uğurla həyata keçirilir.

Qeyd etmək lazımdır ki, beynəlxalq əməkdaşlıq vasitəsilə Azərbaycana qabaqcıl tədris metodologiyası, innovativ texnologiyalar və dünya təcrübəsi transfer olunur. Universitetimizin məzunları həm yerli, həm də qlobal əmək bazarında yüksək rəqabət qabiliyyətinə malik mütəxəssislər kimi formalaşır, ölkənin mühəndislik, memarlıq və dizayn sahələrində insan kapitalının inkişafına mühüm töhfə verirlər.

Ötən 50 il ölkəmizdə memarlar və inşaat sahəsi üzrə mühəndislər hazırlığında və universitetimizin bir ali təhsil ocağı olaraq inkişafında mühüm mərhələ olmuşdur. Məhz AzMİU-nun məzunları ötən əsrin 70-80-ci illərində və müstəqillik dövrünün son 25 ili ərzində ölkədə həyata keçirilən böyük tikinti və yenidənqurma fəaliyyətinin aparıcı mühəndis qüvvəsini təşkil etmişlər. Məzun və tələbələrimiz Vətənin müdafiəsi, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə fədakarcasına iştirak etmiş, qəhrəmanlıq göstərmiş, şəhidlik zirvəsinə ucalmışlar. Vətən müharibəsində Zəfəri canları bahasına yaxınlaşdıranların sıralarında AzMİU-nun 27 şəhid məzunu var. Onlar bizim qürur mənbəyimiz və tələbələrimiz üçün örnəkdirlər.

Prezident İlham Əliyevin Azərbaycanın yüksək templə inkişafına, beynəlxalq aləmdə rolunun və nüfuzunun artmasına, xalqın rifahının yüksəldilməsinə istiqamətləndirilmiş siyasi strategiyası ölkənin müasir tələblərə cavab verən kadrlarla təmin edilməsini vacib şərt olaraq ön plana çəkmişdir. "Qara qızılın insan kapitalına çevrilməsi" ideyası davamlı olaraq konkret fəaliyyətlərlə həyata keçirilməkdədir. AzMİU Azərbaycanın təhsil sisteminin bir hissəsi olaraq bu böyük məqsədə uyğun işini qurur və fəaliyyət strategiyasını planlaşdırır.

Universitetimizin dərin köklərə malik elm və təhsil ənənələri, ardıcıl həyata keçirilən yeniləşmə siyasəti, nüfuzlu və müasir biliklərə sahib olan professor-müəllim heyəti yeni dövrdə yeni tələblər səviyyəsində qarşıda duran vəzifələrin öhdəsindən gələcəyinə və Azərbaycanın ən səviyyəli elmi tədqiqat universitetlərindən birinə çevriləcəyinə əminlik yaradır.

***Gülçöhrə MƏMMƏDOVA,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor***

# Azərbaycan Konstitusiyasının yubileyi İtaliya parlamentində qeyd olunub

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi çərçivəsində İtaliya Deputatlar Palatasında Azərbaycan Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın İtaliyadakı səfirliyindən məlumat verilib. İtaliya Parlamentinin üzvü Nazario Paqanonun təşəbbüsü ilə keçirilən konfransda Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov, Azərbaycan - İtaliya Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupun sədri, deputat Azər Kərimli, İtaliya - Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, senator Marko Skurria, Neapol Universitetinin "Federiko II" Elmi Komitəsinin sədri professor Sandro Staiano və Azərbaycan Parlamentində Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, deputat Nurlan Həsənov çıxış ediblər.

Tədbirin əvvəlində deputat Azər Kərimli 12 dekabr tarixinin Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anım günü olduğunu xatırladaraq, tədbir iştirakçılarını onun xatirəsini birdəqiqəlik sükutla yad etməyə dəvət edib.

Konfransda çıxış edən natiqlər 12 noyabr 1995-ci ildə qəbul olunmuş və müasir Azərbaycan dövlətinin hüquqi və siyasi əsaslarını müəyyən edən Konstitusiyanın təhlili, tarixi əhəmiyyəti və simvolik dəyəri barədə fikirlərini bölüşüblər.

Təqdimatlar zamanı Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra keçdiyi inkişaf yolu, müstəqilliyin və suverenliyin möhkəmləndirilməsində Konstitusiyanın fundamental rolu, habelə multikulturalizm, qadınların cəmiyyətdə rolu və əsas vətəndaş hüquq və azadlıqlarının tanınması kimi fundamental dəyərlər xüsusilə qeyd edilib.

Çıxışlarda natiqlər həmçinin Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etməsi, Qarabağ münaqişəsinin başa çatması və regionda sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təmin olunması istiqamətində atılan addımlar barədə də məlumat veriblər. Bu kontekstdə Konstitusiyanın dövlətçiliyin möhkəmləndirilməsi və postmünaqişə dövründə quruculuq proseslərinə hüquqi bazanın təmin edilməsi baxımından əhəmiyyəti xüsusi vurğulanıb.

Tədbirdə habelə Azərbaycan və İtaliya arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinə toxunulub. Bildirilib ki, bu münasibətlər yüksəksəviyyəli qarşılıqlı səfərlərlə, o cümlədən İtaliya Prezidenti Sercio Mattarellanın builki Bakı səfəri ilə daha da güclənib. Prezident Mattarellanın səfəri çərçivəsində İtaliya-Azərbaycan Universitetinin açılış mərasiminin keçirilməsi iki ölkə arasında təhsil və humanitar sahələrdə əməkdaşlığın inkişafına mühüm töhfə kimi qiymətləndirilib.

# "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş poçt markası dövriyyəyə buraxılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması xüsusi tarixi və mənəvi məna daşıyır. Bu qərar Konstitusiyanın qəbul edilməsinin 30-cu, Vətən müharibəsində qazanılmış qələbənin isə 5-ci ildönümünə təsadüf etməklə dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və suverenlik dəyərlərinin daha geniş təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.**





Bu çərçivədə həyata keçirilən tədbirlərə AZCON Holding şirkətlərindən olan "Azərpoçt" MMC də öz töhfəsini verərək "Konstitusiya və Suverenlik İli" poçt markasını dövriyyəyə buraxıb.

"Azərpoçt"dan AZƏRTAC-a bildirilib ki, markanın təqdimat mərasimi Dövlət Bayraq Muzeyində AZCON Holding, "Azərpoçt" MMC, Dövlət Bayraq Muzeyi və digər qurumların rəsmi nümayəndələrinin iştirakı ilə keçirilib.

Tədbirin açılışında Dövlət Bayraq Muzeyinin direktoru Könül İmamverdiyeva çıxış edib. Daha sonra Dənizkənarı Bulvar İdarəsinin İdarə Heyəti sədrinin müavini Ağacan Əhmədov Bayraq muzeyi və eksponatlar haqqında ətraflı məlumat verib.

"Azərpoçt" MMC-nin İdarə Heyətinin sədri vəzifəsini icra edən İsi Mustafayev markanın buraxılışının həm ölkə daxilində, həm də beynəlxalq poçt məkanında gələcək nəsillərə suverenlik ruhunun və dövlətçilik mesajının çatdırılması baxımından önəmli olduğunu vurğulayıb. O bildirib ki, bu marka dövlətçiliyə sədaqətin və milli dəyərlərə bağlılığın rəmzi kimi böyük mənəvi yük daşıyır.

Tədbir çərçivəsində qonaqlar üçün muzey üzrə informativ ekskursiya təşkil olunub, milli və dövlət atributlarına həsr edilən sərgi ilə tanışlıq baş tutub. Ardınca "Konstitusiya və Suverenlik İli" mövzusuna həsr olunan markalar muzeyə hədiyyə edilib və Bayraq Meydanının inşasına dair qısa film nümayiş etdirilib.

# “Saipem S.p.A.” şirkəti ilə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib

**"Saipem S.p.A." şirkəti ilə enerji, infrastruktur və "yaşıl keçid" sahələrində reallaşdırılan layihələr üzrə birgə fəaliyyətin genişləndirilməsi imkanları müzakirə olunub.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov İtaliyanın "Saipem S.p.A." şirkətinin baş icraçı direktoru və baş meneceri Alessandro Puliti ilə görüşüb.

Görüşdə ölkəmizdə enerji sektorunda aparılan genişmiqyaslı transformasiya prosesləri diqqətə çatdırılıb, "Saipem"lə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Enerji, infrastruktur və "yaşıl keçid" sahələrində reallaşdırılan layihələr üzrə birgə fəaliyyətin genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

Tərəflər regionda bərpaolunan enerji potensialının reallaşdırılmasının və mövcud resurslardan səmərəli şəkildə faydalanmağın əhəmiyyətini vurğulayıb, qarşılıqlı maraq doğuran layihələri müzakirə ediblər.

# Çin Azərbaycanla nəqliyyat və logistika sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlıdır

**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov Çin Xalq Respublikasının Dövlət Şurası yanında Dövlət Əmlakına Nəzarət və İdarəetmə Komitəsinin (SASAC) nümayəndə heyəti ilə görüş keçirib.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən (RİNN) AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Çin arasında nəqliyyat və logistika sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Saməddin Əsədov qeyd edib ki, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olub və Orta dəhliz onun əsas tərkib hissəsidir.

Nazir müavini son 20 ildə ölkədə nəqliyyat infrastrukturuna yatırılan sərmayələr və həyata keçirilən iri bağlantı layihələri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, region ölkələri ilə fəal əməkdaşlıq nəticəsində tranzit marşrutlarının səmərəliliyi əhəmiyyətli dərəcədə yüksəlib. Görüşdə həmçinin Zəngəzur dəhlizinin (TRIPP) tikintisi üzrə görülən işlər barədə Çin tərəfinə məlumat verilib. Qeyd edilib ki, layihə regional kommunikasiyaların şaxələndirilməsinə, eləcə də bölgədə davamlı sülh və rifahın dəstəklənməsinə töhfə verəcək.

Tərəflər nəqliyyat və kommunikasiya sahələrində əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və yeni təşəbbüslərin həyata keçirilməsi üçün böyük imkanların mövcud olduğunu vurğulayıblar.

# Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasına hazırlıq məsələlərindən danışılıb

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Serbiyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGIC) Müşahidə Şurasının üzvü Boris Tadiç ilə görüşüb.**

Komitədən AZƏRTAC-a bildirilib ki, görüş zamanı 2026-cı ildə Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) hazırlıq məsələləri müzakirə edilib, mərkəzin forumda iştirakının əhəmiyyəti xüsusilə vurğulanıb. Həmçinin 2026-cı il yanvarın 15-16-da Cenevrədə keçiriləcək NGIC-in İllik Toplantısı və bu çərçivədə birgə təşəbbüslər və əməkdaşlıq imkanları barədə səmimi fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, 2026-cı il mayın 17-22-də Bakının evsahibliyi edəcəyi BMT-nin 13-cü Dünya Şəhərsalma Forumu ilə əlaqədar (WUF13) hazırlıq prosesi davam edir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyevin bu istiqamətdə rəsmi görüşləri ardıcıl şəkildə həyata keçirilir.

# Qeyri-neft sektorunda sənaye məhsulları istehsalı 4,8 faiz artıb

**Cari ilin yanvar-noyabr aylarında ölkə üzrə 57,5 milyard manatlıq sənaye məhsulları istehsal edilib. Neft-qaz sektorunda məhsul istehsalı 2,1 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 4,8 faiz artıb.**

Sənaye məhsulunun 60,6 faizi mədənçıxarma sektorunda, 33 faizi emal sektorunda, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,7 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 1,1 faiz artıb.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 94,9, ağacın emalı və ağacdan məmulatların istehsalı 60,9, kompüter, elektron və optik məhsulların istehsalı 49,9, toxuculuq sənayesi məhsullarının istehsalı 27,1, rezin və plastik kütlə məmulatlarının istehsalı 13,7, tütün məmulatlarının istehsalı 13,2, qida məhsullarının istehsalı 9,8, neft məhsullarının istehsalı 9,6, kimya sənayesi məhsullarının istehsalı 8,7 faiz artıb, içkilərin istehsalı 1,6, tikinti materiallarının istehsalı 3,4, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 4,3, metallurgiya sənayesi məhsullarının istehsalı 8,6, maşın və avadanlıqların istehsalı 8,7, hazır metal məmulatlarının istehsalı 9,7, mebel istehsalı 10, elektrik avadanlıqlarının istehsalı 11,2, poliqrafiya məhsullarının istehsalı 18,7, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 19,9, geyim istehsalı 20,0, kağız və karton istehsalı 26,2, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 33,9 faiz azalıb.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,9, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 3,3 faiz artıb.

# Bakıdan Bratislavaya birbaşa uçuşlara başlanılır

**"AZCON Holding"in şirkətlərindən olan "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) rəhbərliyi ilə Macarıstanın "Wizz Air" aviaşirkəti arasında Azərbaycan ilə Mərkəzi və Şərqi Avropa ölkələri arasında uçuş marşrutlarının genişləndirilməsi üzrə işçi görüşü keçirilib.**

Görüşdə Bakı-Bratislava (Slovakiya) birbaşa reyslərinin açılması, habelə Buxarest (Rumıniya) və Varşava (Polşa) istiqamətlərinin marşrut şəbəkəsinə əlavə olunması məsələləri müzakirə edilib.

Tərəflər eyni zamanda "Wizz Air" uçuşlarının Azərbaycanın regional hava limanlarında icrası və mümkün bazalanma imkanlarını qiymətləndiriblər. Bu yanaşma regionlarda turizmin inkişafı, işgüzar mobilliyin genişləndirilməsi və beynəlxalq əlaqələrin gücləndirilməsi üçün yeni impuls yaradır.

Yaxın zamanda reyslərin icrasına başlanılması planlaşdırılır. İlk mərhələdə Bratislava, Buxarest və Varşava istiqamətlərində reyslərin icrası nəzərdə tutulur.

"Azərbaycan Hava Yolları" QSC və "Wizz Air" aviaşirkəti yeni marşrutların açılması istiqamətində real irəliləyiş əldə edərək növbəti mərhələləri fəal şəkildə müzakirə etməyə davam edəcək. Məqsəd sərnişinlər üçün daha geniş, rəqabətqabiliyyətli və əlçatan marşrut şəbəkəsi yaratmaqla Azərbaycanın mülki aviasiya sektorunun regional və qlobal mövqelərini daha da möhkəmləndirməkdir.

# 11 ayda DSMF-nin xərcləri 6,8 milyard manat olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 11 ayında proqnozla müqayisədə 8 faiz və ya 537 milyon manat çox olmaqla 7 milyard 370 milyon manat olub.**



Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 7 faiz və ya 389 milyon manat artaraq 5 milyard 738 milyon manat olub.

Yanvar-noyabr aylarında DSMF-nin xərcləri 6 milyard 885 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 9 faiz və ya 586 milyon manat çoxdur.

# "Günəşli" sağlamlıq mərkəzində müalicə və istirahət şəraiti yaxşılaşdırılıb














**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən həmkarlar ittifaqı üzvlərinin əmək hüquqlarının müdafiəsi, layiqli iş şəraitinin yaradılması, əməyin təhlükəsizliyi, asudə vaxtının mənalı keçirilməsi tədbirləri ilə yanaşı, sağlamlığının qorunması və istirahətin səmərəli təşkili istiqamətində də ardıcıl və sistemli tədbirlər həyata keçirilir, müalicə və istirahət mərkəzlərində şərait yaxşılaşdırılır.**

Bakının Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən AHİK-in "Günəşli" sağlamlıq mərkəzində də şərait yaxşılaşdırılıb, infrastruktur yenilənib, mərkəz müasir tibbi avadanlıqlarla təchiz edilib.

Bu günlərdə AHİK-in, dövlət qurumlarının nümayəndələri və Milli Məclisin deputatları mərkəzdə görülən işlərlə tanış olublar.

Məlumat verilib ki, "Günəşli" sağlamlıq mərkəzi inzibati bina, iki yataq korpusu, müalicə korpusu, diaqnostika mərkəzi, klub, rəqs və idman meydançalarından ibarətdir. Burada ümumilikdə 243 çarpayılıq 133 otaq var. Sinir sistemi xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşan mərkəz fizioterapiya xidmətləri, müalicəvi naftalan, paranaft və mineral su vannaları təqdim edir. Burada həmçinin kedr çəlləyi, akupunktura, biopunktura, limfodrenaj, neyroson, ozonoterapiya, inhalyasiya və digər müalicə-profilaktik prosedurlar həyata keçirilir.

Bildirilib ki, sağlamlıq mərkəzinin yararsız halda olan yataq korpuslarının biri əsaslı şəkildə yenidən qurulub, şərait müasir standartlara uyğun olaraq yaxşılaşdırılıb. Korpusda zəruri avadanlıqlarla təchiz edilmiş 80 çarpayılıq 50 otaq var. Burada yeni tibbi avadanlıqlarla təchiz olunmuş həkim, masaj və vanna otaqları, həmçinin fizioterapiya kabinetləri müalicə alanların xidmətindədir.

Bununla yanaşı, ərazinin infrastrukturu yenilənib, daxili yollara yeni asfalt örtüyü çəkilib. Yaşıllaşdırma işləri çərçivəsində əraziyə ağac və bəzək kolları əkilib, işıqlandırma sistemi yenilənib, su təchizatı yaxşılaşdırılıb. Sağlamlıq mərkəzi Wi-Fi internet, IP telefoniya və təhlükəsizlik kameraları ilə təmin edilib.

Tədbir iştirakçıları "Günəşli" sağlamlıq mərkəzində yaradılan şəraiti, müalicə və istirahət imkanlarını yüksək qiymətləndiriblər.

*Bəhmən MİRZƏYEV, "Azərbaycan"*

## 11 Dekabr Beynəlxalq Dağlar Günüdür

# Dağlara dağ çəkməyək



**Yer kürəsinin 30 faizindən çoxunu əhatə edən dağlar əsrlər boyu xalqların sığınacağı, qədim inancların beşiyi, mədəniyyətlərin ilham mənbəyi olub. Dağlar sanki sükut içində danışan, minilliklərin yaddaşını özündə daşıyan təbiət kitabıdır. Bu kitabı oxumaq, qorumaq və gələcək nəsillərə ötürmək isə bizim məsuliyyətimizdir.**

## Bu, ekosistemin təhlükəsizliyi üçün vacibdir

Dünyanın içməli su ehtiyatlarının 60 faizindən çoxu məhz dağlardan qaynaqlanır. Onlar milyonlarla insanın həyatına nəfəs verir - tarlaları suvarır, şəhərləri içməli su ilə təmin edir, sənayeni irəli aparır və ekosistemləri yaşadır. Dağlar həm də iqlimin tənzimləyicisidir. Onlar temperatur balansını qoruyur, yağış və qar dövranını formalaşdırır, torpağın münbitliyini sabit saxlayır.

BMT Baş Assambleyasının qərarı ilə 2003-cü ildən etibarən hər il dekabrın 11-i dünya miqyasında Beynəlxalq Dağlar Günü kimi qeyd olunur. Bu gün, sadəcə, təqvim xatırlatması deyil, həm də dağların insan həyatında, təbiətin sabitliyində, ən əsası isə gələcəyimizdə oynadığı rolu yada salan mühüm bir çağırışdır.

Ətraf mühit və ekosistem üçün olduqca böyük əhəmiyyətə malik dağlar qlobal istiləşmə, insan fəaliyyəti və təbii fəlakətlər fonunda müəyyən təsirlərə məruz qalır. Ekoloq Cəmşid Bəxtiyar qəzetimizə açıqlamasında bu gün dağ ekosistemlərinin ciddi təhdid altında olduğunu bildirir. Onun sözlərinə görə, qlobal istiləşmə nəticəsində dağlarda buzlaqlar sürətlə əriməyə başlayıb: "İqlim dəyişikliyi dağlardakı buzlaqları sürətlə kiçildir. Mütəxəssislərin hesablamalarına görə, 2050-ci ilə qədər bir çox regionda buzlaqların 50 faizdən çoxu yox olacaq. Bu, su ehtiyatlarının azalması, quraqlıq və sel risklərinin artması deməkdir".

Torpaq sürüşmələri, eroziya, meşələrin qırılması və insan təsərrüfatının idarə edilməsindəki boşluqlar da dağların təbii quruluşunu zəiflədir. Ekoloq bildirir ki, meşələrin qırılması məsələsində son illər müəyyən müsbət addımlar atılsa da, təhlükə tam aradan qalxmayıb: "Ucqar kəndlərin qazlaşdırılması meşələrin qırılmasının çox hissəsinin qarşısını alıb. Amma bununla yanaşı, ucqar kəndlərdə bioqaz qurğularının tətbiqi də vacibdir. Meşələrin qorunmasında meşə gözətçilərinin də üzərinə böyük iş düşür. Onlar yalnız quru, çürümüş ağacların kəsilməsinə icazə verməli, xüsusən soyuq aylarda meşələrə nəzarəti gücləndirməlidirlər".

İqlim dəyişikliyinin ən görünən təsirlərindən biri yüksəklik qurşaqlarının yerdəyişməsidir. Cəmşid Bəxtiyar bildirir ki, xüsusilə Şərqi Zəngəzur dağlarında subalp qurşağı artıq 150-200 metr yuxarı qalxıb: "Əvvəllər müəyyən yüksəklikdə bitən Alp bitkiləri indi daha yuxarı çəkilir. Aşağı zonalarda isə bu növlərin kökü kəsilir. Xüsusilə giləmeyvə növlərinin yayılma arealı artıq hiss olunacaq dərəcədə dəyişib. Bu dəyişikliklər endemik növlərin yox olmasına gətirib çıxara bilər. Dağlar minlərlə bitki və heyvan növü üçün unikal yaşayış məskənidir və hər bir qurşağın yerinin dəyişməsi ekosistem zəncirini pozur".

Dağ yamaclarında nəzarətsiz otarılmanın yaratdığı təhlükə də böyükdür. Ekoloq izah edir ki, heyvan yükü normadan artıq olduqda torpaq örtüyü sürətlə məhv olur: "Bir hektar əraziyə düşən heyvan sayına dair normativlər var. Dağlıq ərazilərdə 25 dərəcədən artıq mailliyə malik yamaclarda otlaq qəti qadağan edilməlidir. Çünki xüsusilə qoyunlar torpağın üst qatını dırnaqları ilə didərək kök sistemini məhv edir. Bu, eroziyanı sürətləndirir, yağıntıların udulmasını azaldır və sel riskini artırır. Bu problem təkcə torpağa deyil, bitki örtüyünə, çaylara, hətta meşə örtüyünə qədər təbii bir dövrün pozulmasına səbəb olur. Lakin yalnız qadağa ilə iş bitmir, kəndlilərə otarılma üçün alternativ variantlar da təklif edilməlidir".

Dağlar hər zaman turistləri özünə cəlb edib. Lakin turizm idarə olunmadıqda təbiətə ağır ziyan vurur. Cəmşid Bəxtiyarın sözlərinə görə, turist yükü, məişət tullantıları, plastik çirklənmə, nəzarətsiz çadır düşərgələri, yol tikintisi və yamacların kəsilməsi dağ ekosistemini ciddi zəiflədir. Heyvanların miqrasiya yolları pozulur, su keyfiyyəti pisləşir, bitki örtüyü zədələnir. Bununla yanaşı, ekoturizmin müsbət tərəfləri də böyükdür. O, meşələrin bərpasına, qoruqların maliyyələşdirilməsinə, yerli icmaların sosial və iqtisadi inkişafına təkan verir. Turist axını olan bölgələrdə infrastrukturun yaxşılaşdırılması da qaçılmazdır. Lakin bütün bunların təbiətə ziyan vermədən baş verməsi üçün ciddi planlaşdırma və nəzarət zəruridir.

Ekoloqun fikrincə, dağ ekosistemlərini qorumaq üçün yamaclarda dayanıqlı tikinti standartlarının tətbiqi, su mənbələrinin monitorinqi və qorunması, qoruqların genişləndirilməsi, turist axınının tənzimlənməsi, dron və rəqəmsal monitorinq texnologiyalarının tətbiqi, eroziyanın qarşısını alan layihələrin həyata keçirilməsi vacibdir. Bu tədbirlər yalnız təbiətin deyil, gələcək nəsillərin rifahı üçün də vacib addımlardır.

Azərbaycan çaylarının 70 faizindən çoxu dağlarda formalaşır. Qar örtüyü, buzlaqlar və yağıntıların əsas toplanma mənbəyi məhz dağlardır. Bu səbəbdən dağlıq ərazilərdə baş verən hər bir dəyişiklik düzənlik bölgələrdəki kənd təsərrüfatına, su təhlükəsizliyinə və gündəlik həyata birbaşa təsir göstərir.

Cəmşid Bəxtiyar deyir ki, son illərdə su anbarlarının dolma səviyyələrində qeyri-sabitlik müşahidə olunur. Goranboyun Səfikürd kəndi yaxınlığındakı su anbarı əvvəllər dolu olurdu, indi isə nadir hallarda dolur. Bu, ətrafda rütubət balansının dəyişməsinə, bitkilərin durumuna və mikroiqlimə təsir edir. Bununla yanaşı, dağlarda hidroenerji layihələrinin genişlənməsi də müsbət hal kimi qiymətləndirilir.

"Azərbaycanın dağlıq əraziləri, xüsusilə Kəlbəcər və Laçın Qafqazın ən zəngin biomüxtəlifliyə malik bölgələrindən sayılır. Burada Qafqaz dağ alçası, ardıc meşələri, fıstıq, vələs, palıd ağacları, Xınalıq yoncası, Qarabağ dağ laləsi kimi endemik bitkilər, Qafqaz bəbiri, qartal, ayı, çöl donuzu, bezoar keçisi kimi nadir flora və fauna növləri mövcuddur. İşğal dövründə Qarabağ və Şərqi Zəngəzurda 60 min hektardan çox meşə məhv edilib, çaylar kimyəvi maddələrlə çirkləndirilib, torpaqlar ağır metallar və partlayıcı maddələrlə zəhərlənib. Minalanma səbəbindən bu gün də bir çox əraziyə daxil olmaq mümkün deyil. Lakin artıq qoruqların və milli parkların genişləndirilməsi, meşə bərpası layihələri, təbiətdə müşahidə üçün dronlardan istifadə, su hövzələrinin bioloji və mexaniki təmizlənməsi, yabanı heyvanların reintroduksiyası, Laçın və Kəlbəcərdə ekoloji monitorinq kimi genişmiqyaslı bərpa işləri həyata keçirilir", - deyə mütəxəssis məlumat verib.

Dağlar təkcə gözəllik deyil, onlar suyun, hava balansının, biomüxtəlifliyin və insan həyatının təməlidir. Onların hər qarışı canlıların yaşadığı böyük bir dünyadır. Qlobal istiləşmə, nəzarətsiz otarılma, çirklənmə, turist yükü, meşələrin qırılması və nizamsız tikinti bu nəhəng ekosistemin səssiz fəlakətinə yol açır. Dağları qorumaq gələcəyimizi qorumaq deməkdir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Məktublar: problemlər, rəylər, təkliflər...



● QƏHRƏMANLARIMIZ

## Əbədi yaşayan mərdlik nümunəsi

**Vətəni ürəkdən sevənlər, məqamında canını ona fəda edənlər əbədi bir ömür qazanırlar. Astaranın Əzərüd kəndində boya-başa çatan Pəncəli Teymurovun həyatı buna nümunədir.**



Astara elinin şəhidliyi Vətən sevgisindən başlanan igid oğlu 2016-cı ilin Aprel döyüşlərində erməni işğalçılarına qarşı son nəfəsinə qədər qəhrəmanlıqla döyüşüb. Onun kimi igidlərin torpağa axıtdıqları qanın hesabına Lələtəpədə ilk qələbə bayrağımız dalğalanıb. Odur ki, aramızda olmasalar da, adları çəkiləndə Azərbaycan xalqı qürur hissi keçirir.

Bu günlər Azərbaycan Yazıçılar İttifaqının cənub bölgəsi və Astara Pedaqoji Kollecinin təşkilatçılığı, şəhidlərin ailə üzvlərinin iştirakı ilə qəhrəmana həsr olunmuş tədbir keçirilib. Pəncəli Teymurovun xatirəsi ehtiramla yad edilib, Vətən uğrunda xidmətləri, hərbçi kimi yüksək peşəkarlıq, şücaət və mərdlik göstərməsi barədə danışılıb. Astara Pedaqoji Kollecinin direktoru, professor, şəhid atası Kamran Kazımov, kollecin Maliyyə-informatika və qida təhlükəsizliyi şöbəsinin müdiri, şəhid xanımı Nuranə Fərəcova bildiriblər ki, Pəncəli Vətən, torpaq uğrunda şəhidliyi ilə özünə əbədi abidə ucaldıb. İndi kiçik də, böyük də onunla fəxr edir. Ən böyük qürur yerimiz olmaqla o, qəlbimizdə əbədi yaşayacaq, hər an ehtiramla xatırlanacaq.

Tədbir iştirakçıları şəhidin məzarını ziyarət edib, önünə tər güllər düzüb, ev-muzeyində olublar.

Qeyd edək ki, "Qoca" ləqəbli əfsanəvi kəşfiyyatçı Pəncəli Nurməhəmməd oğlu Teymurov əsgəri borcunu şərəflə yerinə yetirdikdən sonra - 1999-cu ildən Xüsusi Təyinatlı Qüvvələrin tərkibində Vətənin keşiyində dayanıb. Nümunəvi xidməti ilə bir çox medala və mükafata layiq görülüb. O, 2016-cı il Aprel döyüşləri zamanı ölüm-dirim savaşı meydanında 35 yaşında şəhidlik məqamına ucalıb. Ölümündən sonra 2016-cı ildə "Vətən uğrunda" medalı, 2025-ci ildə isə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

**Zəfər ORUCOĞLU**

● İSTƏK

## Havalar işin sürətləndirilməsini tələb edir

**Ölkəmizin hər yerində davamlı olaraq abadlıq və quruculuq işləri aparılır. Salyan rayonunda da bu istiqamətdə işlər görülür.**

Onlardan biri də su-kanalizasiya sisteminin yenidən qurulmasıdır. İçməli su çəkilişi ilə əlaqədar işlər demək olar ki, başa çatmışdır. Salyan şəhərinin, eləcə də ona yaxın olan bir neçə yaşayış məntəqəsinin sakinləri üçün su problemi artıq öz həllini tapmışdır. Hazırda abonentlərə gün ərzində fasiləsiz olaraq içməli su verilir. Yay və payız aylarında suya qənaət məqsədilə axşam saatlarında suyun verilməsində müəyyən məhdudiyyətlər yaranmışdı. Amma sonradan bu məhdudiyyət aradan qaldırıldı.

İndi Salyan şəhərində, eyni zamanda ona yaxın olan yaşayış massivlərində kanalizasiya çəkilişi davam edir. Yaxşı başa düşürük ki, kanalizasiya çəkilişi ağır və çox vəsait tələb edən işdir. Ona görə bu işdə əməyi olan hər kəsə öz minnətdarlığımızı bildiririk.

Lakin onu da demək istəyirik ki, bu iş nə qədər sürətlə görülsə, tez başa çatdırılsa, bir o qədər yaxşıdır. Çünki qarşıdan qarlı-yağışlı günlər gəlir. Kanalizasiya xətlərinin çəkilişi zamanı



məlumdur ki, küçələrdə aparılan qazıntılar nəticəsində asfalt qatı qaldırılır. İşin əvvəlində qazılan asfalt qatının bərpası sürətlə aparılsa da, indi bu işlər nədənsə ləngiyir. Bu isə insanların və nəqliyyat vasitələrinin hərəkəti üçün problem yaradır. Odur ki, inşaatçılar kanalizasiya xətlərinin çəkilişini sürətləndirsələr, habelə qazılan yerlərin asfaltlaşdırılmasını vaxtında həyata keçirsələr, yaxşı olar.

***Salyan şəhər sakinləri:***
***Əziz BAXIŞOV,***
***Tural MƏLİKOV,***
***Sabir KƏRİMOV və başqaları***

AZƏRBAYCAN-a cavab verirlər

## Problem həll olunacaq

**Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinə daxil olan müraciətinizə cavab olaraq bildiririk ki, məqalədə qeyd olunmuş Yaşma yaşayış massivi ərazisinə Sumqayıt şəhər Təmizlik Departamenti MMC-nin əməkdaşları tərəfindən baxış keçirilmiş və yaxın zamanlarda yaşayış massivinə zibil konteynerlərinin qoyulması nəzərdə tutulmuşdur.**

Eyni zamanda bildiririk ki, sözügedən ərazilərdə olan fərdi yaşayış evlərindən məişət tullantıları Sumqayıt Şəhər Təmizlik Departamenti MMC-yə məxsus nəqliyyat vasitələri ilə həftənin müəyyən olunmuş günlərində daşınır. Sumqayıt Şəhər Təmizlik Departamenti MMC-nin səlahiyyətində olan və dislokasiyaya uyğun olaraq ərazi boyunca məişət tullantılarının daşınmasına, səliqə-sahmana departament tərəfindən ciddi nəzarət olunur və gündəlik olaraq mütəmadi təmizlik işləri aparılır.

***Səməd ƏHMƏDOV,***
***Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin rəis müavini***

● MƏMNUNLUQ

## Belə ola həmişə

**Ölkəmizdə dövlət siyasətinin əsasında vətəndaş amili, vətəndaş məmnunluğu dayanır. Bu nümunəni biz - Quşçu Ayrım kəndinin sakinləri öz həyatımızda aydın görürük.**



Kəndimizin sakinləri ilə keçirilən səyyar görüşdə rayon rəhbərliyindən 8 kilometr uzunluğunda kəndarası avtomobil yolunun cari təmirinə kömək göstərilməsini və yaşadığım məhəllədə avtomobil yolunun üzərindən keçən qaz borusunun yerinin dəyişdirilməsini xahiş etdim. Rayon rəhbəri hər iki məsələyə həssaslıqla yanaşaraq müvafiq təşkilatlara tapşırıqlar verdi. Qısa vaxt ərzində hər iki problem həll olundu. Təki belə ola həmişə.

***Salman QULİYEV,***
***Qazax rayonunun Quşçu Ayrım kəndinin sakini***

● FOTOETÜD

## Qağayıların rəqsi



**Şəhərin ilk işığında dəniz hələ oyanmamış kimi sakit olsa da, qağayılar şəhərin üstündə dolaşan həzin bir dua kimi çoxdan açıb qanadlarını. Geniş qanadları ilə səmada süzülən qağayılar dalğaların nəfəsini eşidirlər, bizim eşitmədiyimiz elə bir ritmlə uçurlar ki, sanki göy üzündə bir xoru tamamlayırlar.**

Hər qağayı bir az azadlıqdan danışır, bir az ayrılıqdan, bir az da insanın içindəki sonsuz mavi arzudan. Üstəlik, sahilin üstünü bəzəyən həmin səhnə - mavi səmanın fonunda alov kimi ucalan binaların arasında süzən qağayıların möhtəşəm rəqsi - şəhərin nəfəsini dəyişir. Aşağıda insanlar axın-axın keçirlər. Amma yuxarıda - onların başı üzərində azadlığın rəmzləri kimi uçan quşlar sanki günü bayrama çevirir. Onlar təkcə sahillərin fon səsi deyil, zəkaları ilə təbiətin diqqətçəkən quşlarındandır.

Və yağış başlayanda… hər şey daha sirli olur. İlk iri damlalar torpağa dəyəndə qağayıların səsi incə bir musiqi kimi havaya qarışır. Sanki yağış onların nəğməsinə ritm tutur, qanad çırpıntıları isə damcıların arasından yol açır. Yağışın və qağayıların səsləri birləşəndə qəribə bir romantika yaranır, sanki dənizin üzərində musiqili duyğu dolaşır… yalnız o an eşidilən, o an hiss edilən bir sevgi nəğməsi kimi.

Bulvarboyu insanlar tələsik addımlasalar da, qağayıların səsi şəhərin yorğun ürəyini yüngülləşdirir. Və elə həmin anlar bulvar, dəniz, mavi səma, qağayılar və şəhərin işıqları həmişəlik bir xatirəyə çevrilir… insana yaşadığını xatırladan yumşaq, romantik bir səhnə kimi.

***Nərminə ƏSGƏROVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

● TƏKLİF

## Çay da ehsandır

**Həyat elədir ki, bir gün gələn bir gün də bu dünyadan getməlidir. Bunu nə qədər dərk etsək də, insan üçün əzizinin, doğmasının itirilməsi ağır zərbə olur.**

Belə zamanlarda yaxınların, dostların gəlib başsağlığı vermələri, ailənin yanında olmaları bir təsəllidir və bu, xalqımızın böyüklüyünü, humanistliyini göstərir. Lakin yas mərasimlərinin dəbdəbəli məclislərə çevrilməsi, təmtəraqlı ehsan süfrələrinin açılması düz deyil. İsrafçılıq islam dinində də pislənilir.

Son zamanlar bu istiqamətdə rayonumuzda aparılan təbliğat işlərinin nəticəsidir ki, həm şəhərimizin özündə, həm də kəndlərimizdə ehsan süfrələri sadələşdirilib. Bu, əhali tərəfindən də müsbət qarşılanıb. Ona görə ki, həqiqətən əzizini itirmiş bir şəxsin o vəziyyətdə ağır məclis üçün ehtiyat görməsi düz deyil. Çoxları belə məclislərdən sonra borc altında qalır, mənəvi zərbə ilə yanaşı, həm də maddi cəhətdən sıxıntılarla üzləşirdi.

Rayon rəhbərliyinin, ağsaqqalların, ağbirçəklərin və Tərtər Cümə Məscidi dindarlarının apardıqları izahat işləri nəticəsində ehsan süfrələrinin sadələşdirilməsi olduqca təqdirəlayiqdir. Çünki biz o məclislərə təsəlli vermək, dərdə şərik olmaq üçün gedirik, bunu isə sadə çay süfrəsi arxasında da etmək olar.

Tərtərlilər ən çətin günlərdə bir-birinə dayaq olublar. Bu, indi də belədir və hər kəs ehsan verilməsi məsələsində eyni fikirdədir.

***Sofiya HƏSƏNOVA,***
***Tərtər şəhər sakini,***
***rayon Ağsaqqallar Şurasının üzvü***

● RAZILIQ

## Həm sürücülər rahatdırlar, həm də piyadalar

**Mən sürücüyəm. İşimlə bağlı tez-tez müxtəlif ünvanlara üz tuturam. Düzü, yaxın vaxtlaradək maşınla, xüsusilə ümumtəhsil müəssisələrinin qarşısından keçərkən həyəcanlanırdım. Çünki yol nişanları, yol hərəkəti iştirakçılarını məlumatlandırmaq məqsədilə yol-cizgi işarələri köhnəlmişdi, digər çatışmazlıqlar vardı. Bu isə istər-istəməz yollarda qəza şəraiti yaradırdı.**




Hazırda şəhərimizdə nəqliyyat vasitələrinin təhlükəsiz və nizamlı hərəkətini təmin etmək üçün işlər görülür. Öyrəndik ki, bu işlər Tərtər Rayon İcra Hakimiyyəti başçısının müvafiq quruma ünvanladığı məktubun icrası ilə əlaqədar həyata keçirilir.

Artıq sürücülər də, piyadalar da rahatdırlar. Çünki yollarda təhlükəsizliyin təmin edilməsi üzrə bütün tədbirlər həyata keçirilib.

***Andrey MOZQOVOY,***
***Tərtər şəhər sakini***

● ŞİKAYƏT

## Köhnə liftlər sökülüb, yenisi isə quraşdırılmır

**Bir aya yaxındır ki, Gəncə şəhəri, Aida İmanquliyeva küçəsi, 320 ünvanında yerləşən 12 A saylı binanın 2 lifti sökülsə də, yeniləri quraşdırılmır. Yaşlılar və xəstələr də daxil olmaqla bütün bina sakinləri mənzillərinə ayaqla çıxıb-düşməli olurlar.**



Əvvəlki liftlər köhnə olsalar da, sakinlər istifadə edirdilər. Lakin yenilərinin quraşdırılması məqsədilə onlar söküldü. Hətta təzə liftlər üçün ehtiyat hissələri də gətirilib binanın qarşısına yığıldı. Həmin vaxtdan bir aydan çox keçməsinə baxmayaraq, ehtiyat hissələri yağış altında qalıb, tədbir görən yoxdur.

Məsələ ilə əlaqədar Gəncə Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinə müraciət edəndə dedilər ki, sözügedən ünvanda köhnə liftin demontaj prosesi zamanı şaxtada problem çıxıb və bununla bağlı iş dayandırılıb. Fövqəladə Hallar Nazirliyinin Dağ-Mədən Nəzarəti və Sənayedə İşlərin Təhlükəsiz Görülməsi Agentliyinin Qərb Regional müfəttişliyinin mütəxəssisləri də şaxtaya baxış keçirərək akt tərtib ediblər. Agentlikdən deyirlər ki, yaranmış problem aradan qaldırıldıqdan sonra qurum mütəxəssislərinin rəyi əsasında montaj işlərinə başlanılacaq. İndi gözləyə-gözləyə qalmışıq.

Hörmətli redaksiya! Hazırda bina sakinləri çox əziyyət çəkirlər. Xahiş edirik bu işdə bizə kömək göstərib problemimizi ictimailəşdirəsiniz.

***Elxan MƏMMƏDOV,***
***Gəncə şəhər sakini***

● NARAZILIQ

## Səsimiz AYNA-ya çatmır

**Son illər Gəncənin siması tanınmaz dərəcədə dəyişib. Xüsusilə III MDB Oyunları ərəfəsində aparılan abadlıq və quruculuq işləri qədim Nizami yurdunu daha da gözəlləşdirib.**

AYNA
AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ

Lakin bir məsələ biz sakinlərdə narahatlıq yaradıb. Bu, yaşadığımız Cavadxan qəsəbəsinə işləyən marşrut avtobuslarının sayının azaldılmasıdır. O üzdən qəsəbə sakinləri səhər işə gedərkən və ya uşaqlar məktəbə yollanarkən uzun müddət avtobus gözləməli olurlar. Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə dəfələrlə müraciət etmişik. Lakin müraciətimiz səmərəsiz qalıb.

Hörmətli redaksiya! Qəsəbə sakinləri adından xahiş edirik ki, bu işdə bizə kömək göstərəsiniz, səsimizi AYNA-ya çatdırasınız.

**Əskinaz MƏMMƏDOVA,**
**Gəncə şəhər Cavadxan qəsəbəsinin sakini**





# Mədəniyyət





● Dəyərlər və mədəni irs

## Bakı Yaradıcı Həftəsi - ortaq dəyərlər, yeni ideyalar, güclənən əməkdaşlıq

**Azərbaycan özünəməxsus, qədim və zəngin mədəniyyəti ilə dünyada tanınır. Bu, qiymətli irsin təbliği isə dövlətimizin və xalqımızın ən mühüm milli-mənəvi vəzifələrindən biri sayılır.**



Ölkəmizin bir neçə minillik tarixə malik olan maddi və mənəvi mədəniyyəti yalnız regional deyil, qlobal miqyasda diqqət çəkir. Qobustan qaya təsvirlərindən tutmuş muğam sənətinə, xalçaçılıq ənənələrindən aşıq yaradıcılığına qədər çoxşaxəli irs həm xalqımızın kimliyini formalaşdırır, həm də dünya sivilizasiyasına böyük töhfələr verir. Məhz buna görə də milli dəyərlərin qorunması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biridir. Bu məqsədlə həyata keçirilən layihələr, beynəlxalq tədbirlər, sərgilər və mədəniyyət proqramları Azərbaycanın zəngin irsinin dünyaya tanıdılmasına xidmət edir və ölkəmizin mədəni diplomatiyasını daha da gücləndirir.

Bu mənada, İslam Əməkdaşlıq Təşkilatının "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə - 2025" ölkəmizin paytaxtında keçirilməsi növbəti uğurlu addım kimi dəyərləndirilməlidir.

Mədəniyyət və yaradıcı sənaye sahələrində əməkdaşlığın dərinləşdirilməsi, xalqlar arasında qarşılıqlı anlaşmanın və dostluq münasibətlərinin inkişaf etdirilməsi məqsədi daşıyan Mədəniyyət Festivalı İslam Əməkdaşlıq Təşkilatı (İƏT) tərəfindən 2019-cu ildən bəri müxtəlif üzv ölkələrdə təşkil olunur. Azərbaycan bu beynəlxalq tədbirə ilk dəfə evsahibliyi edir. "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə - 2025" dekabrın 5-dən keçirilir. Tədbir dekabrın 11-dək davam edəcək.

Heydər Əliyev Fondunun tərəfdaşlığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İslam Əməkdaşlıq Təşkilatının (İƏT) təşkilatçılığı ilə düzənlənən festival respublikamızın beynəlxalq mədəniyyət platformasında artan rolunu və regionda multikulturalizm, dialoq və əməkdaşlıq ənənələrinin təşviqinə verdiyi töhfəni bir daha nümayiş etdirir.

Festivalın açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli İslam Mədəniyyəti Festivalının Bakıda keçirilməsinin bütün islam dünyasından yaradıcı sənaye nümayəndələri üçün dialoq, tərəfdaşlıq və yeni ideyalar platforması rolunu oynayacağını qeyd edib: "40-dan çox ölkədən 300-dən artıq beynəlxalq iştirakçının, həmçinin 5 mindən çox ziyarətçinin gözlənildiyi bu tədbir yaradıcı sənaye sahəsində fəaliyyət göstərən bütün iştirakçıların əlaqələrinin genişlənməsinə və inkişafına mühüm töhfə verəcək, eyni zamanda ziyarətçilərə müxtəlif kreativ və innovativ həllər təqdim edəcək".

İƏT-in baş katibinin müavini və Əfqanıstan üzrə xüsusi nümayəndəsi Tarig Ali Bakhit Prezident İlham Əliyevin islam həmrəyliyinin möhkəmləndirilməsi yolunda göstərdiyi böyük dəstəyə görə təşəkkürünü bildirib. Qeyd edib ki, məhz bu möhkəm iradə və strateji yanaşma islam dünyasında əməkdaşlığımızın yeni mərhələyə keçməsinə ciddi töhfə verir: "Bu festival bizi mühüm platformada bir araya gətirərək birliyin, dialoqun və mədəni yaxınlaşmanın real təcəssümünə çevirir. İƏT-in katibliyi və bütün iştirakçı heyətin mədəni əlaqələrimizin dərinləşməsinə verdiyi dəstək qarşılıqlı dialoqun daha da güclənməsinə mühüm təsir göstərir. Bu kimi tədbirlər təkcə yaradıcılıq və mədəniyyət nümayişi deyil, həm də təşkilatımızı strateji baxımdan gücləndirən, ortaq dəyərlərimizi möhkəmləndirən vahid mədəni platforma yaradır. Belə bir platformanın formalaşması, təbii ki, gələcək fəaliyyətimizin daha sıx koordinasiyasına, qarşılıqlı anlayış və əməkdaşlığa xidmət edir".

Pakistan İslam Respublikasının federal milli irs və mədəniyyət naziri Aurangzeb Khan Khichi çıxışında diqqətə çatdırıb: "Bu tədbir bir daha nümayiş etdirir ki, ortaq tariximiz, mədəni köklərimiz və dini birliyimiz bizləri təkcə simvolik deyil, real tərəfdaşlıq ruhu ilə birləşdirir". Azərbaycanın mədəniyyət diplomatiyası sahəsində atdığı addımların, habelə regional və qlobal miqyasda mədəni əməkdaşlığa verdiyi töhfənin təqdirəlayiq olduğunu vurğulayan nazir qeyd edib ki, biz bu səmərəli fəaliyyətin davamlı olacağına və islam dünyasının mədəni identikliyinin daha da güclənməsinə xidmət ediləcəyinə inanır".

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslan isə festivalın açılış mərasimində çıxışında vurğulayıb ki, İƏT Mədəniyyət Festivalı yalnız sənət təzahürü deyil, həm də xalqlarımız arasında mənəvi bağ, qarşılıqlı anlaşma və birgə tarixi yaddaşın gücləndirilməsi üçün mühüm vasitə olduğunu bir daha göstərir: "Azərbaycanın mədəni diplomatiya sahəsində nümayiş etdirdiyi liderlik isə regional həmrəyliyin formalaşmasına verdiyi töhfələr həm Türkiyə, həm də bütün islam dünyası tərəfindən yüksək dəyərləndirilir".

İƏT Mədəniyyət Festivalı proqramı zəngin və rəngarəngdir. Festival çərçivəsində İƏT üzv dövlətləri mədəniyyət nazirlərinin görüşü, "Mədəni və yaradıcı sənayelər forumu" (MYFORUM), "Creative Village": mədəni və yaradıcı sənayelər sərgisi" (MYEXPO), "Baku Cinema Breeze - 2025" beynəlxalq kino proqramı, "Şərq moda nümayişi" - İƏT ölkələrinin gənc və tanınmış dizaynerlərin təqdimatları, oyun texnologiyaları üzrə beynəlxalq sammit (G-HUB), eləcə də teatr, musiqi, rəqs və animasiya sahələri ilə bağlı müxtəlif səpkili mədəni layihələr planlaşdırılıb.

Festivalın davam etdiyi günlərdə təşkil olunan tədbirlərdə müzakirəyə çıxarılan və fikir mübadilələri aparılan mövzuların əhəmiyyəti, aktuallığı beynəlxalq əməkdaşlığın möhkəmlənməsində yeni imkanlar açır. Belə ki, dekabrın 8-də "İslam ölkələrində mədəniyyət sahəsində texnologiyaların inkişafı" (CulTech) mövzusunda panel sessiya bir sıra maraqlı çıxışlarla yadda qalıb. Həmin gün "Yaradıcı və mədəni sənayelərdə məşğulluq imkanları" adlı növbəti panel müzakirəsi zəngin yaradıcılıq ideyalarının necə uğurlu və dayanıqlı peşə fəaliyyətinə çevrilə biləcəyinə həsr olunub. Dekabrın 9-da oyun sənayesi üzrə beynəlxalq panel - "G-HUB: İƏT Ölkələrində Oyun Texnologiyalarının İnkişafının Yüksəlişi və Əməkdaşlıq İmkanları" təşkil olunub. Oyun sektorunun İƏT məkanında sürətlə artan potensialını dəyərləndirmək, regional bazarlar arasında əməkdaşlıq imkanlarını genişləndirmək və oyun istehsalının qlobal səviyyədə mövqeyini gücləndirmək panelin əsas məqsədi olub.

İƏT Mədəniyyət Festivalında mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, islam dəyərlərinin - tolerantlıq, sülh və müxtəlifliyə hörmətin təbliği əsas istiqamətlərdəndir. Həmçinin iqtisadiyyat, təhsil, elm və turizm sahələrində birgə layihələrin təşviqi, üzv dövlətlər arasında dayanıqlı tərəfdaşlıqların qurulması və yaradıcı sənayelərin qlobal iqtisadiyyata inteqrasiyasının gücləndirilməsi nəzərdə tutulub.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan*

● Ədəbi simalar

## Qazaxda Yusif Səmədoğlunun ədəbi irsinə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir

**Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış ictimai xadim Yusif Səmədoğlunun 90 illik yubileyi ölkənin hər yerində olduğu kimi, ata yurdu Qazaxda da silsilə tədbirlərlə qeyd olunur.**



Bu günlər rayon icra hakimiyyətinin, Azərbaycan Yazıçılar Birliyi Qazax Bölməsinin və Bakı Dövlət Universiteti Qazax filialının birgə təşkilatçılığı ilə Xalq yazıçısının anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Yusif Səmədoğlunun ədəbi irsi: ənənə və müasirlik kontekstində" mövzusunda növbəti tədbir - elmi-praktik konfrans keçirilmişdir.

Konfrans iştirakçıları əvvəlcə şəhərin mərkəzində yerləşən "Fəxri qazaxlılar" parkında Xalq yazıçısının büstü önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad etmiş, sonra Ədəbiyyat Muzeyində şairin həyat və yaradıcılığını əks etdirən kitab və fotosərgi ilə tanış olmuşlar. Muzeyin böyük zalında davam edən tədbirdə yazıçının həyat və yaradıcılığına həsr edilmiş video-çarxın nümayişindən sonra rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək bildirmişdir ki, Yusif Səmədoğlu XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olmuşdur: "O, həyatı boyu həm ədəbi, həm də ictimai-siyasi fəaliyyətində azərbaycançılıq mövqeyində durmuş, azadlıq, demokratiya, müstəqillik duyğusu ilə yaşamışdır. Millilik, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, milli mədəniyyətin, milli əxlaqın gənc nəslə çatdırılması baxımından onun əsərləri dəyərli və güclüdür. Yazıçı azad, müstəqil və mədəni həyat yolu keçmişdir. Y.Səmədoğlunda Vətən sevgisi güclü idi. O, əsərlərində zamanın nəbzini tutaraq günün mühüm məsələlərinə toxunmuş, mənəvi-ictimai problemləri ön plana çəkmiş, dövrün, yaşadığı mühitin eybəcərliklərini ifşa və tənqid hədəfinə çevirmişdir".

Azərbaycan Yazıçılar Birliyi Qazax Bölməsinin sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək Yusif Səmədoğlu ilə bağlı xatirələrini bölüşmüş, onun yaradıcılığının bugünkü gənc yazarlara örnək olduğunu qeyd etmişdir.

Sonra BDU-nun Qazax filialının kafedra müdiri, filologiya üzrə fəlsəfə doktoru İradə Arıxova, Gəncə Dövlət Universitetinin kafedra müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Səba Namazova məruzələrlə çıxış etmişlər.

Konfransın sonunda Yusif Səmədoğlunun 90 illik yubileyi ilə əlaqədar tələbələr arasında keçirilən esse müsabiqəsinin qaliblərinə təşəkkürnamələr təqdim olunmuşdur.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## "Bakı islam dünyasının müxtəlif ölkələrindən olan çoxsaylı dəyərli insanları bir araya gətirib"

**"Bu, mənim Azərbaycana ilk səfərimdir. Bakı şəhərini həm gözəlliyi, həm də mədəniyyət və incəsənət zənginliyi ilə heyranedici hesab edirəm. Eyni zamanda paytaxtınızın mükəmməl şəhərsalma və ətraf mühit planlamasını yüksək qiymətləndirirəm".**




Bunu AZƏRTAC-a açıqlamasında Bakıda keçirilən "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə - 2025"də iştirak edən Misir Ərəb Respublikasının mədəniyyət naziri Ahmed Fouad Hanno deyib.

"Tədbir islam dünyasının müxtəlif ölkələrindən olan çoxsaylı dəyərli insanları bir araya gətirir. Bu insanların hamısı dil, mədəniyyət və incəsənət sahəsində ortaq maraqlar ətrafında birləşir. Belə tədbirlər islam ölkələri arasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın inkişafı, möhkəmləndirilməsi üçün əvəzsiz bir platformadır", - deyə misirli nazir vurğulayıb.

● Xoş istirahət

## Ölkəmizdə qış turizminin coğrafiyası böyüyür

### Bunun sayəsində Azərbaycana gələnlərin sayı ildən-ilə artır

**Dünyada olan 11 iqlim şəraitinin 9-nu özündə ehtiva edən Azərbaycanda, xüsusən də qış aylarında Böyük və Kiçik Qafqazın qarlı dağları, dağətəyi bölgələri bu yerlərə səyahətə gələnlərə başqa aləm yaşadır.**

2025-ci ilin 10 ayında Azərbaycana dünyanın 183 ölkəsindən 2 milyon 171,6 min xarici və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 24,4 faizi Rusiya Federasiyası, 17,4 faizi Türkiyə, 8 faizi İran, 6,6 faizi Hindistan, 4,3 faizi Səudiyyə Ərəbistanı, 4,2 faizi Gürcüstan vətəndaşları olublar. Bir neçə həftə bundan əvvəl Qubaya, Qusara, Gədəbəyə, Daşkəsənə, Kəpəzə, Laçına, Şahdağa və digər ərazilərə yağan qarın sorağı ilə adları qeyd olunan xarici ölkələrdən, xüsusən də Şimaldan, Şimal-Şərqi ölkələrdən, eləcə də Avropa ölkələrindən gələnlərin sayında artım müşahidə olunur.

Böyük Qafqaz dağlarında qış mövsümü başqa möcüzədir. Burada xizəksürmə həvəskarları insan ayağı dəyməyən gözəl məkanlarla qarşılaşırlar. Yamaclarda cəsarətlə sürüşənlər dünya səviyyəli iki məşhur dağ-xizəksürmə kurortunda - Qusarda "Şahdağ", Qəbələdə "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində xizək sürməkdən zövq alırlar. Onlar üçün Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycanın heyrətamiz mənzərələri, maraqlı qış festivalları, dünya səviyyəli dağ-xizək kurortları qarlı və soyuq havalarda istirahət üçün əla məkandır. Əminliklə demək olar ki, qonaqpərvər insanlar diyarının gözoxşayan, əsrarəngiz təbiəti, görməli yerləri turistlərin yaddaşında silinməz izlər buraxır.

Bu yerlərə gələnlər Qış festivallarında iştirak etməkdə çox maraqlıdırlar. Paytaxt Bakı unudulmaz anların zövqünü yaşamaq üçün uzaq və yaxından gəlmiş qonaqları qəbul edən mədəni meqapolisdir. Qış turizmi həvəskarları Bakıda keçirilən "Soyuq əllər, isti ürək" adlı xeyriyyə yarmarkasında da həvəslə iştirak etməkdən məmnundurlar. Sayrışan parlaq işıqlar, isti içkilər və zəngin dadlı yeməklər səyahətçilərdə həddən artıq bayram əhvali-ruhiyyəsi yaradır.

Azərbaycanın qədim diyarı Qəbələ rayonu ərazisində bənzərsizliyi ilə seçilən "Tufandağ" Dağ-Xizək Kompleksi Böyük Qafqaz dağlarının ətəyində yerləşir. Azərbaycanın bu gözəl guşəsi göllər, şəlalələr, çaylar və dağlarla zəngindir. Keçmiş Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ qədim tarixi və mədəniyyəti ilə seçilir. Bölgədə eyni zamanda 16 hektarlıq əyləncə və macəra ərazisi - Azərbaycanın ən böyük əyləncə parkı - "Qəbələnd" də fəaliyyət göstərir.



Xüsusi hazırlanmış 15 kilometrlik yamaclar snoubordinq və xizəklə sürüşmək üçün əla məkandır. Xizək sürməyi ilk dəfə sınayanlar bu əyləncəli idman növü ilə məşğul olmaq üçün istirahət kompleksinin xizəksürmə məktəbinin təcrübəli əməkdaşlarının dəstəyindən istifadə edirlər. Xatırladaq ki, restoran, kafe, bar və istirahət zonaları ilə təchiz olunmuş Tufandağ gəzintidən sonra səyahətçilərdə maraqlı anlar yaşadır.

Qış mövsümü ilə əlaqədar Qusar rayonu ərazisindəki "Şahdağ" Turizm Mərkəzi də ən gözəl istirahət ünvanlarından biridir. Səyahətçilərə sıx meşəliklərdə və qarlı dağlarda açıq havada istirahət və əyləncə proqramları təşkil olunur. Yeri gəlmişkən, deyək ki, şəhər mərkəzindən uzaqlaşmaq istəyənlər üçün "Şahdağ" Turizm Mərkəzi mükəmməl qış istirahət zonasıdır. Qarla örtülmüş dağ yamacı həm xizəkçilər, həm də isti və rahat divar sobası ətrafında dincəlmək istəyənlər üçün ideal məkandır.

Xizək sürməyə marağı olmayan turistlər motorlu xizəklə, asma kanatla, dağ yolları ilə, habelə velosiped gəzintisi və yamac paraşütçülüyü, bir qismi isə qar təmizləyən maşın və atla gəzinti ilə günlərini maraqlı keçirirlər.

İşğaldan azad edilmiş Qarabağ bu gün yay-yaz turizmi ilə deyil, həm də qış turizm potensialı ilə diqqət çəkir. Bu bölgədə dağ turizmi, xüsusilə qış turizmi üçün də geniş imkanlar mövcuddur. Şuşa şəhəri və onun ətrafındakı əzəmətli dağlar, Xankəndi, Laçın, Kəlbəcər və digər rayonlar qış turizmi baxımından unikal məkanlardır.

Azərbaycanın ən qədim əraziləri olan Qarabağ və Şərqi Zəngəzur təkcə tarixi və siyasi əhəmiyyətinə görə deyil, həm də qış turizm potensialına görə diqqətçəkəndir. Şuşa şəhəri və ətraf ərazilər qış turizmi üçün əvəzolunmaz yerlərdir. Ekspertlərin fikrincə, Şuşaya çəkilən yeni dəmir yolu və yaradılan nəqliyyat infrastrukturu bu ünvanlara turizm axınını da artıracaq.

Hazırda Qarabağ iqtisadi rayonunda olduğu kimi, bütün bölgələrdə dünya standartlarına uyğun turizmin inkişafı üçün ardıcıl işlər həyata keçirilir. Sülh sazişi tezliklə imzalanarsa, Ermənistan tərəfindən gələn turistlərin Naxçıvana səfər etməsi də qış turizminin inkişafına töhfə verə bilər. Səyahətçilərin Gürcüstandan Naxçıvana quru yol ilə Ermənistan üzərindən daha rahat gəlməsi mümkün olacaq ki, bu da yeni turizm axınına səbəb olacaq. Eyni zamanda Ermənistana və Gürcüstana gələn xarici turistlərin də Naxçıvana keçidi asanlaşacaq. Görünən odur ki, ölkəmizdə qış turizminin coğrafiyası böyüdükcə, Azərbaycana gələn turistlərin də sayı ilbəil artır.

*Rəhman SALMANLI, "Azərbaycan"*

# Xarici xüsusi xidmət orqanlarının tapşırığı ilə ağır cinayətlər törətmiş Azərbaycan vətəndaşları saxlanılıblar

**Xarici xüsusi xidmət orqanlarının tapşırığı ilə ağır cinayətlər törətmiş Azərbaycan vətəndaşları saxlanılmışlar.**

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycan Respublikasının vətəndaşlarından ibarət qanunsuz silahlı birləşmələrin yaradılması, xarici xüsusi xidmət orqanları tərəfindən onlardan kəşfiyyat-pozuculuq, terror-təxribat məqsədləri üçün istifadə olunması barədə daxil olan məlumatlar əsasında kompleks araşdırma tədbirləri həyata keçirilmişdir.

Görülmüş müvafiq tədbirlərlə Azərbaycan Respublikasının hüdudlarından kənarda qanunsuz silahlı birləşmənin fəaliyyətinin təşkili, həmin birləşmənin tərkibində xarici dövlətin rəsmi şəxslərinin güdülməsi və digər cinayət əməllərinin törədilməsinə cəlb edilmiş, özlərini "kriminal aləm"in nümayəndələri hesab edən Azərbaycan Respublikasının vətəndaşları müəyyənləşdirilərək ifşa olunmuşlar.

Qeyd olunan cinayət əməllərinin törədilməsində şübhəli bilinən 1995-ci il təvəllüdlü Məmmədov Amid Saməddin oğlunun xarici ölkə ərazisində gizləndiyi yer müəyyən edildikdən sonra o, keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılmış, Azərbaycan Respublikasına gətirilərək istintaqa cəlb edilmişdir.

Eləcə də, bu cinayətlərin törədilməsində şübhəli bilinən 1997-ci il təvəllüdlü Səfərov Nurlan İlham oğlu və 1983-cü il təvəllüdlü İsrafilov Edik Nəbi oğlu saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunmuşlar.

Adları çəkilən şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddələri ilə ittiham olunaraq, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Davam edən tədbirlər və cinayət məsuliyyətinə cəlb edilmiş digər şəxslər barədə ictimaiyyətə əlavə məlumat təqdim ediləcəkdir.

# Ermənistanda "kilsə hakimiyyəti"nin "dövlət içində dövlət" dövrü sona çatır

**Tarixçilərə, siyasətçilərə, habelə araşdırmaçılara yaxşı məlumdur ki, "daşnaksütyun" terror təşkilatının "qayğısı ilə boya-başa çatan kilsə hakimiyyəti" ötən əsrin əvvəllərindən Azərbaycanda, o cümlədən coğrafiyamızın qərbində - bolşevik Rusiyasının dəstəyi ilə Ermənistan adlandırılan ərazisində özünü həmişə "dövlət içində dövlət" hesab edib.**



Xatırladaq ki, erməni Baş nazirin kilsə ilə qarşıdurması hələ 2018-ci ildən - hakimiyyətə gəlişindən sonra başlayıb. Əsas motiv erməni kilsəsinin Ermənistan dövlətindən daha güclü olmaq və dəstəklədiyi ideologiya ilə N.Paşinyanın "yeni Ermənistan" konsepsiyasına qarşı çıxmaq istəməsidir.

"Daşnaksütyun", eləcə də bəzi müxalif partiyalar üçün kilsə "kiçik Ermənistan" deməkdir. Onların təbirincə hakimiyyət və sadə xalq kilsənin dirijor çubuğu ilə hərəkət etməlidir. Kilsənin bayrağı altında birləşən bu qüvvələr "dənizdən-dənizə böyük Ermənistan" xülyasının reallaşdırılması üçün əsrlərdir ki, özlərini oda-közə vururlar. Odur ki, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın işğal altında olan torpaqlarını azad edərək ərazi bütövlüyünü təmin etməsini kilsə heç cür həzm edə bilmir. Çünki Azərbaycanın bu Zəfəri kilsənin əsrlərdən bəri formalaşdırdığı "böyük Ermənistan" ideologiyasını darmadağın edib.

Yeni dünya düzənində Ermənistanın dövlət kimi qala bilməsinə çalışan Nikol Paşinyan isə erməni cəmiyyətini zamanın tələbləri ilə hesablaşmağa çağırır. Kilsə isə bunun əleyhinə çıxır. Bu səbəbdəndir ki, 5-6 ildən çoxdur İrəvanda kilsə-iqtidar qarşıdurması gah gizli, gah aşkar davam edir. Son günlər bu qarşıdurma, belə demək mümkündürsə, özünün kulminasiya nöqtəsinə çatıb. N.Paşinyanın erməni keşişlərini "subaylıq andını pozmaq"da ittiham etməsi ilə kilsə-iqtidar qarşıdurması Ermənistanda hakimiyyət uğrunda mübarizə üçün bəhanə olub. Baş nazirin rəhbərlik etdiyi "Vətəndaş müqaviləsi" partiyasının parlament fraksiyası bu dəfə kilsənin dövlətə qarşı maliyyə hesabatlığını qanunla tənzimləmək istəyir. Fraksiya katibi Artur Ovannisyanın sözlərinə görə, sosial şəbəkədə keçirilən sorğuda iştirak edənlərin 96 faizi bu təşəbbüsə "bəli" deyib.

Ümumiyyətlə, Ermənistanda kilsə-hakimiyyət qarşıdurması artıq sırf dini müstəvini aşaraq dövlətçilik məsələsinə çevrilib. Qarşıdan gələn seçkilərdə erməni müxalifəti və onların havadarları bu seçkini də təkbaşına uda biməyəcəklərini anlayıb böyük həvəslə kilsəni də bu işə cəlb ediblər. Kilsə bu çağırışa can-başla qoşularaq iqtidarı süquta uğratmaq üçün özünün "zəngin" təcrübəsindən maksimum istifadə etməyə çalışır.

Son ayların hadisələri göstərir ki, Paşinyan bu prosesdə yalnız müdafiə mövqeyində çıxış etmir, əksinə, strateji təşəbbüsü ələ keçirərək kilsənin uzun illər toxunulmaz sayılan səlahiyyətlərini ardıcıl şəkildə məhdudlaşdırmaqla məşğuldur. N.Paşinyanın atdığı addımların mahiyyəti sadədir: dövlətin dünyəvi xarakterini möhkəmləndirmək, kilsənin siyasi prosesləri diktə etmək imkanlarını minimuma endirmək və ictimai rəyin dəstəyilə "dövlət içində dövlət" olmaq istəyən Eçmiədzinin real təsir gücünü heçə endirmək.

Ekspertlərin fikrincə, N.Paşinyan kilsəyə qarşı mübarizədə siyasi üstünlüyü tam ələ alıb. Kilsənin zəif tərəflərini sistemli şəkildə hədəfə alan hökumət başçısı bu gün təşəbbüsün yeganə sahibidir. Hökumət kilsənin dövlət içində paralel institut kimi möhkəmlənməsinə son qoyur və onu sırf dini struktura çevirir. Eçmiədzin isə hələlik strategiya ortaya qoya bilmir, bəyanatlarla və müdafiə mövqeyi tutmaqla kifayətlənir. Reallıq budur ki, Ermənistanda kilsə-hakimiyyət balansı pozulub və bu balansın yeni istiqamətini N.Paşinyan müəyyənləşdirir.

Katolikosluğun iclası təxirə salaraq "repressiyalar" bəhanəsinə sığınması da yaranmış situasiyada kilsənin müdafiə mövqeyində olduğunu göstərir. Odur ki, kilsə öz daxili böhranını hökumətin üzərinə atmağa çalışır. II Qaregini müdafiə edən I Aramın çağırışları da səmərə vermir, çünki Kilikiya katolikosluğunun nüfuzu yoxdur və Ermənistan daxilində baş verən proseslərə təsir imkanları məhduddur. Bu isə dövrün tələblərindən hesab edilən "kilsə hakimiyyəti"nin süqutu deməkdir. Ermənistan ictimaiyyətində kilsənin nüfuzdan düşməsi qarşıdakı seçkilərdə N.Paşinyanın uğurundan xəbər verir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Yağıntılar tədricən kəsiləcək

**Azərbaycanda dekabrın 11-nə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Gecə yarımadanın ayrı-ayrı yerlərində yağışın leysan xarakterli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-9, gündüz 10-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 765 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-90, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının leysan xarakterli olacağı ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək. Gündüz hava şəraiti əksər rayonlarda əsasən yağmursuz keçəcək, bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 4-8 dərəcə isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurun bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 6-10 dərəcə isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-8 dərəcə isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanın bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 4-8 dərəcə isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı, sulu qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-5, gündüz 7-11 dərəcə isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarın bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhərdən qərb rayonlarında yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5, gündüz 5-10 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 1-6 dərəcə isti olacağı proqnozlaşdırılır.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7, gündüz 9-14 dərəcə isti olacağı bildirilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Gecə və axşam ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər yağıntıda fasilə olacaq. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-8, gündüz 8-11, dağlarda gecə 0-3, gündüz 4-6 dərəcə isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# Aİ ölkələri "miqrasiya yükünün bölüşdürülməsi" barədə razılığa gəliblər

## Avropa ölkələri Aİ xaricində miqrasiya mərkəzləri tikəcəklər

**Avropa ölkələri miqrasiya nəzarəti və qanunsuz miqrantların deportasiyasının asanlaşdırılması ilə bağlı bir neçə qanun layihəsi üzərində razılığa gəliblər. Xüsusilə Aİ ölkələri ikitərəfli müqavilələr əsasında Avropa xaricində miqrasiya mərkəzləri tikə və miqrantları üçüncü ölkələrə qaytara biləcəklər. Brüssel həmçinin miqrantların tez bir zamanda qəbul edilə biləcəyi "təhlükəsiz ölkələr"in siyahısını təsdiqləyib.**



Danimarkanın immiqrasiya və inteqrasiya naziri Rasmus Stoklund bununla bağlı deyib: "İndi Aİ ölkələrinə üçüncü ölkələrlə əməkdaşlıq çərçivəsində qəbul mərkəzləri və digər oxşar hallərə imkan verən hüquqi çərçivəmiz var. Bu, mövcud sığınacaq sisteminin əsas qüsurlarını aradan qaldırmaq üçün çox vacibdir. Biz illərdir deyirik ki, bu işləmir, ehtiyacı olmayan insanlara yardım edirik və həqiqətən ehtiyacı olanlara kömək etmirik və Avropaya miqrasiyanı idarə edə bilmirik. Beləliklə, bu gün irəliyə doğru mühüm bir addım atdıq".

Aİ-yə üzv dövlətləri həmçinin gələn il üçün Miqrant Həmrəylik Birliyi Fondunun həcmi barədə razılığa gəliblər - bu, miqrant yükünün blok daxilində yenidən bölüşdürülməsi mexanizmidir.

Beləliklə, ən ağır vəziyyətə malik ölkələrdən - Yunanıstan, İspaniya, İtaliya və Kiprdən 21.000 miqrant köçürülə bilər. Bunun üçün 420 milyon avro ayrılacaq. Bu, gözləniləndən azdır: Avropa Komissiyası ildə ən azı 30.000 köçürülmə və 600 milyon avroya ehtiyac olduğunu təxmin edib. Lakin mexanizm yalnız yayda işləyəcəyi üçün ilin ancaq yarısını əhatə edəcək.

Aİ ölkələri "həmrəylik birliyi"nə köçürülmə, maliyyə yardımları və ya öz personalını təmin, yaxud qəbul mərkəzlərinin tikintisinə kömək etmək kimi "alternativ tədbirlər" vasitəsilə töhfə verə bilərlər.

Qeyd edək ki, 4 ölkə - Avstriya, Polşa, Xorvatiya və Çexiya çox çətin miqrasiya vəziyyəti ilə üzləşdikləri üçün adıçəkilən fonda pul köçürmədən və maliyyə yardımlarından tamamilə azad ediliblər. Ümumilikdə hər bir ölkənin konkret öhdəlikləri fondun dekabrın 16-na planlaşdırılan yekun təsdiqinə qədər açıqlanmır. Amma, Aİ mənbələrinə görə, əksər ölkələr maliyyə yardımlarının məbləğini artıq seçiblər.

# "Jeune Afrique": Benində çevriliş təşkilatçısı Toqoya qaçıb

**Dekabrın 7-də Benində hakimiyyəti ələ keçirməyə cəhd edən ordu polkovnik-leytenantı Paskal Tiqri siyasi sığınacaq almaq üçün Toqo Respublikasına qaçıb. Bu barədə "Jeune Afrique" jurnalı Benin hökumətindəki mənbəyə istinadən məlumat yayıb.**



Çevrilişə cəhd günü Paskal Tiqri televiziya studiyasından canlı yayıma çıxaraq Hərbi Yenidənqurma Komitəsinin ölkədə hakimiyyəti tam ələ keçirdiyini və Prezident Patris Talonun hakimiyyətdən uzaqlaşdırıldığını elan edib. Cəhd yatırıldıqdan sonra P. Tiqrinin harada olduğu məlum deyildi.

Jurnalın məlumatına görə, o, hazırda Toqonun paytaxtı Lomedədir. Bildirilir ki, Benin hakimiyyəti üsyançı liderin ekstradisiyası üçün İnterpola sorğu göndərməyi planlaşdırır. "Reuters" agentliyi isə Toqonun Xarici İşlər Nazirliyinin Benindəki çevriliş təşkilatçısının hazırkı yeri ilə bağlı hələlik şərh vermədiyini bildirib.

"Jeune Afrique" xəbər verir ki, Toqo və Benin dostluq münasibətləri saxlayırlar, lakin əvvəllər Mali və Nigerdə hakimiyyətə gələn üsyançılarla bağlı fərqli mövqelər tuturlar. Benin rəhbərliyindən fərqli olaraq, Toqo hakimiyyəti onları qəbul edib.

Çevriliş etmək istəyən Paskal Tiqri əvvəllər Benin ordusunda birləşmiş silahlı batalyona komandanlıq edib və sonra Milli Qvardiyanın tərkibində xüsusi təyinatlı qüvvələr bölməsinin (ölkənin yüksəkvəzifəli şəxslərinin təhlükəsizliyinə cavabdehdir) rəhbəri olub. O, 2026-cı il prezident seçkilərində iştirak etməkdən məhrum edilmiş müxalif "Demokratlar" partiyası sədrinin müavini Alassane Tiqrinin kiçik qardaşıdır.

Medianın xəbər verdiyi kimi, P.Tiqrinin dövlət televiziyasındakı açıqlaması Mali, Niger və Burkina Fasodakı çevriliş təşkilatçılarının oxşar açıqlamalarını təkrarlayır. O, ordunun hərəkətlərinin səbəbləri kimi ölkədəki "pisləşən təhlükəsizlik vəziyyətini" və korrupsiyanı göstərib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın İdarə Heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi

**ELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bəxtiyar Sadıqov Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi

**ELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4131
Sifariş 2499

Qiyməti 60 qəpik